ISSN: 2663-4619
e-ISSN: 2708-986X

ELMİ İŞ

Beynəlxalq Elmi Jurnal

SCIENTIFIC WORK

International Scientific Journal

AZƏRBAYCAN RESPUBLİKASI

THE REPUBLIC OF AZERBAIJAN

ELMİ İŞ

Beynəlxalq Elmi Jurnal

Cild: 19 Sayı: 1

SCIENTIFIC WORK

International Scientific Journal

Volume: 19 Issue: 1

Bakı – Baku
2025

Jurnal 25.04.2007-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.
Reyestr № 2212

The journal is included in the register of Press editions of the Ministry of Justice of the Republic of Azerbaijan on 25.04.2007.
Registration No. 2212

Redaksiyanın ünvanı
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

Editorial address
AZ1073, Baku,
Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House,
6th floor

Tel.: + 994 50 209 59 68
+ 994 99 809 67 68
+ 994 99 808 67 68
+ 994 12 510 63 99

e-mail
elmmerkezi@aem.az

Beynəlxalq indekslər / International Indices

ISSN: 2663-4619
e-ISSN: 2708-986X
DOI: 10.36719

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

Təsisçi və baş redaktor

Tədqiqatçı Mübariz HÜSEYİNOV, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
https://orcid.org/0000-0002-5274-0356
tedqiqat1868@gmail.com

Redaktor

Prof. Dr. Mahirə HÜSEYNOVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
https://orcid.org/0000-0002-5135-1666
huseynova.mahira@yandex.ru

Redaktor köməkçiləri

Doktorant Nərgiz SƏLİMOVA, Azərbaycan Dillər Universiteti / Azərbaycan
https://orcid.org/0000-0001-5499-7035
salimovanargiz.adu@gmail.com

Məhəbbət BABAYEVA, Naxçıvan Dövlət Universiteti nəzdində Musiqi Kolleci / Azərbaycan
https://orcid.org/0009-0003-2312-0507
mehebbetteacher@gmail.com

Magistrant Akif HƏŞİMOV, Nikolay Kopernikus Universiteti / Polşa
https://orcid.org/0009-0007-2485-2629
akifhesimov4@gmail.com

Tədqiqatçı Ayşən SƏMƏDOVA, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
https://orcid.org/0009-0004-2231-4489
settarliaysen@gmail.com

Dillər üzrə redaktorlar

Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV, AMEA, Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Gülçöhrə ALIYEVA, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan

Elm sahələri üzrə redaktorlar

Prof. Dr. Əmir ƏLİYEV, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. İradə HÜSEYNOVA, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Əli ZALOV, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Prof. Dr. Şəkər MƏMMƏDOVA, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Yaşar MEHRƏLİYEV, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Şahlar BABAYEV, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
Prof. Dr. Sevinc VƏLİYEVA, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ, AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Rəfail HƏSƏNOV, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Rəşid CABBAROV, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Elza ORUCOVA, Azərbaycan Tibb Universiteti / Azərbaycan
PhD Əzizə HÜSEYNOVA, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

REDAKSİYA HEYƏTİ

HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

Prof. Dr. Möhsün NAĞISOYLU, AMEA, Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
Prof. Dr. Nadir İLHAN, Ahi Evran Universiteti / Türkiyə
Prof. Dr. Aktolkın KULSARIYEVA, Abay adına Qazax Milli Pedaqoji Universiteti / Qazaxıstan
Prof. Dr. Ceyran MAHMUDOVA, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
Prof. Dr. Bilal GÖKKIR, İstanbul Universiteti / Türkiyə

Prof. Dr. Juliboy ELTAZAROV, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
Prof. Dr. Mehmet YÜCE, Bursa Uludağ Universiteti / Türkiyə
Prof. Dr. İrina KREYDİÇ, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
Prof. Dr. Coanna MARŞALEK-KAVA, Nikolay Kopernik Universiteti / Polşa
Prof. Dr. Kərim ŞÜKÜROV, AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
Prof. Dr. Kairbek ARISTANBEKOV, İqtisadi Siyasət İnstitutu / Qazaxıstan
Prof. Dr. İzzət RÜSTƏMOV, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Natalya MİŞİNA, Odessa Hüquq Akademiyası / Ukrayna
Prof. Dr. Funda TOPRAK, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
Prof. Dr. Boris KAYQORODOV, Həştərxan Dövlət Universiteti / Rusiya
Prof. Dr. Vidas KAVALİUSKAS, Vilnus Biznes Universiteti / Litva
Prof. Dr. Rüfət RÜSTƏMOV, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Firuzə ABBASOVA, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Şikar QASIMOV, Bakı Mühəndislik Universiteti / Azərbaycan
Prof. Dr. Saodat MUXAMEDOVA, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
Prof. Dr. Məhəbbət DƏMİRÇİYEVA, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Svetlana KOJİROVA, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
Prof. Dr. Məhərrəm MƏMMƏDLİ, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Yelena ŞIŞKİNA, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
Prof. Dr. İya ZUMBULADZE, Kutaisi Dövlət Universiteti / Gürcüstan
Assoc. Prof. Dr. Azad NOVRUZOV, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Aqil ŞİRİNOV, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Bisserka VELEVA, Müqəddəs Kliment Oxridskiy adına Sofiya Universiteti / Bolqarıstan
Assoc. Prof. Dr. Sevda AXUNDOVA, Bakı Slavyan Universiteti / Azərbaycan
Assos. Prof. Dr. İosefina BLAZSANİ-BATTO, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
Assoc. Prof. Dr. Ziyadxan ƏLİYEV, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası / Azərbaycan
Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Valentin PETRUŞENKO, Paisiy Xilendarskiy adına Plovdiv Universiteti / Bolqarıstan
Assoc. Prof. Dr. Aydan XƏNDAN, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Elçin BAYRAMOV, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Rövşən VƏLİYEV, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Əbülfət PƏLƏNGOV, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Dr. Aqşin ƏLİYEV, Pekin Xarici Dillər Universiteti / Çin
Dr. Rövşən RAMİZOĞLU, Səlcuq Universiteti / Türkiyə

TƏBİƏT ELMLƏRİ

Prof. Dr. Vaqif ABBASOV, AMEA, Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
Prof. Dr. Onur URAL, Selcuk Universiteti / Türkiyə
Prof. Dr. Georgi DUKA, Moldova Elmlər Akademiyası / Moldova
Prof. Dr. Ələvsət QULİYEV, AMEA, Torpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan
Prof. Dr. Məsud AŞİNA, Kopenhagen Universiteti / Danimarka
Prof. Dr. Ələddin ABBASOV, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Turhan ÇETİN, Qazi Universiteti / Türkiyə
Prof. Dr. Nikolay BRİKO, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
Prof. Dr. Mehmet KARATAŞ, Necmettin Erbakan Universiteti / Türkiyə
Prof. Dr. Elşad QURBANOV, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Mətanət ƏFƏNDİYEVA, Milli İdman Tibbi və Reabilitasiya İnstitutu / Rusiya
Prof. Dr. Eldar QASIMOV, Azərbaycan Tibb Universiteti / Azərbaycan
Prof. Dr. Duyğu KILIÇ, Amasya Universiteti / Türkiyə
Prof. Dr. Yasin BABAYEV, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Afət MƏMMƏDOVA, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Şahanə HÜSEYNOVA, Berlin Texniki Universiteti / Almaniya
Prof. Dr. İbrahim MƏMMƏDOV, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Mehmet ÜNLÜ, Marmara Universiteti / Türkiyə
Prof. Dr. İlham KAZIMOV, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
Prof. Dr. Rajeş KUMAR, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
Prof. Dr. David MENABDE, Kutaisi Dövlət Universiteti / Gürcüstan
Prof. Ali AZQANİ, Tayler Texas Universiteti / ABŞ
Assoc. Prof. Dr. Akif AĞBABALI, Bakı Dövlət Universiteti / Azərbaycan

Assoc. Prof. Dr Büşra BİLAL, Ali Cinnah Universiteti / Pakistan İslam Respublikası
Assoc. Prof. Dr. Fuad KƏRİMLİ, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV, Bakı Dövlət Universiteti / Azərbaycan
Dr. Svetlana QORNOVSKAYA, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
Dr. Asif MANAFOV, ARETN, Zoologiya İnstitutu / Azərbaycan
Dr. Erdəyliem TÖLEQENOV, Qızlar Universiteti / Qazaxıstan
Dr. Elçin HÜSEYN, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
Dr. Fuad RZAYEV, ARETN, Zoologiya İnstitutu / Azərbaycan

RİYAZİYYAT VƏ MEXANİKA ELMLƏRİ

Prof. Dr. Yusif MƏMMƏDOV, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Məsud ƏFƏNDİYEV, "Helmholtz" Elmi-Tədqiqat Mərkəzi / Almaniya
Prof. Dr. Arzu SƏRDARLI, Kanada Birinci Millətlər Universiteti / Kanada
Prof. Dr. Yalçın ƏFƏNDİYEV, Texas A&M Universiteti / ABŞ
Prof. Dr. Andrei VOLODIN, Regina Universiteti / Kanada
Prof. Dr. Qərib MÜRŞÜDOV, Molekulyar Biologiya tədqiqat İnstitutu / Böyük Britaniya
Prof. Dr. Eldar VƏLİYEV, Milli Texniki Universitet / Ukrayna
Prof. Dr. Həmzəağa ORUCOV, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Yusif ŞÜKÜRLÜ, AMEA, Şəki Regional Elmi Mərkəzi / Azərbaycan
Dr. Billurə HACIYEVA, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

TEXNİKA ELMLƏRİ

Prof. Dr. Şahnaz ŞAHBAZOVA, Azərbaycan Texniki Universiteti / Azərbaycan
Prof. Dr. Cəlaləddin MƏMMƏDOV, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
Prof. Dr. Yasin RÜSTƏMOV, AMEA, Torpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan

Founder and Editor-in-Chief

Researcher Mubariz HUSEYINOV, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
https://orcid.org/0000-0002-5274-0356
tedqiqat1868@gmail.com

Editor

Prof. Dr. Mahira HUSEYNOVA, Azerbaijan State Pedagogical University / Azerbaijan
https://orcid.org/0000-0002-5135-1666
huseynova.mahira@yandex.ru

Assistant editors

PhD student Nargiz SALIMOVA, Azerbaijan University of Languages / Azerbaijan
https://orcid.org/0000-0001-5499-7035
salimovanargiz.adu@gmail.com

Mahabbat BABAYEVA, College of Music Nakhchivan State University / Azerbaijan
https://orcid.org/0009-0003-2312-0507
mehebbetteacher@gmail.com

Master student Akif HASHIMOV, Nicolaus Copernicus University / Poland
https://orcid.org/0009-0007-2485-2629
akifhesimov4@gmail.com

Researcher Ayshan SAMADOVA, Azerbaijan Science Center / Azerbaijan
https://orcid.org/0009-0004-2231-4489
settarliaysen@gmail.com

Language editors

Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV, ANAS, Institute of Linguistics named after Nasimi / Azerbaijan
Assoc. Prof. Dr. Gulchora ALIYEVA, Azerbaijan State Maritime Academy / Azerbaijan

Editors in scientific fields

Prof. Dr. Amir ALIYEV, Baku State University / Azerbaijan
Prof. Dr. Irada HUSEYNOVA, Baku State University / Azerbaijan
Prof. Dr. Ali ZALOV, Azerbaijan State Pedagogical University / Azerbaijan
Prof. Dr. Shakar MAMMADOVA, Baku State University / Azerbaijan
Prof. Dr. Yashar MEHRALIYEV, Baku State University / Azerbaijan
Prof. Dr. Shahlar BABAYEV, Azerbaijan State Agrarian University / Azerbaijan
Prof. Dr. Sevinj VALIYEVA, Nakhchivan Institute of Teachers / Azerbaijan
Assoc. Prof. Dr. Ilham MAMMADLI, ANAS, Institute of Literature named after Nizami Ganjavi / Azerbaijan
Assoc. Prof. Dr. Rafail HASANOV, Baku State University / Azerbaijan
Assoc. Prof. Dr. Rashid JABBAROV, Baku State University / Azerbaijan
Assoc. Prof. Habiba ALLAHVERDIYEVA, Nakhchivan Institute of Teachers / Azerbaijan
Assoc. Prof. Dr. Elza ORUJOVA, Azerbaijan Medical University / Azerbaijan
PhD Aziza HUSEYNOVA, Nakhchivan State University / Azerbaijan

EDITORIAL BOARD

HUMANITIES AND SOCIAL SCIENCES

Prof. Dr. Mohsun NAGHISOYLU, ANAS, Institute of Linguistics named after Nasimi / Azerbaijan
Prof. Dr. Nadir ILHAN, Ahi Evran University / Turkey
Prof. Dr. Aktolkyn KULSARIYEVA, Kazakh National Pedagogical University / Kazakhstan
Prof. Dr. Jeyran MAHMUDOVA, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
Prof. Dr. Bilal GOKKIR, Istanbul University / Turkey
Prof. Dr. Juliboy ELTAZAROV, "Silk Road" International University of Tourism and Cultural heritage / Uzbekistan
Prof. Dr. Mehmet YUJE, Bursa Uludagh University / Turkey

Prof. Dr. Irina KREYDICH, National Technical University of Ukraine "Igor Sikorsky Kyiv Polytechnic Institute" / Ukraine
Prof. Dr. Joanna MARSZALEK-KAVA, Nicolaus Copernicus University / Poland
Prof. Dr. Karim SHUKUROV, ANAS, Institute of History and Ethnology named after A. A. Bakikhanov / Azerbaijan
Prof. Dr. Kairbek ARISTANBEKOV, Institute of Economic Policy / Kazakhstan
Prof. Dr. Izzet RUSTAMOV, Baku State University / Azerbaijan
Prof. Dr. Natalya MISHINA, Odessa Law Academy / Ukraine
Prof. Dr. Funda TOPRAK, Ankara Yildirim Beyazit University / Turkey
Prof. Dr. Boris KAYGORODOV, Astrakhan State University / Russia
Prof. Dr. Vidas KAVALIUSKAS, Vilnius Business University / Lithuania
Prof. Dr. Rufat RUSTAMOV, Baku State University / Azerbaijan
Prof. Dr. Firuza ABBASOVA, Baku State University / Azerbaijan
Prof. Dr. Shikar GASIMOV, Baku Engineering University / Azerbaijan
Prof. Dr. Saodat MUKHAMEDOVA, Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan
Prof. Dr. Mahabbat DAMIRCHIYEVA, Baku State University / Azerbaijan
Prof. Dr. Svetlana KOJIROVA, L. N. Gumilyov Eurasian National University / Kazakhstan
Prof. Dr. Elshad MIRBASHIR OGHLU, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
Prof. Dr. Maharram MAMMADLI, Baku State University / Azerbaijan
Prof. Dr. Yelena SHISHKINA, Astrakhan State University of Architecture and Construction Engineering **/** Russia
Prof. Dr. Iya ZUMBULADZE, Kutaisi State University / Georgia
Assoc. Prof. Dr. Azad NOVRUZOV, Nakhchivan Institute of Teachers / Azerbaijan
Assoc. Prof. Dr. **Agil SHIRINOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
Assoc. Prof. Dr. **Bisserka VELEVA**, Sofia University "St. Kliment Orhidski" / Bulgaria
Assoc. Prof. Dr. **Sevda AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
Assos. Prof. Dr. Iosefina BLAZSANI-BATTO, Romanian Language and Cultural Center / Romania
Assoc. Prof. Dr. Ziyadkhan ALIYEV, Azerbaijan State Art Academy / Azerbaijan
Assoc. Prof. Dr. Khatira HUSEYNOVA, Baku State University / Azerbaijan
Assoc. Prof. Dr. Valentin PETROUSSENKO, Plovdiv University "Paisii Hilendarski" / Bulgaria
Assoc. Prof. Dr. Aydan KHANDAN, Baku State University / Azerbaijan
Assoc. Prof. Dr. Elchin BAYRAMOV, Baku State University / Azerbaijan
Assoc. Prof. Dr. Rovshan VALIYEV, Nakhchivan Institute of Teachers / Azerbaijan
Assoc. Prof. Dr. Abulfat PALANGOV, Azerbaijan State Pedagogical University / Azerbaijan
Dr. Agshin ALIYEV, Beijing Foreign Studies University / The Republic of Chine
Dr. Rovshan RAMIZOGHLU, Seljuk University / Turkey

NATURAL SCIENCES

Prof. Dr. Vagif ABBASOV, MSERA, Institute of Petrochemical Processes / Azerbaijan
Prof. Dr. Onur URAL, Seljuk University / Turkey
Prof. Dr. Georgi DUKA, Moldova Academy of Sciences / Moldova
Prof. Dr. Alovsat GULIYEV, MSERA, Institute of Soil Science and Agrochemistry / Azerbaijan
Prof. Dr. Masud ASHINA, University of Copenhagen / Denmark
Prof. Dr. Aladdin ABBASOV, Nakhchivan State University / Azerbaijan
Prof. Dr. Turhan ÇETİN, Gazi University / Turkey
Prof. Dr. Nikolay BRIKO, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
Prof. Dr. Mehmet KARATASH, Nejmettin Erbakan University / Turkey
Prof. Dr. Elshad GURBANOV, Baku State University / Azerbaijan
Prof. Dr. Matanat AFANDIYEVA, National Institute of Sports Medicine and Rehabilitation / Russia
Prof. Dr. Eldar GASIMOV, Azerbaijan Medical University / Azerbaijan
Prof. Dr. Duyghu KILICH, Amasya University / Turkey
Prof. Dr. Yasin BABAYEV, Nakhchivan State University / Azerbaijan
Prof. Dr. Afat MAMMADOVA, Baku State University / Azerbaijan
Prof. Dr. Shahana HUSEYNOVA, Technical University of Berlin / Germany
Prof. Dr. Ibrahim MAMMADOV, Baku State University / Azerbaijan
Prof. Dr. Mehmet UNLU, Marmara University / Turkey
Prof. Dr. Ilham KAZIMOV, Scientific Surgery Center named after M. Topchubashov / Azerbaijan
Prof. Dr. Rajesh KUMAR, Ministry of Textiles, Central Silk Office / India
Prof. Dr. David MENABDE, Kutaisi State University / Georgia
Prof. Ali AZGANI, University of Texas at Tayler / USA
Assoc. Prof. Dr. Akif AGHBABALI, Baku State University / Azerbaijan
Assoc. Prof. Dr. Busra BILAL, Ali Jinnah University / The Islamic Republic of Pakistan
Assoc. Prof. Dr. Fuad KERIMLI, Baku State University / Azerbaijan

Assoc. Prof. Dr. Ramiz AHLIMANOV, Baku State University / Azerbaijan
Dr. Svetlana GORNOVSKAYA, Beloserkovsk National Agrarian University / Ukraine
Dr. Asif MANAFOV, MSERA, Institute of Zoology / Azerbaijan
Dr. Erdeyliem TOLEGENOV, Girls' University / Kazakhstan
Dr. Elchin HUSEYN, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
Dr. Fuad RZAYEV, MSERA, Zoology Institute / Azerbaijan

MATHEMATICS AND MECHANICAL SCIENCES

Prof. Dr. Yusif MAMMADOV, Baku State University / Azerbaijan
Prof. Dr. Masud AFANDIYEV, "Helmholtz" Scientific Research Center / Germany
Prof. Dr. Arzu SARDARLI, First Nations University of Canada / Canada
Prof. Dr. Yalchin AFANDIYEV, The University of Texas at Austin / USA
Prof. Dr. Andrei VOLODIN, Regina University / Kanada
Prof. Dr. Garib MURSHUDOV, Research Institute of Molecular Biology / Great Britain
Prof. Dr. Eldar VALIYEV, National Technical University / Ukraine
Prof. Dr. Hamzaagha ORUJOV, Baku State University / Azerbaijan
Assoc. Prof. Dr. Yusif SHUKURLU, Shaki Regional Scientific Center of ANAS / Azerbaijan
Dr. Billura HAJIYEVA, Nakhchivan State University / Azerbaijan

TECHNICAL SCIENCES

Prof. Dr. Shahnaz SHAHBAZOVA, Azerbaijan Technical University / Azerbaijan
Prof. Dr. Jalaladdin MAMMADOV, Azerbaijan State Agrarian University / Azerbaijan
Prof. Dr. Yasin RUSTAMOV, MSERA, Institute of Soil Science and Agrochemistry / Azerbaijan

HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

HUMANITIES AND SOCIAL SCIENCES

https://doi.org/10.36719/2663-4619/110/9-14

İlqar Hüseynov
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
kulturologiya elmləri doktoru
https://orcid.org/0009-0004-9634-5560
ilqar.huseynov.65@inbox.ru

Müasir dövrdə sosial siyasətin inkişaf aspektləri

Xülasə

Sosial siyasət insanların həyat keyfiyyətini yaxşılaşdırmaq üçün yoxsulluq, istehsalat qəzaları, xəstəlik, qocalıq, işsizlik kimi sosial risklərə qarşı müxtəlif sosial problemləri həllinə yönələn siyasətdir. Çağdaş dövrdə də cəmiyyətdə yardım layihələri kimi sosial siyasətlər mövcuddur. Müasir mənada sosial siyasət kapitalist quruluşunun ziddiyyətlərini həll etmək üçün dövlət hakimiyyətinin müdaxiləsi ilə başlamışdır. Əvvəllər sosial siyasət əmək məsələləri ilə məhdudlaşsa da, getdikcə bütün vətəndaşlar üçün rifah dövlətinin və rifah cəmiyyətinin həyata keçirilməsi üçün siyasət alətinə çevrildi.

Bu məqalədə sosial rifah siyasətlərinin gələcəyinin qiymətləndirilməsi və təhlilinin mühüm müddəaları öz əksini tapmışdır. Sosial siyasət insanların həyat boyu müxtəlif ehtiyaclarını nəzərə alaraq, onların imkanlarının inkişafını dəstəkləməklə və demoqrafik dəyişikliklər nəzərə alınmaqla təşkil edilməlidir. Ümumiyyətlə, sosial siyasət vətəndaşların ehtiyac və potensialına cavab verməli, habelə onların imkanlarını bərabərləşdirməlidir. Müasir dövrdə sosial rifah sistemi formal və normativ çərçivəyə malikdir, lakin bununla yanaşı müvafiq sahə ilə bağlı bir sıra problemlər mövcuddur. Sosial siyasət sosial rifahın qorunması və yüksəldilməsi üçün cəmiyyətin bütün təbəqələrinə ədalətli şəkildə çatmasını təmin edən təlimatlar, istiqamətlər, meyarlar və təlimatlar toplusu kimi konseptuallaşdırılır.

Açar sözlər: *sosial siyasət, sosial təminat, sosial sığorta, sosial hüquqlar, dövlət yardımı, sosial rifah*

Ilgar Huseynov
Azerbaijan State University of Culture and Arts
Doctor of Culturology
https://orcid.org/0009-0004-9634-5560
ilgar.huseynov.65@inbox.ru

Development Aspects of Social Policy in the Modern Period

Abstract

Social policy is a policy aimed at solving various social problems against social risks such as poverty, industrial accidents, illness, old age, unemployment in order to improve the quality of life of people. In the modern era, there are social policies such as assistance projects in society. In the modern sense, social policy began with the intervention of state power to resolve the contradictions of the capitalist system. Although social policy was previously limited to labor issues, it has gradually become a policy tool for the implementation of a welfare state and a welfare society for all citizens.

This article reflects the important provisions of the assessment and analysis of the future of social welfare policies. Social policy should be organized taking into account the various needs of

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

people throughout their lives, supporting the development of their capabilities, and taking into account demographic changes. In general, social policy should respond to the needs and potential of citizens, as well as equalize their opportunities. In the modern era, the social welfare system has a formal and normative framework, but at the same time there are a number of problems related to the relevant field. Social policy is conceptualized as a set of guidelines, directions, criteria, and instructions that ensure that social welfare reaches all sections of society in an equitable manner to protect and enhance it.

Keywords: *social policy, social security, social insurance, social rights, state assistance, social welfare*

Giriş

Müasir dövrdə baş verən iqtisadi və sosial-siyasi dəyişikliklər əhalinin geniş təbəqələrinin həyat şəraitinə və fəaliyyətinə birbaşa təsir göstərir. Bu transformasiyalar bir tərəfdən kütlənin özünü realizə etməsi, onların sahibkarlıq təşəbbüsü, iqtisadi fəallığın və əmək bazarının artması üçün əlavə imkanlar yaradır. Digər tərəfdən, böhran vəziyyətlərində onlar əhalinin əhəmiyyətli hissəsinin həyat səviyyəsinin aşağı düşməsinə və insanlar arasında sosial və əmlak təbəqələşməsinin meydana gəlməsinə səbəb olur. Bu şəraitdə sosial siyasətin mühüm rolu təkcə ölkənin müxtəlif ərazilərinin fərqli yaşayış şəraiti və onların resurs bazası ilə deyil, həm də mədəni-tarixi ənənələr, əhalinin mentalitetinin xüsusiyyətləri ilə müəyyən edilir. Bütün bunlar sosial siyasətin məzmununun formalaşdırılmasında, onun normativ-hüquqi bazasının inkişafında və sosial layihələrin praktiki olaraq həyata keçirilməsində real amil kimi çıxış edir.

Tədqiqatın aktuallığı. Sosial siyasət hazırda dövlət orqanlarının, yerli özünüidarəetmə təşkilatlarının, habelə vətəndaş cəmiyyəti institutlarının müəyyən hissəsinin əsas fəaliyyət sahələrindən biridir. Hazırda sosial siyasətin başa düşülməsi, onun məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi, onun institusional elementlərinin islahatının mümkün alternativlərinin qiymətləndirilməsi actual əhəmiyyət kəsb edir.

Tədqiqat

Sosial siyasətin məqsədi əhalinin tam adekvat həyat və rifah standartlarına geniş şəkildə çıxışını təmin etmək, xüsusilə də müvafiq sosial qruplar üçün dövlət və özəl agentlərin siyasi qərarları, idarəetmə üsulları, alətləri və tədbirləri toplusudur. Sosial siyasətin müəyyənedici elementi ondan ibarətdir ki, qəbul olunduğu siyasi, iqtisadi, mədəni və sosial məqam kimi şərti faktorlarla bağlı sosial hüquqlarla sıx bağlıdır. Beləliklə, cəmiyyətə bu və ya digər şəkildə təsir edən hər bir dövlət siyasəti sosial siyasət deyil, yalnız sosial hüququn inkişafını təşkil edən və səciyyələndirilən siyasətdir, çünki onun məqsədi əsas ehtiyacların ödənilməsidir. Sosial siyasət müxtəlif əhali qruplarının hər birinin əsas ehtiyaclarına cavab verən nisbi hüquqlardır. Onlar icma həmrəyliyinə əsaslanan hüquqlardır, bu hüquqlar inteqrasiya və sosial birləşmə mexanizmi kimi fəaliyyət göstərir. Bunlar fərdi mülkiyyət hüquqlarıdır və onlar universal olmağa meylli hüquqlardır: sosial hüquqlar sinfi hüquqlar deyil, bütün fərdlərin hüquqlarıdır.

Sosial siyasət insanların rifahı və sosial inkişafı ilə bağlı siyasət sistemi olmaqla, ölkəmizdə sosial quruculuq və modernləşmə prosesində əvəzsiz tənzimləyici və təşviqedici rol oynayır. "Sosial siyasət insanlar arasında münasibətlərin tənzimlənməsinə, əhalinin həssas qruplarına yardımın göstərilməsinə, yoxsulluğun azaldılmasına və cəmiyyətdə yüksək rifahın əldə edilməsinə yönəlmiş tədbirlər sistemidir" (Rəcəbli, 2022, s. 117).

Sosial xidmətlər humanitar və demokratik ideallardan doğulur, missiyanın əsaslandığı dəyərlər sosial ədalət, insan hüquqları, müxtəlifliyə hörmət, kollektiv məsuliyyət, bərabərlik və bütün insanların ləyaqətidir.

Sosial siyasət ilk dəfə Almaniyada XIX əsrin sonlarında istifadə edilən və sənayeləşmə nəticəsində əmək problemlərini həll etmək üçün yaranan termindir. Bu konsepsiyanın əsas vəzifələri və məzmunu zaman keçdikcə dəyişmiş, obyekt və məzmun baxımından ölkədən ölkəyə fərqlər olduğu üçün bu günə qədər vahid tərif yoxdur. "Sosial siyasət dar mənada sənayeləşmə ilə ortaya çıxan işçi-işəgötürən münasibətlərinin tənzimlənməsinə yönəldi. Geniş mənada bütün sosial sahələrin və sosial qrupların problemləri ilə məşğul olur və həll yollarını axtarır" (Korkut, 2018).

Erkən sosial siyasətlər yoxsullar üçün müxtəlif yoxsulluq tədbirləri, gənc və qadın işçiləri qorumaq üçün əməyin mühafizəsi qanunları şəklində idi. Daha sonra işçilər üçün gəlir və tibbi xidmətə zəmanət vermək, kollektiv müqavilə gücü kimi iş şəraitini gücləndirmək üçün sosial təminat sistemləri və əmək siyasətləri əlavə edildi. Başqa sözlə desək, ilkin sosial siyasətlər dövlət hakimiyyətinin kapitalist sistemindəki qüsurlardan doğan ziddiyyətləri aradan qaldırmaq və mövcud sistemə dəyişiklik etmək mövqeyindən başlamışdır.

Daha sonra qlobal depressiya və İkinci Dünya müharibəsi baş verdiyi üçün sosial siyasətin xarakteri əhəmiyyətli dərəcədə dəyişdi. Depressiya və müharibə dövründə insanlar anladı ki, yoxsulluq və təhlükə altında yaşamaq heç də xüsusi təbəqə ilə məhdudlaşmır. Nəticədə sosial siyasətin tətbiq dairəsi genişləndi, milli rifahın yüksəldilməsi üçün yeni siyasətlər meydana gəldi. Bunun nəticəsidir ki, bugünkü sosial siyasət sosial dövlətin və rifah cəmiyyətinin həyata keçirilməsi üçün ən səmərəli siyasət kimi öz mövqeyini təmin etmişdir. "Sosial dövlətin fəaliyyəti bilavasitə demokratiya, vətəndaş cəmiyyəti, hüquqi dövlət, azadlıq və bərabərlik, insan hüquqları kimi ictimai təzahürlərlə bağlıdır" (Məmmədova, 2018, s. 110). Bu mənada sosial siyasət bu gün Almaniya və Böyük Britaniya kimi qabaqcıl ölkələrdə geniş istifadə olunan bir termindir. ABŞ-də bu terminin yerinə sosial siyasətin bir hissəsi mənasını verən sosial iş və sosial xidmət kimi anlayışlar istifadə olunur. Çünki ABŞ kapitalist sistemi dəyişdirmək baxımından Avropadan daha zəifdir və hələ də fərdi azadlığa yüksək qiymət verir.

Lakin inkişaf etmiş ölkələrin əksəriyyəti sosial siyasətə önəm verir və sosial siyasət İkinci Dünya Müharibəsindən sonra bir çox kommunist ölkələrində geniş şəkildə həyata keçirildiyi üçün müasir mənada sosial siyasət artıq yalnız kapitalist sisteminin modifikasiyası demək deyil. "Yoxsulluğun qarşısının alınması, hər kəsin müəyyən təhsil və sağlamlıq hüququnun təmin edilməsi, gəlir bölgüsündə nisbi də olsa bərabərsizliyin aradan qaldırılmasına çalışmaq, işsizliyin azaldılması və ya aradan qaldırılması kimi məqsədlər sosial siyasətin əsas məqsədlərinə çevrilmişdir" (Koray, 2005, s. 35).

Bu gün sosial siyasət termini mövcud sistemlərin dəyişdirilməsi və ya əlavə edilməsi yolu ilə yeni sistemlər və strukturlar yaradan aktiv siyasət kimi şərh olunur. Sosial siyasət termini müasir cəmiyyətdə sənayeləşmədən sonra aydın şəkildə meydana çıxsa da, sosial siyasətin formasına, funksiyasına, əsas məzmununa nəzər salsaq görərik ki, sənayeləşmədən əvvəl də buna oxşar siyasətlər olub. Buna görə də sənayeləşmədən əvvəl oxşar xüsusiyyətlərə malik siyasətlər müasirdən əvvəlki sosial siyasətlər kimi müəyyən edilir. Burada biz sosial siyasəti geniş mənada şərh edirik. Sosial təminat siyasəti təqribən sosial sığorta, dövlət yardımı və sosial rifah xidmətlərinə bölünür. "Sosial rifah səviyyəsi yüksək olan insanlar orta hesabla 7 il daha çox yaşayırlar, zərərli vərdişlərdən uzaq olurlar və faydalı iş əmsalı (FİƏ) daha yüksək olur" (Rzayeva, 2016, s.10).

Əmək siyasəti geniş şəkildə işçilərin müdafiəsi siyasəti, əmək bazarı siyasəti və əməyin idarə edilməsi siyasətinə bölünür. İşçilərin mühafizəsi siyasətləri əsasən işçilərin iş şəraitinin qorunmasına yönəlib. İctimai mülkiyyətin qurulması və təkmilləşdirilməsi ilə tez bir zamanda müxtəlif sosial öhdəlikləri özündə əks etdirən xidmət məzmunu kimi ümumi sosial siyasət formasını yaratdı. Sosial müəssisələr dövlət tərəfindən təsis edilir və ilkin olaraq konkret obyektlər arasında fərq qoymayan ümumi ictimai xidmət sistemi yaradılmışdır. Müxtəlif sosial müəssisələrin konnotasiyasına əsaslanaraq, dövlət tərəfindən birləşdirilən sosial rifah və sosial siyasət formaları şəhərlərdə sürətlə qurulur. Böyük sənayeləşmə nailiyyətləri müxtəlif iqtisadi və sosial sistemlərin yenidən qurulmasına təkan verdi və ilkin olaraq sosial təminat əsasında inkişaf edən sosial siyasət sistemi qurdu. "Strateji planda sosial siyasətin məqsədi hər bir insanın işləyə bilməsi və layiqli pul qazanması, özünü və ailəsini müasir insana layiq səviyyədə təmin etməsi üçün əlverişli və konstruktiv iqtisadi, hüquqi və sosial-siyasi şərait yaratmaqdan ibarətdir" (Okhotskiy & Bogucharskaya, 2012, s. 10). Bu məqsədin reallaşması insanın bütün sosial-iqtisadi hüquq və azadlıqları paketinin həyata keçirilməsi ilə bağlıdır.

Ölkəmiz ikinci dəfə müstəqilliyini əldə etdikdən sonra başlanan iqtisadi islahat istehsal amillərinin, xüsusən də əməyin bazarlaşdırılmasına böyük sosial mobillik gətirdi və ölkənin sosial siyasətinin islahatını və transformasiyasını səmərəli şəkildə stimullaşdırdı. "Azərbaycanda birbaşa

sosial münasibətləri tənzimləyən bir neçə qanun və normativ sənəd mövcuddur: sosial müavinətlər (həmçinin Ünvanlı dövlət sosial yardımı haqqında) haqqında qanun, onların həcmini müəyyən edən Prezident sərəncamları və pensiyalar haqqında qanun" (Vəliyev, 2022). Sosial siyasət sahəsindəki islahat sosial mobillik ilə nəticələndi və sosial siyasətin yenidən qurulması üçün siyasi, iqtisadi və sosial şərait yaratdı. İslahatın yaratdığı sosial mobilliyə cavab olaraq, dövlət rəhbərliyi və müdaxiləsi ilə müvafiq sistemlər formalaşdırılmalıdır və müvafiq tərəflər sosial siyasətin məqsəd və məqsədlərini əks etdirən birgə məsuliyyət daşıyırlar.

Sosial siyasətin təməlində üç əsas məntiq dayanır: sığorta, yardım və həmrəylik. Onlar cəmiyyətin müxtəlif konsepsiyalarına istinad edir və həmrəylik, bərabərsizliklərin yenidən bölüşdürülməsi və azaldılması prinsiplərini müxtəlif şəkildə həyata keçirirlər. Sosial sığortanın əsasını təşkil edən inkişaf xarakterli sosial siyasət sisteminin yaradılmasına çalışmaq lazımdır. "Sosial siyasət sosial sahanin inkişafi, şəxsin və sosial qrupların tələbatlarının təmin edilməsi və əlaqələndirilməsi ilə sıx bağlıdır" (Rəcəbli, 2012, s. 37).

Sosial siyasət fərdləri və onların ailələrini qoruyur və onlara dolğun həyat sürməyə kömək edir, lakin sosial xərclər dövlət xərclərinin əhəmiyyətli hissəsini təşkil etsə də, hər kəs ehtiyac duyduğu dəstəyi almır. Sosial siyasət çoxşaxəli prosesdir və struktur cəhətdən mürəkkəb fenomendir. Yalnız bir-iki göstərici və meyar əsasında çox vacib olsa da onun vəziyyətinə real və hərtərəfli qiymət vermək problemli məsələdir. "Sosial siyasətin obyekti və subyekti xətti deyil, çoxsəviyyəli və sistemlidir. Ümumiyyətlə, onlar (obyekt və subyekt) böyük vahid kompleksə – sosial və əmək sferasına daxil olan əsas elementlər, bloklar və strukturlarla üst-üstə düşür" (Likhacheva, 2020, s. 5).

Sosial siyasətin məqsədi gəlir bərabərsizliyini düzəltmək və yoxsulluqla mübarizə aparmaqdır. Onun iki əsas məqsədi var: sosial risklərin idarə edilməsi, ən çox məhrum olanlara yardım vasitəsilə müdaxilə. Müasir cəmiyyətdə sosial siyasət problemlərinin aktuallaşmasının bir çox səbəbləri və müvafiq diskurs var. "Birincisi, müasir sosial dövlətlərin ideya və praktikasının böhranı uzun müddət və hərtərəfli müzakirə edilir və sosial siyasət mexanizmləri vasitəsilə böhranın həlli yolları axtarılır. İkincisi, inkişaf etmiş sosial dövlətlərdə iqtisadi artım sabitləşir, lakin elə bir ölkə yoxdur ki, orada həyat standartlarının həddindən artıq differensasiyası, bəzən isə yoxsulluq problemləri aradan qalxsın" (Grigoryeva, 2003, s. 36).

Sosial siyasətin həyata keçirilməsi rəqabət üstünlükləri təklif etməyə imkan verir. Sosial siyasətlər müxtəlif formalarda olur. Cəmiyyətin rifahını əsas məqsəd hesab edən dövlət siyasətidir, ona görə də məqsədə nail olmaq üçün bir vasitədir. Sosial siyasətlərə sosial rifah, sosial təminat, sosial islahatlar, sosial inkişaf məqsədləri daxildir. Bu, sosial siyasət, sosial xidmət və rifah, məsələn, təhsil, səhiyyə, ədalət zəif təbəqənin rifahı. "Sosial rifahın yüksəldilməsinə yönəlmiş siyasət bir tərəfdən fərdlərin maddi vəziyyətini yaxşılaşdırmaqla, digər tərəfdən isə vətəndaşlıq institutunun sosial nüfuzunu, onun cəmiyyətdəki rolunu və funksiyalarını artırmaqla mühüm funksiyalara malikdir" (Yolcuoğlu, 2012, s. 147).

Sosial siyasət sistemli elmi tədqiqat predmetidir, çünki sosial siyasətdə iş sistemli və elmi şəkildə aparılır. "Sosial siyasətin subyektləri - real şəkildə mövcud sosial qruplar və onların mənafeyini qoruyan təşkilatlar və institutlardır" (Musayev, Qarayev, 2013, s.71). Sosial siyasət çərçivəsində yalnız cəmiyyətlə bağlı sosial məsələlər var ki, o, onları həll etməklə cəmiyyətdə dəyişiklik etməyə, nəzarəti bərqərar etməyə çalışır.

Sosial siyasətin mənası insanların cəmiyyətdə yaxşı yaşaması üçün müxtəlif şərait yaratmaqdır. Cəmiyyət üçün hər hansı bir siyasət aparılırsa, belə bir vəziyyətdə ilk növbədə o problemi yaxşı başa düşmək və bu müddət ərzində onun bu problemdən əziyyət çəkən insanlara təsirini başa düşmək vacibdir. Problemin səbəbini və dərəcəsini anlamaq siyasətçilər üçün çox vacib olur. Məsələn, əgər cəmiyyətdə işsizlik problemi varsa, o zaman hər hansı bir siyasət qurarkən belə bir vəziyyətdə onu yaradanlar işsizliyin təsirə məruz qalan insanlara təsirini, onun miqyasını və işsizliyin səbəblərini təhlil edəcəklər.

Cəmiyyətdəki mövcud vəziyyəti hərtərəfli dərk etdikdən sonra, cəmiyyətdəki problemlə bağlı mövcud siyasət təhlil edilir. Zəifliyi və effektivliyi başa düşmək lazımdır ki, mövcud siyasətin təkmilləşdirilməsinə diqqət yetirilsin. Mövcud səhiyyə sisteminin təkmilləşdirilməsi məqsədi ilə ilk

növbədə onun güclü, zəif tərəflərini və effektivliyini başa düşmək üçün səhiyyə sistemini təhlil edin və araşdırın. Siyasət qurucuları cəmiyyətdəki problemi müəyyən etdikdə və bununla bağlı mövcud siyasəti hərtərəfli təhlil edib nəticə çıxardıqda həmin tapıntılar əsasında siyasət təkliflərinin hazırlanması üzərində işləyəcəklər.

Sosial siyasət ənənəvi olaraq ödənişli məşğulluğa yönəldən, lakin daha geniş mənada imkansız sosial təbəqələrin rifah səviyyəsini yüksəltməyə və bu kontekstdə onların cəmiyyətə inteqrasiyasını təmin etməyə yönəlmiş siyasətlər toplusu kimi ifadə etmək olar. Başqa sözlə desək, "sosial siyasət cəmiyyətdəki sosial sinfi münasibətlərə, hərəkatlara, mübarizə və ziddiyyətlərə qarşı dövlət və hüquq nizamını yaşatmağa yönəlmiş tədqiqatlara yönəlmiş bir intizam kimi ifadə edilir" (Yuvalı, 2020, s. 70).

Sosial siyasətin reallaşmasında əsas məqsəd cəmiyyətdəki insanların bütün problemlərini həll edə biləcək bir strategiya yaratmaqdır. Belə bir vəziyyətdə səhiyyənin yaxşılaşdırılması və keyfiyyətinin yüksəldilməsi və insanlara səhiyyə xidmətinin göstərilməsi üçün siyasət təklifi hazırlanacaqdır. Siyasətin məqbul olub-olmadığını müəyyən etmək üçün təşkilatlar, müdafiə qrupları və təsirə məruz qalmış icmalarla məsləhətləşmələr aparılır.

Cəmiyyətdə yaranan problemlərin həlli üçün siyasətçilərin apardıqları siyasətin mənimsənilməsi vacibdir, çünki o siyasəti cəmiyyətdə həyata keçirəndə cəmiyyətdə o problem həll oluna bilər. Belə bir vəziyyətdə həmin siyasət mövcud hökumətə təqdim olunur, bu, problemin təsirinə məruz qalan cəmiyyətdə həmin siyasətin həyata keçirilib-keçirilməyəcəyinə dair qərarın verildiyi bir addımdır (Abdullayeva, Muradov, 2009, s. 230).

Nəticə

Sosial inkişaf fərdi və kollektiv səviyyədə problemli vəziyyətlərinin həllinə, yüngülləş-dirilməsinə və cəmiyyətin ən kövrək qruplarının rifahının yüksəldilməsinə yönəlmiş bütün müddəaları və tədbirləri əhatə edir. Avropa səviyyəsində sosial siyasət mahiyyətcə məşğulluğa, yaşayış və iş şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəyə, sosial tərəfdaşlarla dialoqa, insan resurslarının inkişafına və təcrid, yoxsulluğa və ayrı-seçkiliyə qarşı mübarizəyə aiddir. Xüsusilə, sosial siyasətlər vətəndaşların rifahı və onların həyat şəraiti ilə əlaqədardır və bu məqsədlə insanların bütün həyat dövrü ərzində fərdlərə verilən resursların və imkanların bölüşdürülməsini tənzimləyir.

Bu gün sivil inkişaf yoluna qədəm qoymuş Azərbaycan Respublikası cəmiyyətin bütün sahələrində çox mühüm islahatlar həyata keçirir. Bu islahatlar arasında ən mürəkkəbi və ən ciddilik tələb edən istiqaməti sosial sahədə islahatlardır. Çünki ilk növbədə sosial məsələlər birbaşa insanların həyatı və güzəranı ilə bağlı olduğu üçün daim gündəmdədir. İkincisi, dövlətin sosial siya-səti daim xalqın diqqətindədir.

Ona görə də dövlətçiliyin qurulmasında və dövlətin idarə olunmasında sosial siyasət çox mühüm yer tutur. Azərbaycan Respublikasının dövlətçiliyinin əsas istiqamətlərindən biri sosial dövlətin yaradılmasıdır.

Ədəbiyyat

1. Abdullayeva, R., Muradov, A. (2009). *Sosial sferanın iqtisadiyyatı*.
2. Koray, M. (2005). *Sosial siyasət*. İmge nəşriyyatı.
3. Qorqud, F. (2018). *XX əsrdə sosial siyasət və sosial siyasət praktikası.*
4. Musayev, A., Qarayev, İ. (2013). Sosial siyasət və iqtisadi inkişaf. *Azərbaycan Vergi Jurnalı*, 67-86.
5. Rəcəbli, H. (2012). *Azərbaycan Respublikasının sosial müdaflə sistemi* (Ali məktəblər üçün dərs vəsaiti). "MBM".
6. Rəcəbli, H. (2022). *Sosial sahələrin idarə edilməsi*.
7. Rzayeva, L. (2016). *Sosial siyasət.* https://khanahmadli.wordpress.com/wp-content/uploads/2016/10/social-policy-autor-lamiya-rzayeya.pdf

8. Vəliyev, T. (2022). *Azərbaycanda sosial siyasətin imkanları və əhatə dairəsi.* https://bakuresearchinstitute.org/scope-and-opportunities-in-social-policy-in-azerbaijan/?print=pdf
9. Yolcuoğlu, İ. G. (2012). Türkiyədə sosial siyasətin və sosial xidmətlərin inkişafı. *Cəmiyyət və Sosial İş,* 23(2), 145-158.
10. Yuvalı, E. (2020). Sosial təminat anlayışı sosial siyasət vasitəsi kimi. *Biznes və Həyat*, 6(11), 46-74.
11. Grigoryeva, I. A. (2003). Sotsial'naya politika: osnovnyye ponyatiya. *Zhurnal issledovaniy sotsial'noy politiki*, 29-44.
12. Likhacheva, S. N. (2020). *Sotsial'naya politika: uchebno-metodicheskiy kompleks*. MGU imeni A. A. Kuleshova.
13. Mammadova, S. (2018). The welfare state as a more advanced form of governance. *Scientific works*, 30(1), 110-116.
14. Okhotskiy, Ye. V., & Bogucharskaya, V. A. (2012). Sotsial'noye gosudarstvo i sotsial'naya politika sovremennoy Rossii: oriyentatsiya na rezul'tat. *Trud i sotsial'nyye otnosheniya*, 5(95), 30-44.

Daxil oldu: 12.10.2024
Baxışa göndərildi: 30.11.2024
Təsdiq edildi: 25.12.2024
Çap olundu: 22.01.2025

https://doi.org/10.36719/2663-4619/110/15-21

Ofelya Müslümova
Gəncə Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
UOT: 811
https://orcid.org/0009-0009-5221-2877
ofelya.muslumova@inbox.ru

Alman maarifçi mütəfəkkirləri və onların klassizmə qarşı mübarizəsi

Xülasə

Müəllifin qeyd etdiyi kimi, maarifçilik dövrü Avropada burjua inqilablarına hazırlıq dövrü, feodal quruluşuna və onun ideologiyasına qarşı mübarizə dövrü kimi başa düşülür. Bütün ölkələrdə maarifçi mütəfəkkirlər o vaxtkı mütərəqqi, inqilabçı burjua sinfinin nümayəndələri idilər. O dövrün özəlliyi onda idi ki, maarifçilik mütəfəkkirləri feodal qaydalarına, təhkimçiliyə, kilsənin hər şeyə qadirliyinə etiraz edərək xalqın bütün demokratik təbəqələrinin mənafeyini təmsil edirdilər və Almaniyada milli birləşmənin tərəfdarı idilər. Müəllifin fikrincə, bütün Avropada maarifçilik hərəkatının inqilabi əhəmiyyəti bu idi. Avropanın hər bir ölkəsində maarifçilik, xüsusən də inqilabi istəklərinin dərəcəsi baxımından xüsusi xarakter daşıyırdı. Maarifçilik dövrünün mütəfəkkirlərinin bir çoxu hesab edirdilər ki, ağıl səltənətinə sülh yolu ilə, ilk növbədə, bütün insanların yenidən tərbiyəsi və hər şeydən əvvəl, ağlı başına gəlməli olan monarxların yenidən tərbiyəsi ilə nail olmaq olar. Müəllifin dediyi kimi, o dövrdə ədəbiyyata insanların əxlaqi-intellektual tərbiyəsi və kamilləşməsinin təsirli vasitəsi kimi baxılırdı. O dövrdə bu qəbildən olan bir çox jurnallar var idi ki, onların mövzuları əsasən təhsil əxlaqı, o cümlədən qadınların təhsili, uşaqların təhsili, moda, o cümlədən ədəbiyyat, teatr, dil, və din idi. Siyasi məsələlər demək olar ki, müzakirə olunmurdu. Fransız maarifçiliyindən fərqli olaraq, alman maarifçiliyi siyasi xarakter daşımırdı, daha çox ədəbi xarakter daşıyırdı. Alman səfaləti maarifçiliyin üsyankar xarakterini zəiflətdi; ölkənin parçalanması alman maarifçi mütəfəkkirlərini inqilaba olan bütün ümidlərini itirməyə vadar etdi. 18-ci əsrin ortalarına qədər alman ədəbiyyatı çox yavaş inkişaf etdi və bir qədər sonra Lessinq, Höte və Şiller kimi dünya səviyyəli böyük şəxsiyyətlər yetişdirdi. Alman maarifçiliyinin ən məhsuldar dövrü yalnız 50-60-cı illərdə Lessinqlə başladı.

Açar sözlər: *maarifçilik dövrü, maarifçi mütəfəkkirlər, ağıl səltənəti, maarifçilik hərəkatı, əxlaqi-intellektual tərbiyə, mübarizə yolları*

Ofelya Muslumova
Ganja State University
Doctor of Philosophy in Philology
UOT: 811
https://orcid.org/0009-0009-5221-2877
ofelya.muslumova@inbox.ru

German Enlightenment Thinkers and Their Struggle Against Classism

Abstract

As the author notes, the period of enlightenment is understood as a period of preparation for bourgeois revolutions in Europe, a period of struggle against the feudal system and its ideology. Enlightenment thinkers in all countries were representatives of the then progressive, revolutionary bourgeois class. The peculiarity of that time was that the Enlightenment thinkers protested against feudal rules, serfdom, the omnipotence of the church, represented the interests of all democratic sections of the people, and supported national unification in Germany. According to the author, this was the revolutionary significance of the Enlightenment movement throughout Europe.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Enlightenment in each European country had a special character, especially in terms of the degree of its revolutionary aspirations. Many of the thinkers of the Enlightenment believed that the kingdom of reason could be achieved peacefully, primarily by re-educating all men and above all by re-educating monarchs who should come to their senses. As the author said, at that time, literature was considered as an effective means of moral-intellectual education and improvement of people. At that time there were many magazines of this kind, whose subjects were mainly educational ethics, including women's education, children's education, fashion, including literature, theater, language, and religion. Political issues were hardly discussed. Unlike the French Enlightenment, the German Enlightenment was not political in nature, but more literary in nature. German misery weakened the rebellious character of the Enlightenment; the disintegration of the country made German Enlightenment thinkers lose all hope of revolution. Until the middle of the 18th century, German literature developed very slowly, and a little later produced world-class great personalities such as Lessing, Goethe and Schiller. The most productive period of the German Enlightenment began only in the 50s and 60s with Lessing.

Keywords: *enlightenment period, enlightened thinkers, kingdom of reason, enlightenment movement, moral-intellectual education, ways of struggle*

Giriş

XVIII əsr, F. Engelsə görə, "Alman ədəbiyyatının böyük əsri" alman millətinin, alman milli dilinin və alman milli ədəbiyyatının formalaşmasında tarixi əhəmiyyətli dövr olmuşdur. Alman ədəbiyyatının bu formalaşması prosesi ölkənin iqtisadi və siyasi vəziyyətinin xüsusiyyətlərinə və geri qalmasına görə son dərəcə uzun və mürəkkəb idi.

18-ci əsr Almaniyası hələ də keçmişinin – 16-cı əsrdə Kəndlilər müharibəsi və 17-ci əsrdə Otuz illik müharibənin nəticələrindən qurtulmağa çalışırdı. O zaman Almaniyanın vahid dövlət kimi olmasından heç cür bəhs etmək mümkün deyildi. Özünü müstəqil və asılı olmayan dövlət hesab edən, 360-a yaxın knyazlıqdan əlavə, özünüidarə hüququ olan çoxlu sayda imperiya şəhərləri də var idi. Ölkədə feodal ictimai quruluşu hökm sürürdü. Feodalizmin əsas dayağı olan kilsə ictimai həyatın, fəlsəfənin, ədəbiyyatın, incəsənətin bütün sahələrində hökmranlıq edirdi.

Tədqiqat

Almaniyada dünyəvi və ruhani knyazların hakimiyyətinə qarşı çıxa biləcək təbəqə, feodal qanunlarını ləğv edə biləcək güclü və vahid ictimai hərəkat yox idi. Ölkənin görünməmiş iqtisadi və siyasi mərkəzsizləşdirilməsi nəticəsində o dövrün almanlarında vahid bir bütöv alman millətinə üzvi mənsubluq hissi yox idi (Explanations of German literature: Enlightenment. "Volk und Wissen", 1963).

Ölkə ədəbiyyatı təkmilləşməyə ümid edirdi. Bu acınacaqlı siyasi-ictimai əsr eyni zamanda alman ədəbiyyatının böyük əsri idi. XVIII əsrdə alman ədəbiyyatının inkişafını maarifçilik ideyaları müəyyən edirdi. Maarifçilik dövrü Avropada burjua inqilablarına hazırlıq dövrü, feodal quruluşuna və onun ideologiyasına qarşı mübarizə dövrü kimi başa düşülür. Bütün ölkələrdə maarifçi mütəfəkkirlər o vaxtkı mütərəqqi, inqilabçı burjua sinfinin nümayəndələri idilər. İnsan ağlının gücünü elan etdilər, mövcud olan hər şeyi kəskin tənqidə məruz qoydular: "Hər şey – din, təbiətə baxış, dövlət nizamı, cəmiyyət ən amansız tənqidə məruz qaldı. Hər şey yönəldilmiş ağıl qarşısında onun varlığına haqq qazandırmalı və ya ondan imtina etməlidir. Düşünən ağıl yeganə etalon kimi təqdim olunurdu..." (German literary history in one volume, 1966).

Maarifçilik mütəfəkkirlərinin uğurları ideyalarının demokratikliyinə əsaslanırdı.

F. Engels yazırdı: «Biz indi bilirik ki, bu əql səltənəti burjuaziyanın idealizə edilmiş səltənətindən başqa bir şey deyildi» (Istoriya nemetskoy literatury, 1976).

Lakin o dövrün özəlliyi onda idi ki, maarifçilik mütəfəkkirləri feodal qaydalarına, təhkimçiliyə, kilsənin hər şeyə qadirliyinə etiraz edərək xalqın bütün demokratik təbəqələrinin mənafeyini təmsil edirdilər və Almaniyada milli birləşmənin tərəfdarı idilər. Bütün Avropada maarifçilik hərəkatının inqilabi əhəmiyyəti bu idi. Avropanın hər bir ölkəsində maarifçilik, xüsusən də inqilabi istəklərinin dərəcəsi baxımından xüsusi xarakter daşıyırdı. Maarifçilik dövrünün mütəfəkkirlərinin bir çoxu hesab edirdilər ki, ağıl səltənətinə sülh yolu ilə, ilk növbədə, bütün insanların yenidən tərbiyəsi və

hər şeydən əvvəl, ağlı başına gəlməli olan monarxların yenidən tərbiyəsi ilə nail olmaq olar. Yalnız sonralar fransız maarifçilərinin mütəfəkkirləri belə qənaətə gəldilər ki, ictimai quruluşu əsaslı şəkildə dəyişdirməyə yalnız inqilab qadirdir (Kuliyev & Shubanov, 1975).

Fransız maarifçi mütəfəkkirləri Böyük Fransız inqilabının (1789-1793) bilavasitə qabaqcılları olmuşlar və inqilabi ruhları uğrunda canlarını verməyə hazır idilər. Alman maarifçiləri daha mülayim idilər. Fransız maarifçiliyindən fərqli olaraq, alman maarifçiliyi siyasi xarakter daşımırdı, daha çox ədəbi xarakter daşıyırdı. Alman səfaləti maarifçiliyin üsyankar xarakterini zəiflətdi; ölkənin parçalanması alman maarifçi mütəfəkkirlərini inqilaba olan bütün ümidlərini itirməyə vadar etdi (Istoriya nemetskoy literatury, 1976).

Qotfrid Vilhelm Leybnits (1646-1716) və Kristian Volf (1679-1754) erkən alman maarifçiliyinin ilk nümayəndələridir. Onlar maarifçilik ideyalarının yayılmasına böyük töhfə vermiş alman filosofları idilər. Ateist olmasalar da, rasionalist olaraq insan ağlını çox yüksək qiymətləndirir, dünyanı və təbiəti araşdırmağa çağırırdılar. Bu, o dövrdə ideologiyada aparıcı rol oynayan ilahiyyata zərbə oldu.

Kristian Tomasius (1655-1728) həm də Almaniyanın ən erkən maarifçi mütəfəkkirlərindən biridir. Hələ 1687/88-ci illərdə o, Halle Universitetinin professoru kimi "Şüurlu, ağıllı və nəzakətli yaşamağın əsas qaydaları" başlığı altında mühazirələrini, o vaxtkı universitetlərdə adi hal kimi yalnız latın dilində deyil, həmçinin alman dilində də oxuyur. Bununla o, alman dilinin elmə xidmət etmək üçün tam uyğun olduğunu sübut etdi. Bu o demək idi ki, elmin demokratikləşməsi yolunda, bu elmi kütlələrdən ayıran maneələrin aradan qaldırılması üçün ən mühüm addım oldu. K.Tomasius Almaniyada əxlaqi həftəlik jurnalların ilk redaktorlarından biri olmuşdur. 18-ci əsrin əvvəllərində əxlaqi həftəlik jurnalların yayılması ictimai həyat üçün xarakterik idi (Geschichte der deutschen Literatur, 1963).

O dövrdə ədəbiyyata, insanların əxlaqi-intellektual tərbiyəsi və kamilləşməsinin təsirli vasitəsi kimi baxılırdı. O dövrdə bu qəbildən olan 500-dən çox jurnal var idi ki, onların mövzuları əsasən təhsil əxlaqı, o cümlədən qadınların təhsili, uşaqların təhsili, moda, o cümlədən ədəbiyyat, teatr, dil, və din idi. Siyasi məsələlər demək olar ki, müzakirə olunmurdu. Bu həftəlik jurnallar alman burjuaziyasının milli hissini və sinfi şüurunu oyatdığına görə kifayət qədər mühüm rol oynayırdı. İlk alman maarifçi mütəfəkkirləri də teatra böyük tərbiyəvi əhəmiyyət vermişlər. Səhnə, insanın öz fikirlərini açıq şəkildə bəyan edə biləcəyi minbər idi, xüsusən də nəzərə alsaq ki, o dövrdə ictimai həyatda iştirak etmək üçün başqa imkanlar demək olar ki, yox idi (Engels, Die Entwicklung des Sozialismus von der Utopie zur Wissenschaft, 1980).

18-ci əsrin ortalarına qədər alman ədəbiyyatı çox yavaş inkişaf etdi və bir qədər sonra Lessinq, Höte və Şiller kimi dünya səviyyəli böyük şəxsiyyətlər yetişdirdi. Alman maarifçiliyinin ən məhsuldar dövrü yalnız 50-60-cı illərdə Lessinqlə başladı.

Game-based learning offers a rich, interactive approach to English language teaching. By incorporating games that align with communicative language teaching principals, teachers can foster a more engaging and student-centered classroom environment. While challenges exist, thoughtful planning and clear objectives ensure that games can be seamlessly integrated into language lessons. As demonstrated by empirical studies and case data, the use of games enhances linguistic skills, motivation, and overall learner engagement. Further research should explore the role of digital games and their potential in the evolving landscape of ELT.

References

1. Ahmed, K. (2018). The Impact of Language Games on EFL Learners' Speaking Skills. Journal of Educational Studies, 32(4), 55-71.
2. Aydin, Z., & Zengin, B. (2020). Digital Game-Based Language Learning: Insights from a Mixed Methods Study. Educational Technology & Society, 23(2), 1-14.
3. Brown, H. D. (2014). Principles of Language Learning and Teaching (6th ed.). Pearson.
4. Chen, J. (2018). The Effects of Game-Based Learning on Language Learners' Motivation. Journal of Second Language Studies, 3(1), 45-67.
5. Csikszentmihalyi, M. (2014). Flow: The Psychology of Optimal Experience. Harper Perennial Modern Classics.
6. Dulay, H., Burt, M., & Krashen, S. D. (2018). Language Two (3rd ed.). Oxford University Press.
7. Godwin-Jones, R. (2021). Emerging Technologies for Language Learning. Language Learning & Technology, 25(3), 1-12.
8. Gates, M. (2022). Game-based Learning in ELT: Strategies and Challenges. Modern English Teacher, 31(2), 25-30.
9. Krashen, S. (1982). Principles and Practice in Second Language Acquisition. Pergamon Press.

10. Morya, R., & Raman, S. (2021). Collaborative Language Games for Mixed-Level Classrooms. Journal of Language and Education, 7
11. Ellis, R. (2006). Current issues in the teaching of grammar: An SLA perspective. *TESOL Quarterly, 40*(1), 83–107. https://doi.org/10.2307/40264512
12. Multilingualism and globalization. https://en.wikipedia.org/wiki/Multilingualism_and_globalization?utm_source=chatgpt.com

Received: 19.10.2024
Revised: 05.12.2024
Accepted: 31.12.2024
Published: 22.01.2025

https://doi.org/10.36719/2663-4619/110/45-48

Fidan Allahverdiyeva
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0009-0007-0108-1913
allahverdiyevaf98@gmail.com

Qloballaşma dövründə Azərbaycanda multikulturalizm

Xülasə

Bu məqalədə qloballaşma dövründə Azərbaycanın multikulturalizm siyasətinin inkişafı və bu siyasətin beynəlxalq və daxili təsirləri araşdırılıb. Azərbaycan müxtəlif etnik və dini qrupların bir arada yaşadığı bir ölkə olaraq tarix boyu multikulturalizmi öz milli ənənəsi kimi qorumuş və inkişaf etdirmişdir. Müstəqillik dövründə isə Azərbaycan multikulturalizm siyasətini dövlət siyasətinin vacib bir hissəsi olaraq tətbiq etmiş, müxtəlif etnik və dini icmalar arasında qarşılıqlı anlaşma və əməkdaşlığı təşviq etməyə çalışmışdır. Qloballaşma ilə yanaşı Azərbaycan öz mədəni müxtəlifliyini qorumağa və bu müxtəlifliyi beynəlxalq səviyyədə tanıtmağa davam edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın multikulturalizm siyasəti həm daxili, həm də beynəlxalq səviyyədə uğurla tətbiq edilir. Dövlət bu siyasəti ilə yalnız etnik və mədəni müxtəlifliyi deyil, həm də dini müxtəlifliyi qorumağa çalışır və müxtəlif dinlər arasında dialoqu təşviq edir.

Azərbaycanın bu sahədəki uğurlu siyasəti ölkənin beynəlxalq əlaqələrində güclü bir mövqe əldə etməsinə, həmçinin dünya miqyasında multikulturalizm təcrübəsini paylaşmasına imkan vermişdir. Nəticədə, Azərbaycan qloballaşma dövründə multikulturalizmin tərəfdarı olan bir dövlət olaraq dünya səhnəsində önəmli bir yer tutur.

Açar sözlər: *Azərbaycan, multikulturalizm, qloballaşma, etnik müxtəliflik, dövlət siyasəti*

Fidan Allahverdiyeva
Azerbaijan University of Languages
https://orcid.org/0009-0007-0108-1913
allahverdiyevaf98@gmail.com

Multiculturalism in Azerbaijan in the Era of Globalization

Abstract

In this article, the development of Azerbaijan's multiculturalism policy and the international and domestic effects of this policy in the period of globalization are examined. As a country where different ethnic and religious groups live together, Azerbaijan has preserved and developed multiculturalism as its national tradition throughout history. During the period of independence, Azerbaijan implemented the policy of multiculturalism as an important part of the state policy and tried to promote mutual understanding and cooperation between different ethnic and religious communities. Along with globalization, Azerbaijan continues to protect its cultural diversity and promote this diversity at the international level. Under the leadership of President Ilham Aliyev, Azerbaijan's policy of multiculturalism is successfully applied both domestically and internationally. With this policy, the state tries to protect not only ethnic and cultural diversity, but also religious diversity and promotes dialogue between different religions.

Azerbaijan's successful policy in this field has allowed the country to gain a strong position in international relations, as well as to share the experience of multiculturalism on a global scale. As a result, Azerbaijan occupies an important place on the world stage as a state that supports multiculturalism in the era of globalization.

Keywords: *Azerbaijan, multiculturalism, globalization, ethnic diversity, state policy*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

Qloballaşma dövrü dünyanın müxtəlif bölgələri arasında sosial, iqtisadi və mədəni əlaqələrin getdikcə daha da artdığı və cəmiyyətlərin qarşılıqlı təsir göstərdiyi bir prosesi təmsil edir. Bu, xüsusən müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin bir arada yaşadığı ölkələrdə daha açıq şəkildə hiss olunur. Qloballaşma yeni texnologiyalar, informasiya mübadiləsi və beynəlxalq əməkdaşlıq vasitəsilə sərhədləri aşaraq mədəniyyətlərin və təcrübələrin daha yaxın və qarşılıqlı əlaqəli hala gəlməsini təmin edir. Bu mənada, qloballaşma, müxtəlif mədəniyyətlərin bir arada yaşadığı ölkələrdə həm müsbət, həm də mənfi təsirlər yarada bilər. Lakin bu təsirlərin ən yaxşı şəkildə idarə olunması cəmiyyətin içindəki müxtəlifliyin harmoniyasını qorumaqla mümkündür (Aslanova, 2016, s. 130).

Azərbaycan yerləşdiyi coğrafi mövqe, tarixi və mədəni zənginlikləri ilə çoxsaylı etnik və dini qrupların bir arada yaşadığı nadir ölkələrdən biridir. Bu xüsusiyyət ölkəni mədəni müxtəliflik və multikulturalizm baxımından xüsusilə diqqətə layiq edir. Azərbaycan tarix boyu müxtəlif mədəniyyətlərin, dillərin və dinlərin birləşdiyi, qarşılıqlı əlaqələrin və əməkdaşlığın təşviq olunduğu bir məkanda yerləşmişdir. Bu müxtəliflik Azərbaycanın multikulturalizm siyasətinin təməlini qoyan əsas faktorlar arasında yer alır. Multikulturalizm sadəcə bir dövlətin siyasəti deyil, həm də cəmiyyətin dəyərləri, sosial münasibətləri və mədəni irsinin güclü bir göstəricisidir (Mir-Bağırzadə, 2021, s. 87).

Qloballaşma dövründə Azərbaycanın multikulturalizm siyasəti daha da aktuallaşmış və dünya səviyyəsində nümunə olaraq göstərilən bir modelə çevrilmişdir. Xüsusilə 21-ci əsrdə qloballaşma ilə paralel olaraq Azərbaycan müxtəlif xalqların və dinlərin bir arada yaşaması üçün əlverişli şərait yaradan bir dövlət kimi özünü təqdim etmişdir. Azərbaycan dövlətinin multikulturalizm siyasəti, xüsusən də müxtəlif mədəniyyətlər arasında dialoq, qarşılıqlı hörmət və əməkdaşlıq prinsiplərini önə çıxarır. Bu siyasət həmçinin beynəlxalq səviyyədə Azərbaycanın mədəni müxtəlifliyə verdiyi önəmi və bu sahədəki liderliyini nümayiş etdirir.

Beynəlxalq müstəvidə qloballaşma ilə əlaqəli olaraq Azərbaycan həm siyasi, həm də mədəni baxımdan öz müstəqilliyini qoruyaraq müxtəlif mədəniyyətlərin qarşılıqlı təsirini təşviq edir. Bu, yalnız dövlətin daxili siyasətinin bir hissəsi olaraq qalmır, həm də beynəlxalq arenada ölkənin həmrəyliyini və mədəni müxtəlifliyini təbliğ etməkdə mühüm bir rol oynayır. Azərbaycanın multikulturalizm siyasəti, eyni zamanda, qloballaşma dövrünün gətirdiyi yeni çağırışlarla mübarizə aparmağı, həmçinin ölkənin mədəni irsini qorumağı və inkişaf etdirməyi özündə ehtiva edir (Niftiyev, 2015, s. 237).

Tədqiqat

Azərbaycanın multikulturalizmi tarixi və mədəni zənginliklərindən irəli gəlir. Ölkə müxtəlif etnik, dini və mədəni qrupların bir arada yaşadığı bir məkandır. Tarix boyunca Azərbaycanın ərazisində bir çox etnik və dini qruplar birgə yaşamış və qarşılıqlı hörmət əsasında münasibətlər qurmuşdur. Azərbaycanda azərbaycanlılar, ruslar, ermənilər, talışlar, tatarlar, ləzgilər, yahudilər və digər etnik qruplar uzun illər boyu bir arada yaşamış və sosial münasibətlərini qarşılıqlı anlaşma və hörmət üzərində qurmuşlar. Bu, ölkənin multikultural ənənələrini formalaşdırmış və Azərbaycanın tarixində dərin izlər buraxmışdır (Mir-Bagirzade, 2019, s. 20).

Sovet dövründə də Azərbaycan müxtəlif xalqların birgə yaşadığı bir region kimi tanınırdı. Bu dövrdə Azərbaycanın çoxmillətli və çoxmədəniyyətli yapısı dövlət siyasəti tərəfindən dəstəklənir və müxtəlif etnik və dini qruplar arasında qarşılıqlı hörmət və əməkdaşlıq təşviq edilirdi. Müstəqillik dövründə isə Azərbaycan bu zəngin mədəni müxtəlifliyi qorumaqla yanaşı həm də dünya miqyasında multikulturalizm siyasətini daha da inkişaf etdirmək məqsədini güdür (Mədətli, 2018, s. 9).

Azərbaycanın multikulturalizm siyasəti dövlətin mədəni müxtəlifliyə verdiyi önəmi və bu müxtəlifliyi qorumağa yönəlmiş konkret addımları əhatə edir. Bu siyasət Azərbaycanın daxili və xarici siyasətinin vacib tərkib hissəsi olmuş və müasir dövrdə beynəlxalq arenada Azərbaycanın imicini gücləndirən əsas faktorlardan biri olmuşdur. Dövlətin bu sahədəki fəaliyyəti müxtəlif etnik və dini qrupların bir arada yaşaması üçün şərait yaradır və mədəniyyətlərarası dialoqu təşviq edir (Mir-Bagirzade, 2018, s. 55).

2009-cu ildən başlayaraq Azərbaycan rəsmi olaraq "Multikulturalizm ili" elan etmiş və bu çərçivədə müxtəlif tədbirlər keçirilməyə başlanmışdır. Bu tədbirlər ölkədəki multikulturalizm ənənələrini möhkəmləndirmək, müxtəlif xalqlar arasında qarşılıqlı anlaşma və əməkdaşlığı artırmaq məqsədini güdür. Prezident İlham Əliyev Azərbaycanın multikulturalizm siyasətini dəstəkləyən və bu sahədəki beynəlxalq təşəbbüsləri təşviq edən bir lider olaraq çıxış etmişdir. Bundan əlavə, Azərbaycan parlamenti və hökuməti etnik və dini qrupların hüquqlarını qorumaq üçün müxtəlif qanunvericilik və sosial siyasətlər həyata keçirmişdir (Qasımova, 2022 s. 14-15).

Qloballaşma dünya miqyasında mədəniyyətlərin daha yaxın və qarşılıqlı əlaqəli olmasına səbəb olmuşdur. Bu, xüsusən də multikulturalizm siyasətini daha da aktuallaşdırmışdır (Əliyeva, 2016, s. 12).

Azərbaycanın beynəlxalq əlaqələrində multikulturalizm mühüm yer tutur. Azərbaycanın qloballaşma dövründə dünyadakı müxtəlif xalqlar və mədəniyyətlərlə əlaqələr qurması, ölkənin multikulturalizm siyasətini daha da inkişaf etdirməsinə imkan vermişdir. Azərbaycan, həmçinin beynəlxalq təşkilatlarda, xüsusən də BMT, UNESCO və digər təşkilatlarda multikulturalizmi təşviq edən və mədəni müxtəlifliyi qoruyan bir dövlət olaraq tanınır. Azərbaycan müxtəlif mədəniyyətlərin, xalqların və dinlərin bir arada yaşamasına şərait yaratmaqla yanaşı, qloballaşmanın gətirdiyi yeni çağırışlara uyğun olaraq, bu müxtəlifliyi qorumağa və inkişaf etdirməyə davam edir. Qloballaşma dövründə Azərbaycanın multikulturalizm siyasəti həm daxili, həm də beynəlxalq səviyyədə uğurla tətbiq edilir. Dövlətin multikulturalizmi təşviq etməsi, ölkə daxilində etnik və dini qruplar arasında qarşılıqlı hörmət və əməkdaşlığın möhkəmlənməsinə, beynəlxalq müstəvidə isə Azərbaycanın mədəni müxtəlifliyini və bu sahədəki liderliyini önə çıxarmasına səbəb olmuşdur (Tağıyev, 2017, s. 166).

İnternet, sosial media və beynəlxalq tədbirlər, Azərbaycanın multikultural dəyərlərini dünya ictimaiyyətinə tanıtmaq üçün geniş platforma təqdim edir. Azərbaycan, bu imkanlardan istifadə edərək, öz multikulturalizm təcrübəsini beynəlxalq səviyyədə paylaşır və dünya miqyasında mədəni müxtəlifliyin təşviqinə töhfə verir.

Qloballaşma mədəniyyətlərarası əlaqələrin genişlənməsinə səbəb olsa da, yerli mədəniyyətlər və multikulturalizm prinsiplərinə müxtəlif çətinliklər yaradır. Bu çətinliklər lokal mədəniyyətlərin qorunmasından tutmuş etnik və dini azlıqların hüquqlarının müdafiəsinə qədər geniş bir spektri əhatə edir (Rzayeva, 2015, s. 56).

Azərbaycanın multikulturalizm siyasəti isə bu təzyiqlərə qarşı dayanıqlı bir model kimi diqqət çəkir və bu sahədə örnək göstərilən ölkələrdən biridir (Axundova, 2019).

Qloballaşma bəzi hallarda mədəniyyətlərarası anlaşılmazlıqları və gərginlikləri də artırır. Mədəniyyətlərin bir-biri ilə daha çox təmasda olduğu müasir dövrdə, fərqli dəyərlərin və inancların qarşılaşması bəzi cəmiyyətlərdə narazılıqlara səbəb ola bilər. Xüsusilə, multikulturalizm prinsiplərinin tam qəbul edilmədiyi və ya düzgün tətbiq olunmadığı yerlərdə bu vəziyyət daha da dərinləşə bilər (Mamedzade, 2018, s. 77).

Azərbaycanın multikulturalizm siyasəti bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Ölkə daxilində müxtəlif mədəniyyətlər və dinlər arasında dialoqun təşviqi ilə gərginliklərin qarşısını almaq üçün mütəmadi tədbirlər həyata keçirilir. Dövlətin təşəbbüsü ilə keçirilən konfranslar, seminarlar və layihələr müxtəlif qrupların bir araya gəlməsini təmin edir.

Nəticə

Azərbaycanın qloballaşma dövründə tətbiq etdiyi multikulturalizm siyasəti, ölkənin mədəni müxtəlifliyi qorumaq və inkişaf etdirmək məqsədini daşıyır. Dövlətin bu sahədəki uğurlu siyasəti həm daxili, həm də beynəlxalq səviyyədə müxtəlif mədəniyyətlər və dinlər arasında qarşılıqlı hörmət və əməkdaşlığı təşviq edir. Azərbaycanın multikulturalizm siyasəti ölkənin sosial, mədəni və siyasi sabitliyini gücləndirir və dünyada Azərbaycanın bu sahədəki liderliyini nümayiş etdirir.

Azərbaycanda multikulturalizmin ən əhəmiyyətli tərkib hissələrindən biri dinlərarası dialoqdur. Azərbaycanın müxtəlif dini qruplar arasında qarşılıqlı hörmət və dialoq yaratmaqla dinlərarası əlaqələri gücləndirən bir siyasət yürütməsi xüsusilə əhəmiyyətlidir. Azərbaycan həm müsəlman,

həm də xristian və yahudi icmalarının birgə yaşadığı bir ölkə olaraq müxtəlif dinlər arasında qarşılıqlı anlaşma və barışın təmin edilməsi sahəsində nümunə göstərən bir dövlət olaraq tanınır.

Ədəbiyyat

1. Axundova, S. (2019, 20 Aprel). Azərbaycan multikulturalizm və tolerantlığın mərkəzidir. Azərbaycan müəllimi,.
2. Aslanova, R. (2016). "Qloballaşma və mədəni müxtəliflik". Bakı: “Elm” nəşriyyatı, 339.
3. Əliyeva, S. (2016, 22 noyabr). Azərbaycan multikulturalizm modelinin qlobal perspektivləri, Palitra, 12.
4. Qasımova, N. V. (2022). Multikulturalizm və milli kimlik münasibətlərinin fəlsəfi aspektləri. Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın Avtoreferatı. Bakı, 28.
5. Mədətli, E. Y. (2018, 10 iyul). Birgəyaşayış fəlsəfəsi və milli kimlik. Respublika, 9.
6. Mir-Bağırzadə, S. A. (2021). Multikulturalizmə giriş. Dərslik. Bakı, 120.
7. Mamedzade, I. (2018). Filosofiya o sovremonnosti, istorii i kul'ture (O konturakh istoriko-kul'turnoy epistomologii) Baku: Izdatel'stvo «Elm və təhsil», 224.
8. Mir-Bagirzade S. (2018). Sovremennyy Azerbaydzhan v kontekste Vostoka i Zapada i mul'tikul'turalizm Baku,: Fond Razvitiya nauki pri prezidente Azerbaydzhanskoy respubliki, 168.
9. Mir-Bagirzade, S. A. (2019). Ocherki po teorii i istorii kul'tury Azerbaydzhana,Baku,-NANA, 272.
10. Niftiyev, N. (2015). Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı: MTL, 408.
11. Tağıyev, Ə. M. (2017). Milli kimlik və multikultural proseslər. Bakı: Gənclik, 204.
12. Rzayeva, P. O. (2015). Postmodern i mul'tikul'turalizm: mezhdistsiplinarnyy diskurs. Nauchnaya monografiya. Baku: Elm i Taxsil, 300.

Daxil oldu: 30.10.2024
Baxışa göndərildi: 26.11.2024
Təsdiq edildi: 29.12.2024
Çap olundu: 22.01.2025

https://doi.org/10.36719/2663-4619/110/49-56

Tural Bədəlov
Bakı Mühəndislik Universiteti
magistrant
https://orcid.org/0009-0006-3451-399X
turalbadalov@yahoo.com

İnflyasiyanın ölçülməsi: Gürcüstan və Azərbaycan müqayisəsi

Xülasə

İnflyasiya iqtisadiyyatın dayanıqlılığı və cəmiyyətin rifahı üçün ən önəmli göstəricilərdən biridir. Çünki təsirini ev təsərrüfatları birbaşa olaraq öz ciblərində, özəl sektor isə istehsal və satışılarında hiss edirlər. İnflyasiya insanların həyat keyfiyyətinə, borclanma səviyyələrinə və seçici davranışlarına ciddi təsir göstərir. Bu da bir faktdır ki, iqtisadi agentlər inflyasiyanın sürətlə yüksəlməsi ilə bağlı həmişə narahatlıq keçirirlər. Bu mənada inflyasiyanın düzgün ölçülməsi və müqayisəliliyi çox vacib nüansdır. Bu araşdırma Cənubi Qafqazın iki ölkəsi – Azərbaycan və Gürcüstanda inflyasiya ölçülməsi, beynəlxalq standartların tətbiqi və metodoloji fərqliliklərin təhlilinə yönəlib. İnflyasiya ölçülməsində istifadə edilən beynəlxalq standartlar, indeks və formulalar barədə məlumatları, fərqlilikləri göstərərək əhatə edir. Araşdırma nəticələri Azərbaycan və Gürcüstanda inflyasiya ölçmə mexanizmlərinin anlaşılmasına və daha səmərəli siyasətlərin formalaşmasına töhfə verə bilər.

Açar sözlər: *İQİ, inflyasiya, istehlak səbəti*

Tural Badalov
Baku Engineering University
Master student
https://orcid.org/0009-0006-3451-399X
turalbadalov@yahoo.com

Measurement of Inflation: Comparison of Georgia and Azerbaijan

Abstract

Inflation is one of the most critical indicators for economic sustainability and societal well-being. This is because its impact is directly felt by households in their daily expenses and by the private sector in production and sales. Inflation significantly influences people's quality of life, debt levels, and consumer behavior. It is a well-known fact that economic agents are consistently concerned about the rapid rise of inflation. In this regard, the accurate measurement and comparability of inflation are of utmost importance. This study focuses on measuring inflation in two countries of the South Caucasus — Azerbaijan and Georgia—by applying international standards and analyzing methodological differences. It provides insights into the international standards, indices, and formulas used for inflation measurement, while highlighting key differences between the two countries. The findings of this research can enhance the understanding of inflation measurement mechanisms in Azerbaijan and Georgia and support the development of more effective economic policies.

Keywords: *coicop, ecoicop, hicp*

Giriş

İnflyasiya dünya iqtisadiyyatının ən aktual problemlərindən biri olaraq həm makroiqtisadi sabitliyə, həm də insanların gündəlik həyatına birbaşa təsir göstərir. Xüsusilə Cənubi Qafqaz kimi özünəməxsus iqtisadi dinamikaya malik regionlarda inflyasiyanın düzgün ölçülməsi və təhlili böyük əhəmiyyət kəsb edir.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

"İnflyasiya qanunvericilik olmadan tətbiq edilən bir vergidir" – M. Fridmanın bu fikri inflyasiyanın insanların gündəlik həyatına necə səssiz, lakin ciddi təsir göstərdiyini aydın şəkildə ifadə edir.

Tədqiqat

Standartlar

Son illərdə inflyasiyanın sürətlə artması insanların alıcılıq qabiliyyətinə, istehsal xərclərinə və ümumilikdə həyat keyfiyyətinə mənfi təsir göstərir. Bu baxımdan inflyasiyanın dəqiq ölçülməsi və ölkələr arasında müqayisəsi iqtisadi siyasətlərin düzgün formalaşdırılması üçün vacibdir. Bu sahədə beynəlxalq standart kimi Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən hazırlanmış COICOP (Classification of Individual Consumption by Purpose – şəxsi istehlakın təyinatına görə təsnifat) istifadə edilir (BMT, BVF, BƏT, Avrostat, İƏİT və Dünya Bankı tərəfindən qəbul edilmiş "İstehlak Qiymətləri İndeksinə dair Təlimat: Nəzəriyyə və Təcrübə" metodoloji vəsait, 2004).

COICOP – BMT-nin Statistika Bölməsi tərəfindən nəşr olunan istinad təsnifatıdır. Hər hansı bir xüsusi regionla məhdudlaşmayaraq bütün dünyada istifadə olunur. Bu təsnifat sistemi fərdi istehlak xərclərinə dair statistik məlumatların əldə edilməsinə və təhlilinə imkan yaradır. Lakin Avropa İttifaqı (Aİ) spesifik iqtisadi və sosial xüsusiyyətlərini nəzərə alaraq COICOP-un əsasında ECOICOP (European Classification of Individual Consumption by Purpose – şəxsi istehlakın təyinatına görə Avropa təsnifatı) adlı öz təsnifat sistemini formalaşdırmışdır.

ECOICOP – Aİ-yə üzv ölkələrdə istehlak modellərinin və iqtisadi mühitin xüsusiyyətlərini əks etdirmək üçün əlavə alt-kateqoriyalar və müxtəlif qruplaşdırmaları ehtiva edir. Nəticədə ECOICOP-un tətbiqi Aİ ölkələri arasında statistik məlumatların dəqiqliyini, uyğunluğunu və müqayisəliliyini əhəmiyyətli dərəcədə artırır.

Buna görə də COICOP və ECOICOP-un fərqlərinin və oxşarlıqlarının təhlili inflyasiya ölçmə metodologiyasının anlaşıqlığı və tətbiqi baxımından böyük əhəmiyyət kəsb edir BMT, BVF, BƏT, Avrostat, İƏİT və Dünya Bankı tərəfindən qəbul edilmiş "İstehlak Qiymətləri İndeksinə dair Təlimat: Nəzəriyyə və Təcrübə" metodoloji vəsait, 2020).

Daha geniş kontekstdə COICOP və ECOICOP fərqi aşağıdakılardır:

1. Regional xüsusiyyətlər

COICOP: Beynəlxalq səviyyədə istifadə olunan qlobal standartdır. Hər hansı bir bölgə və ya regionla məhdudlaşmır. O, geniş iqtisadi və maliyyə statistikası üçün universal tətbiq edilir.

ECOICOP: Aİ-yə üzv dövlətlər üçün xüsusi olaraq hazırlanıb və COICOP-un yetərli olmadığı hallarda Avropaya məxsus mal və xidmətləri əhatə edir. Bu təsnifat, Avropa bazarlarının unikal xüsusiyyətlərini və istehlakçı davranışlarını daha dəqiq əks etdirir.

2. Təfərrüat və xüsusiyyətləri

COICOP: Fərdi istehlak xərclərinin qlobal təsnifatı üçün geniş çərçivə təqdim edir. O, müxtəlif ölkələrin iqtisadi xüsusiyyətlərini nəzərə alaraq fərqli təfərrüat səviyyələrində tətbiq edilə bilər (Avropa İttifaqı, İstehlak Qiymətlərinin Uyğunlaşdırılmış İndeksinə (HICP) dair metodoloji vəsait, 2018).

ECOICOP: Avropadakı daha vahid bazar strukturlarını nəzərə alaraq əlavə alt-kateqoriyalar və spesifik qruplaşdırmalar təqdim edir. Bu, Aİ daxilində istehlak nümunələrinə uyğunlaşdırılmışdır.

3. Məlumatların uyğunlaşdırılması

COICOP: Universal standart olsa da, regional və ölkə spesifik xüsusiyyətləri nəzərə almır.

ECOICOP: Aİ ölkələri arasında məlumatların uyğunlaşdırılmasını təmin edir. Bu vahid yanaşma, Aİ daxilində istehlak xərclərinin dəqiq toplanması, müqayisəli təhlili və vahid iqtisadi statistikanın hazırlanması üçün vacibdir. Nəticədə, pul siyasəti və sosial proqramların formalaşdırılmasında kritik rol oynayır.

4. Tənzimləyici dəstək

COICOP: BMT tərəfindən dəstəklənir və statistik təsnifatda standart təcrübə üçün qlobal tövsiyə kimi xidmət edir. Heç bir regional məcburiyyət qoymur.

ECOICOP: Aİ kontekstində daha tənzimləyici rol oynayır. Aİ üzv dövlətləri müəyyən statistik hesabat növlərində ardıcıllığı qorumaq üçün bu təsnifat sistemindən istifadə etməlidirlər (Gürcüstan Milli Statistika İdarəsi İQİ-nin hesablanmasına dair metodoloji vəsait, 2021).

5. Yeniləmələr və düzəlişlər

COICOP: Yeniləmələr və düzəlişlər qlobal səviyyədə tətbiq edilir. Bu dəyişikliklər beynəlxalq müqayisəlilik ehtiyacına və qlobal tendensiyalara uyğun aparılır.

ECOICOP: Avropaya xas bazar dinamikasını, istehlak nümunələrindəki dəyişiklikləri və ya yeni mal və xidmətlərin daxil edilməsini daha sürətlə əks etdirə bilir. Bu çevik yanaşma iqtisadi məlumatların dəqiqliyini və aktuallığını qorumağa kömək edir.

6. Avropa statistika sistemləri ilə inteqrasiya

ECOICOP Aİ daxilində tətbiq edilən digər statistik metodologiya və təsnifat sistemləri ilə mükəmməl şəkildə inteqrasiya olunur. Bu inteqrasiya (Azərbaycan Dövlət Statistika Komitəsi: İQİ-nin hesablanmasına dair metodoloji vəsait, 2018):

- İstehlak məlumatlarını gəlir, istehsal və məşğulluq kimi digər iqtisadi statistika ilə uyğunlaşdırır;
- Hərtərəfli iqtisadi təhlil və Aİ səviyyəsində inteqrasiya olunmuş siyasətlərin formalaşdırılması üçün əsas təmin edir.

7. Siyasi və iqtisadi təhlildə istifadə / tənzimləmə

COICOP: Qlobal iqtisadi təhlilə təsir etsə də, onun siyasətə təsiri yerli qəbul və tətbiq əsasında bir ölkədən digərinə əhəmiyyətli dərəcədə dəyişə bilər.

ECOICOP: Aİ daxilində iqtisadi və tənzimləyici siyasətlərə birbaşa təsir edir. Bu təsnifat:

- İqtisadi standartlara nəzarət edir,
- Vahid bazarın təsirini qiymətləndirir,
- Üzv dövlətlərin iqtisadi sağlamlığını ölçür,
- İstehlakçıların müdafiəsi üçün standartların formalaşdırılmasına kömək edir.

İndekslər

COICOP standartında əsas göstərici kimi İstehlak Qiymətləri İndeksindən (İQİ) istifadə edilir. İQİ qiymətlərin zamanla dəyişməsini ölçərək ev təsərrüfatlarının xərclərinə təsir edən inflyasiya səviyyəsini qiymətləndirir. ECOICOP standartına uyğun olaraq Aİ daxilində xüsusi olaraq Uyğunlaşdırılmış İstehlak Qiymətləri İndeksi (HICP – Harmonised Index of Consumer Prices) hazırlanmışdır (Eurostat, 2020).

HICP Avropa ölkələri arasında qiymət dəyişikliyini ölçmək və müqayisə etmək üçün nəzərdə tutulub. İQİ və HICP hər ikisi qiymət dəyişiminin göstəriciləridir, lakin onlar bir qədər fərqli məqsədlərə xidmət edir və fərqli metodologiyalardan istifadə edirlər. HICP-nin ənənəvi milli İQİ-lərdən əsas üstünlüyü onun uyğunlaşdırılması və ev təsərrüfatlarının xərclərini geniş əhatə etməsindədir. Daha geniş kontekstdə HICP-nin İQİ-dən üstünlükləri aşağıdakılardır:

1. Ölkələr üzrə standartlaşdırma: HICP-nin əsas üstünlüyü ondan ibarətdir ki, o, bütün Aİ üzv dövlətlərində istifadə edilən vahid metodologiyanı təmin edir. Bu standartlaşdırma Aİ ölkələri arasında inflyasiya dərəcələrinin müqayisə olunmasını asanlaşdırır. Bu, xüsusən Avropa Mərkəzi Bankının (ECB) pul siyasəti qərarları üçün vacibdir. Milli İQİ-lər ölkələr arasında metodologiya fərqlilikləri səbəbindən müqayisə aparmaqda çətinliklər yaradır, ancaq HICP vahid yanaşma ilə bu problemi aradan qaldırır (Kling, 2015, pp. 45-60).

2. Sahibləri tərəfindən istifadə edilən daşınmaz əmlak xərclərinin istisna edilməsi: Bir çox milli İQİ-lər daşınmaz əmlak xərclərini hesablamaqla ölkə daxilində yaşayanların həyat xərclərini ölçür. HICP, sahib tərəfindən istifadə edilən mənzillə bağlı xərcləri nəzərə almır. Bu, ilk baxışdan məhdudiyyət kimi görünə bilər, amma HICP-nin ölkələr üzrə ardıcıllığı təmin etmək baxımından mühüm üstünlükdür.

3. Bütün ev təsərrüfatı xərclərinin əhatə dairəsi: HICP ev təsərrüfatlarının istehlak məqsədləri ilə bağlı bütün pul əməliyyatlarını özündə birləşdirir, buna görə də daha geniş və dolğun bir inflyasiya mənzərəsi təqdim edir. Milli İQİ-lər tez-tez yalnız rezidentlərin xərclərinə fokuslanır, amma HICP qeyri-rezidentlərin xərclərini də əhatə edərək iqtisadi ərazi daxilində daha geniş bir baxış təmin edir.

Beynəlxalq standartlara uyğunluq: HICP beynəlxalq statistik təsnifatlara və standartlara əsaslanır. Bu, onun həm Aİ daxilində, həm də qlobal səviyyədə uyğunluğunu təmin edir. Beynəl-

xalq təşkilatlar və investorlar HICP vasitəsilə Aİ və digər dünya iqtisadiyyatları arasında inflyasiya nisbətlərini müqayisə edə bilərlər (Mikayilov, 2020, pp. 85-94).

Müntəzəm baxış və təkmilləşdirmə: HICP metodologiyası statik deyil və davamlı olaraq nəzərdən keçirilir və təkmilləşdirilir. Avropa Komissiyası və xüsusən Eurostat milli statistika institutları ilə birgə çalışaraq HICP-ni dəqiqləşdirir və onun müvafiq qalmasını təmin edir. Bu proses milli İQİ-lərdə bəzi ölkələrdə o qədər də ardıcıl tətbiq edilmir, bu da HICP-nin üstünlüklərindən biridir.

Formulalar:

İQİ və HICP kontekstində ən çox istifadə edilən formulalar bunlardır:

- ***Laspeyres Qiymət İndeksi:*** Bu indeks ən çox istifadə edilən və praktiki olaraq sadə olan bir metodologiyadır. Lakin bu indeks istehlak modellərindəki dəyişiklikləri nəzərə almır, yəni zamanla istehlakçının xərclərini dəyişdirən yeni məhsulların və ya xidmətlərin əlavə edilməsi gözardı edilir. Bu metod əvvəlki dövrün qiymətləri əsasında cari qiymətləri müqayisə edir və buna görə də daha əvvəlki dövrlərin istehlak modelinə bağlıdır (Nordhaus, 2005).
- ***Jevons İndeksi (həndəsi orta):*** Əhəmiyyətli qiymət volatilliyi və ya müvəqqəti qiymət endirimləri olduqda daha çox istifadə olunur, xüsusilə əvəzetmə elastikliyi yüksək olan məhsullar üçün. Bu indeks, əmtəələrin keyfiyyətindəki fərqləri də nəzərə alır və istehlakçıların qiymət dəyişikliklərinə uyğun olaraq məhsulları əvəz edəcəyini nəzərdə tutur. Lakin, bu fərziyyə həmişə doğru olmaya bilər, çünki bəzi istehlakçılar keyfiyyət fərqlərini nəzərə alaraq əvəz etməyə yanaşmaya bilərlər.
- **Dutot İndeksi:** Bu indeks xüsusilə malların miqdarı sabit olduqda və ya qiymətlər inzibati qaydalarla müəyyən edildikdə (tənzimlənən qiymətlər) faydalıdır. Bu indeks məhsullar arasında əvəzlənmənin sıfır elastikliyini nəzərdə tutur, yəni istehlakçıların qiymət dəyişikliklərinə reaksiya verməyəcəyini qəbul edir. Bu səbəbdən Dutot indeksi sadədir və keyfiyyət dəyişikliyi olmayan əşyalar üçün ən uyğundur. Bu metod daha çox tənzimlənən bazarlarda, məsələn, dövlət tərəfindən qiymətləri müəyyən edilən məhsullarda tətbiq edilir (OECD, 2019).

Gürcüstan və Azərbaycanın İQİ hesablanmasının başlıca fərqləri:

1. Metodologiyanın əsaslandığı beynəlxalq standartlar, metodoloji materiallar və milli normativ-hüquqi sənədlər

Ölkələrin statistika qurumları İQİ hesablanarkən əsaslandığı beynəlxalq standartı, metodoloji materialları və milli normativ-hüquqi sənədləri publik olaraq açıqlayırlar, hər iki ölkənin aidiyyəti qurumunun elektron portalında (saytında) bu barədə məlumata rast gəlinir:

Azərbaycan	Gürcüstan
2004-cü ildə BMT, BVF, BƏT, Avrostat, İƏİT və Dünya Bankı tərəfindən qəbul edilmiş "İstehlak Qiymətləri İndeksinə dair Təlimat: Nəzəriyyə və Təcrübə" metodoloji vəsait	**2020-ci ildə** BMT, BVF, BƏT, Avrostat, İƏİT və Dünya Bankı tərəfindən qəbul edilmiş "İstehlak Qiymətləri İndeksinə dair Təlimat: Nəzəriyyə və Təcrübə" metodoloji vəsait

Hər iki ölkə eyni metodoloji vəsaitdən istifadə etsə də, Gürcüstan 2022-ci ilin sentyabrından etibarən həmin vəsaitin sonuncu - yenilənmiş nəşrinə istinad edərək məlumatları açıqlayır. Belə ki, bu (2020) yenilənmiş material 2004-cü il təlimatının tətbiqi və faydalılığı ilə bağlı əldə edilmiş təcrübələri nəzərə alır; son onillikdə metod və təcrübələrdə, eləcə də nəzəriyyə və tədqiqatlarda inkişafları özündə birləşdirir; 2004-cü ildən bəri baş verənləri əks etdirmək üçün data mənbələri, məlumatların toplanması üsulları və əlaqəli hesablama üsulları haqqında materialı yeniləyir; istehlakçı ehtiyaclarında son inkişafları əks etdirir və İQİ konsepsiyalarını 2008-ci il MHS ilə uyğunlaşdırır (Paltseva, 2017).

2. İstehlak səbətinin formalaşdırılması əsası

Burada Azərbaycan və Gürcüstanın eyni beynəlxalq standartdan – "COICOP"-dan istifadə etdiyini, başlıca fərqin Gürcüstanın əlavə olaraq son dönəmlər ECOICOP-a əsaslandığını qeyd etmək gərəkdir.

Azərbaycan	Gürcüstan
"Ev təsərrüfatlarında şəxsi istehlak məqsədləri üçün istifadə edilən mal, məhsul və xidmətlərin təsnifatı"nın (COICOP) milli analoqu	COICOP və həmçinin Aİ-də inflyasiyanın təqibi üçün istifadə olunan inflyasiya ölçülməsi metodologiyası - ECOICOP

Qeyd: Azərbaycanda inflyasiyanın ölçülməsinə dair Dövlət Statistika Komitəsinin (DSK) hazırladığı publik metodoloji əsaslar bunlardır:

a. İQİ-nin hesablanmasına dair metodoloji vəsait;
b. İstehlak qiymətləri indeksinin mövsümi təshihi;
c. İstehlak qiymətlərinin bazis indeksinin (baza inflyasiyasının) hesablanması üzrə metodoloji tövsiyələr;
d. Beynəlxalq müqayisələrin aparılması üçün təmsilçi-istehlak mallarının müşahidəsi və orta illik qiymətlərin hesablanmasına dair qaydalar.

3. Əsas anlayışlar

Yuxarıda da qeyd edildiyim həm Azərbaycan, həm də Gürcüstan COICOP-dan istifadə edir, dolayısı hər ikisi İQİ-ni hesablayır və yayımlayır, lakin İQİ-nin tərifində fərqliklər də mövcuddur (Statistics Canada, 2018).

Azərbaycan	Gürcüstan
İQİ - əhali tərəfindən istehlak edilən məhsul və xidmətlərin qiymətlərinin zamana görə dəyişməsini xarakterizə edən göstəricidir;	**İQİ - rezidentlərin** ölkə hüdudlarının **daxilində** və **xaricində** şəxsi istehlak üçün aldıqları mal və xidmətlərə çəkilən xərclərdəki dəyişiklikləri əks etdirir.

Qeyd: Gürcüstan Statistika qurumu həm İQİ, həm də HICP hesablayır və yayımlayır. Gürcüstan HICP-nin tərifini bu cür vermişdir: HICP-nin əhatə dairəsinə yalnız **ölkənin iqtisadi ərazisində rezidentlər və qeyri-rezidentlər** tərəfindən şəxsi istehlak üçün alınan mal və xidmətlər üzrə xərclər daxildir.

4. Əhalinin son istehlak xərclərinin strukturu: Məlumatların yığılması

Azərbaycan	Gürcüstan
Çəki qismində əhalinin son istehlak xərcləri haqqında məlumatlar çıxış edir və bu məlumatlar **ev təsərrüfatları büdcələrinin tədqiqatından** əldə olunur.	**MHS**, ev təsərrüfatlarının büdcə sorğusu, bazar araşdırmaları, pərakəndə ticarət şəbəkəsi

Qeyd: ECOICOP-un bütün səviyyələrində HICP çəkilərinin hər il yenilənməsini tələb edir: Çəki üçün Milli hesabların ən son mövcud məlumatlardan istifadə edilir. Əgər MHS-də təfərrüatlı xərclər mövcud deyilsə, o zaman digər mənbələrdən (adətən ev təsərrüfatlarının büdcəsi sorğusu) istifadə olunur. Azərbaycanda səbət üzrə çəkilərin müəyyən edilməsi üçün tək bir mənbənin – ev təsərrüfatlarının büdcə sorğusunun nəticələrindən istifadə edilir.

5. Müşahidənin coğrafi hüdudlarının müəyyən edilməsi

Azərbaycan	Gürcüstan
Ərazilər üzrə qiymətlərin qeydiyyatının aparıldığı ərazi və ticarət məntəqələrinin adları qapalı məlumatdır və publik açıqlanmır;	6 şəhər - Tbilisi, Kutaisi, Batumi, Qori, Telavi və Zuqdidi

Qeyd: Şəhərlər həmin region əhalisinin xərclərinin ölkə üzrə ümumi pul xərclərindəki payına və şəhərin ölçüsünə əsasən seçilir.

6. Məhsul və xidmətlərin qiymətlərinin qeydiyyatı: Keyfiyyət

Azərbaycan	Gürcüstan
Müşahidəsi aparılan məhsulların (xidmətlərin) qiymətlərinə keyfiyyət dəyişiklikləri səbəbindən baş vermiş qiymət artımı və ya azalmalarının təsir etməməsi üçün qiymət qeydiyyatı zamanı belə məhsullar (xidmətlər) nəzərə alınmır.	Bir əmtəə olmadıqda və əvəzedici əmtəə köhnədən keyfiyyətcə və ya kəmiyyətcə fərqləndikdə, qiymətləri müqayisə etmək üçün keyfiyyətə uyğunlaşdırma metodundan istifadə edilir

Qeyd: Gürcüstan nümunəsində "keyfiyyət uyğunlaşdırma metodundan istifadə edir" dedikdə Jevons indeks nəzərdə tutulur. Bu indeks malların və xidmətlərin keyfiyyətindəki dəyişiklikləri (məsələn, texnoloji təkmilləşdirmələr) və ya yeni məhsulların hesablanmasına ehtiyac olduqda tətbiq edilir.

7. Məhsul və xidmətlərin qiymətlərinin qeydiyyatı: Tarix

Azərbaycan	Gürcüstan
Ərzaq məhsulları üzrə ayda üç dəfə (on gün intervalı ilə), qeyri-ərzaq məhsulları və əhaliyə göstərilən ödənişli xidmətlər üzrə isə aylıq intervalla üçüncü ongünlükdə qiymət qeydiyyatçıları tərəfindən aparılır.	İstehlak qiymətlərini hər ayın 10-dan 20-dək eyni tarixlərdə uçota alınır. Qiymətlər hər ayın eyni tarixi əvəzinə, həftənin eyni günündə qeydə alınır. (Səbəb olaraq misal üçün işlənmiş avtomobil bazarı həftə sonları (şənbə və bazar günləri) intensiv işləyir)

8. Məhsul və xidmətlərin qiymətlərinin qeydiyyatı

Azərbaycan	Gürcüstan
Məlumatlar real vaxt rejimində planşet tipli kompüterlər vasitəsilə DSK-nın elektron məlumat bazasına birbaşa daxil edilir.	1. Satış məntəqələrinə şəxsən gedərək əvvəlcədən müəyyən edilmiş mal və ya xidmətlərin qiymətlərini qeyd edilir;
	2. İnternet saytından istifadə edərək əvvəlcədən müəyyən edilmiş mal və ya xidmətlərin qiymətlərini qeyd edir;
	3. Telefon zəngi vasitəsi ila qiymətlər qeyd edilir.

Daha detallı olaraq qeyd etsək, Gürcüstanda, ümumiyyətlə, qiymətlərin qeydiyyatı ənənəvi (yerli və mərkəzi) və yeni (web scraping və scanner data) metod vasitəsi ilə aparılır:

Mərkəzləşdirilmiş metod pərakəndə satış məntəqələrinin baş ofisindən əldə edilə bilən mərkəzləşdirilmiş qiymətlər əsasında aparılır. Misal telefon operatorunun internet tarifi mərkəzdən təyin olunur və bütün ölkə üçün eynidir.

Web scraping - ticarət / xidmət obyektlərinin veb saytlarından məlumatların avtomatlaşdırılmış şəkildə yüklənməsi. Ticarət/xidmət obyektlərinin internet saytlarından qısa müddət ərzində böyük həcmdə müfəssəl məlumatların endirilməsinə imkan verən nisbətən yeni məlumat toplama üsuludur.

Scanner data – Hər hansısa böyük bir datadan qiymətlərlə bağlı hissəinin kəsilib alınmasıdır.

9. Xüsusi çəki strukturunun formalaşdırılması

Azərbaycan	Gürcüstan
Bu istehlak xərclərinin strukturu istehlak qiymətlərinin bazis indeksinin hesablanması zamanı istifadə olunan əmtəə və xidmətlər dəsti nəzərə alınmaqla əvvəlki il üzrə götürülür.	t dövrü üçün çəkilər t-2 dövrünün məlumatlarına əsasən hesablanır. Məsələn, 2012-ci il üçün çəki istinad dövrü 2010-cu ildir. İstehlak səbətində təmsil olunan mal və xidmətlərin siyahısı da çəkilər yenilənərkən dəyişə bilər. Çünki xərclər haqqında məlumat nisbətən gec əldə edilir

10. Əhatə dairəsi və çəkidə fərqlər

Həm HICP, həm də İQİ Laspeyres düsturunun variasiyalarından istifadə edir. Formulada oxşarlıq olsada, daxil edilmiş mal və xidmətlərin əhatə dairəsi və ümumi hesablamada onların müvafiq çəkiləri HICP və milli İQİ arasında əhəmiyyətli dərəcədə fərqlənə bilər. Bu fərq hesablamaların xüsusiyyətlərini əhəmiyyətli dərəcədə dəyişə bilər:

HICP müəyyən xərcləri, məsələn, **sahibinin yaşadığı mənzil xərclərini (owner-occupied housing - OOH)** istisna edir, bəzi milli İQİ-lərə isə bu xərclər daxildir. "HICP"-ə ev təsərrüfatlarının istehlak məqsədləri üçün həyata keçirdikləri bütün pul əməliyyatları daxildir (Statistical Office of the European Union, 2019).

Əsas nəticələr

Azərbaycanda inflyasiya ölçülərkən İQİ-dən, Gürcüstanda isə həm İQİ, həm də HICP-dən istifadə edilir. HICP hesablanması Aİ tərəfindən hazırlanmış metodoloji göstərişlərə və qanunvericiliyə əsaslanır ki, onlara ciddi riayət edilməsi bu göstəricini istifadə edən bütün ölkələr üçün məcburidir.

HICP İQİ-dən əsasən istehlak səbətinin çəkiləri və istifadə olunan təsnifat baxımından bir neçə metodoloji xüsusiyyətləri ilə fərqlənir. HICP-nin İQİ-dən əsas fərqi, istehlak səbətinin çəkiləri və təsnifatını hesablamaq üçün həm rezidentlər, həm də qeyri-rezidentlər tərəfindən ölkə daxilində çəkilən xərcləri nəzərə almasıdır. İQİ-də isə yalnız rezidentlərin xərcləri nəzərə alınır. Bununla belə qeyd etmək lazımdır ki, istehlak səbətinin tərkibi və istifadə olunan mikroməlumatlar hər iki indeks üçün eynidir. Hansı formulanın "daha yaxşı" olduğu indeksin istifadə olunduğu kontekstdən asılıdır. Müxtəlif ölkələr və dövrlər üzrə geniş, ardıcıl inflyasiya ölçüləri üçün çox vaxt Laspeyres indeksinə üstünlük verilir. Çünki bu əsasən sabit baza dövrünə nisbətdə qiymətləri qiymətləndirir və məhsulların nisbi qiymətlərinə əsaslanır. Bununla yanaşı, Laspeyres indeksi mal və xidmətlərin keyfiyyətində və ya tərkibindəki dəyişiklikləri nəzərə almır ki, bu da inflyasiyanın dəqiq ölçülməsini çətinləşdirə bilər. Jevons indeksi (həndəsi orta) xüsusilə əvəzlənməsi asan olan məhsulların qiymət volatilliyini idarə etməyə imkan verir və qiymət dəyişikliyini əvəz etməyə çalışan istehlakçı davranışını əks etdirir.

Gürcüstan

Gürcüstan 2017-ci ilin yanvarında HICP metodologiyasının istifadəsinə dair qərar qəbul edib və 2022-ci ildən tətbiq edilir. Bu, Aİ ilə Assosiasiya Sazişindən dolayı Gürcüstanın statistik metodologiyalarını Avropa standartlarına uyğunlaşdırmaq üçün edilib. Vahid, uyğunlaşdırılmış metodologiyaya əsaslanır. Beləliklə, bu göstəricinin Gürcüstan Statistika qurumu həm İQİ, həm də HICP hesablayır və yayımlayır. "HICP"i İQİ-ni əvəz etməyib.

Azərbaycan

Azərbaycanda İQİ-nin hesablanmasında Laspeyres düsturunun istifadəsi, inflyasiyanın ölçülməsini sadə və asan edir. Lakin bu, malların keyfiyyətindəki dəyişiklikləri nəzərə almadığı üçün inflyasiyanın dəqiq hesablanmasında çətinliklər yarada bilər.

Nəticə

Gürcüstanda HICP-nin tətbiqi Aİ standartlarına yaxınlaşmanı təmin edir və beynəlxalq müqayisəni asanlaşdırır, Azərbaycanda isə İQİ ilə inflyasiya ölçülür və bu daha sadə bir yanaşma olsa da, bəzi çatışmazlıqları vardır. HICP-nin istifadəsi keyfiyyət və kəmiyyət dəyişikliklərini nəzərə alaraq inflyasiyanın daha dəqiq ölçülməsini təmin edir.

Ədəbiyyat

1. Avropa İttifaqı, İstehlak Qiymətlərinin Uyğunlaşdırılmış İndeksinə (HICP) dair metodoloji vəsait. (2018).
2. Azərbaycan Dövlət Statistika Komitəsi: İQİ-nin hesablanmasına dair metodoloji vəsait. (2018).
3. BMT, BVF, BƏT, Avrostat, İƏİT və Dünya Bankı tərəfindən qəbul edilmiş "İstehlak Qiymətləri İndeksinə dair Təlimat: Nəzəriyyə və Təcrübə" metodoloji vəsait. (2004).
4. BMT, BVF, BƏT, Avrostat, İƏİT və Dünya Bankı tərəfindən qəbul edilmiş "İstehlak Qiymətləri İndeksinə dair Təlimat: Nəzəriyyə və Təcrübə" metodoloji vəsait. (2020).
5. Gürcüstan Milli Statistika İdarəsi İQİ-nin hesablanmasına dair metodoloji vəsait. (2021).
6. Mikayilov, F. (2020). İnflyasiyanın ölçülməsi: Azərbaycan və Gürcüstanın müqayisəsi. Azərbaycan İqtisadiyyatı Jurnalı, 12(3), 85-94.
7. Eurostat. (2020). Harmonised Index of Consumer Prices (HICP) methodology. European Commission. https://ec.europa.eu/eurostat/web/hicp/methodology
8. Kling, L. (2015). Understanding COICOP and its usage in global inflation measurements. Journal of Economic Classification, 23(1), 45-60.
9. Nordhaus, W. D. (2005). The Economics of Price Indexes. Journal of Economic Perspectives, 19(4), 65-84.
10. OECD. (2019). COICOP: A global standard for measuring consumption and inflation. OECD Publishing.
11. Paltseva, E. (2017). Measuring Inflation in the EU: The Role of HICP in Economic Policy. European Economic Review, 25(2), 150-168.
12. Statistics Canada. (2018). COICOP and ECOICOP: Their role in national and international consumption classification. Statistics Canada.
13. Statistical Office of the European Union. (2019). COICOP: Methodology and Applications. Eurostat. https://ec.europa.eu/eurostat/web/products-manuals-and-guidelines/-/KS-GQ-19-004

Daxil oldu: 24.10.2024
Baxışa göndərildi: 08.11.2024
Təsdiq edildi: 23.12.2024
Çap olundu: 22.01.2025

https://doi.org/10.36719/2663-4619/110/57-66

Rəhim Həsənov
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
UOT 1:001.92
https://orcid.org/0000-0001-5104-9582
hesenli.82@inbox.ru

Dini təhsilin tarixi-fəlsəfi və əxlaqi aspektləri

Xülasə

Din fərdin mənəvi səviyyəsini yüksəltməklə yanaşı, insanlarda müəyyən bir dünyagörüşü formalaşdırır, dindar insanların həyat mövqeyini istiqamətləndirir, eyni zamanda mədəniyyətin məzmununu zənginləşdirir. Lakin bəşər tarixində din adı altında qanlı müharibələrin də baş verməsi danılmaz bir faktdır.

Bu baxımdan dinin mənasını düzgün dərk etmək, müxtəlif dinlərə qarşı dözümlülük mühitini yetişdirmək və s. kimi mövzuların öyrənilməsi baxımından dini təhsilin düzgün aparılması olduqca mühüm əhəmiyyət kəsb edir. Bu məqalənin məqsədi müxtəlif ölkələrdə dini təhsilin tənzimləməsi ilə bağlı ən yaxşı təcrübələri öyrənməkdir. Dini təhsil geniş mənada ümumi dini təlimlərin, dini ayinlərin, dini adətlərin, dini anlayışların, din tarixinin tədris edilməsidir. Dar mənada, dini təhsil dedikdə isə yalnız müəyyən bir dinin və ya inancın insanlara aşılanması və öyrədilməsi nəzərdə tutulur.

Tədqiqatın məqsədi dini təhsilin formalaşması və inkişafı xüsusiyyətlərinin tarixi-fəlsəfi təhlilindən ibarətdir. Dini dünyagörüşünün formalaşmasının mühüm aspektləri, dini təhsilin cəmiyyətdə rolu, din və əxlaq, Avropa ölkələrində dini təhsilin mühüm xüsusiyyətləri, İslam dinin tədrisi tarixi də tədqiqatda öz əksini tapmışdır.

Dini təhsilin tarixi-fəlsəfi aspektləri P. L. Berger, R. Debre, H. G. Heymbrok, A. A. Leviçkaya, C. T. Şeylke, R. M. Biqnova, P. Şrayner, C. Oruç, C. Hall, F. Şveyçer və başqalarının əsərlərində geniş şəkildə araşdırılmışdır. Ölkəmizdə bu sahədə araşdırma aparan tədqiqatçılar içərisində Z. Bünyadovun, Ə. Qurbanovun, R. Əliyevin, E. Səmədovun, A. Məmmədovun və başqalarının adını qeyd etmək yerinə düşərdi.

Tədqiqatın obyektini dini biliklərin ötürülməsinin konkret tarixi formaları təşkil edir. Tədqiqatın predmeti isə dini təhsilin meydana gəlməsi, inkişafı və dini biliklərin tədrisindən ibarətdir.

Açar sözlər: *dini təhsil, din tarixi, dinin formalaşması, din və əxlaq, Avropada din, İslam dini, dini dünyagörüşü*

Rahim Hasanov
Azerbaijan State University of Culture and Arts
UOT 1:001.92
https://orcid.org/0000-0001-5104-9582
hesenli.82@inbox.ru

Historical-Philosophical and Moral Aspects of Religious Education

Abstract

Besides raising the moral level of an individual, religion forms a certain outlook in people, directs the life position of religious people, and at the same time enriches the content of culture. However, it is an undeniable fact that bloody wars have occurred in the name of religion in human history.

From this point of view, it is important to understand the meaning of religion, to cultivate an environment of tolerance towards different religions, etc. In terms of studying subjects like The purpose of this article is to study the best practices in the regulation of religious education in

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

different countries. Religious education in a broad sense is the teaching of general religious teachings, religious rites, religious customs, religious concepts, and the history of religion. In a narrow sense, religious education means inculcating and teaching people only a certain religion or belief.

The purpose of the research is the historical-philosophical analysis of the formation and development of religious education. Important aspects of the formation of the religious worldview, the role of religious education in society, religion and morality, important features of religious education in European countries, and the history of the teaching of the Islamic religion are also reflected in the research.

Historical-philosophical aspects of religious education P. L. Berger, R. Debre, H. G. Heimbrock, A. A. Levichkaya, C. T. Scheilke, R. M. Bignova, P. Schreiner, J. Oruch, J. Hall, F. Schweicher, and others have been extensively explored. It would be appropriate to mention the names of Z. Bunyadov, A. Gurbanov, R. Aliyev, E. Samadov, A. Mammadov and others among the researchers conducting research in this field in our country.

The object of the research is the specific historical forms of the transmission of religious knowledge. The subject of the research is the formation and development of religious education and the teaching of religious knowledge.

Keywords: *religious education, history of religion, formation of religion, religion and morality, religion in Europe, Islamic religion, religious outlook*

Giriş

Tarixə nəzər yetirdiyimiz zaman cəmiyyətdə dini təhsilin əhəmiyyətli rola malik olması və çoxşaxəli bir mahiyyət kəsb etməsi faktları ortaya çıxır. Ümumiyyətlə, təhsil və din uzun əsrlər boyu qarşılıqlı əlaqədə olub və onların təsirini müxtəlif ölkələrin təhsil sistemlərinin bir sıra aspektlərində müşahidə etmək olar. Dinin təhsildə rolunun əsas aspekti dini məktəblərin və təhsil müəssisələrinin fəaliyyəti ilə bağlıdır. Dini məktəblərə uşaqlar və gənclər təkcə ümumi fənləri deyil, həm də öz inanclarının dini təlimlərini öyrənirlər. Bu qəbildən olan təhsil müəssisələri mənəvi dəyərlərin və dinin formalaşmasında mühüm rol oynaya bilər.

Dini təhsilin vəzifəsi bir və ya müxtəlif dinlərin inanclarını, tarixini və dəyər sistemlərini tanıtmaqdır. Adətən dini təhsil sözügedən dini icmaya mənsub olan müəllimin nöqteyi-nəzərindən tədris olunur.

Dinşünaslıq və ya etika dərslərinə gəldikdə isə müəllimlər öz inanclarını bir kənara qoyaraq, yalnız müxtəlif dinlər və onların inancları haqqında müqayisəli bilikləri çatdırırlar. Dini maarifləndirmə dinin sosial mədəniyyətdəki rolunun dərk edilməsinə və insanın inanclarına kritik məsafədən baxmağa imkan verən dini savadın kamilləşdirilməsinə yönəlməlidir. Ümumiyyətlə, orta əsrlərdə dini təhsil daha geniş bir şəkildə tədris olunurdu, sonralar dini təhsilin əhatə dairəsi digər fənlərin tədrisinin artması və yeni fənlərin meydana gəlməsi nəticəsində tədricən azaldıldı. Dini təhsil nəticəsində insanlar müxtəlif dünya dinləri və fərqli dini cərəyanlar haqqında məlumata yiyələnir, onları həm tarixi, həm də müasir kontekstdə analiz edə bilirlər.

Tədqiqat

Dini təhsil müəssisələrində ruhanilər müqəddəs mətnləri, din tarixi, teologiyanı və inanclarının mühüm elementlərini öyrənirlər. Dini rəhbərlərin hazırlanması dini ənənələrin və təlimlərin qorunub saxlanılması və ötürülməsində mühüm rol oynayır. Dinin təhsildə rolunun digər cəhəti də tədris planlarında dini fənlərin mövcud olmasıdır. Bəzi ölkələrdə dini fənlər bütün tələbələr üçün təhsil proqramında məcburi xarakter kəsb edir. Məsələn, "Finlandiya, İsveç, Norveç və Yunanıstan kimi ölkələrdə dini təhsil məcburidir" (Yıldız, 2009, s. 247).

Bu fakt tələbələrə dinlərini daha ətraflı araşdırmaq və öz inancları haqqında anlayışı inkişaf etdirmək imkanı verir. Qeyd etmək lazımdır ki, dini təhsil tələbələrin xarakter və əxlaqının formalaşmasına kömək edən mənəvi və əxlaqi dəyərlərin mənbəyi ola bilər. O, həmçinin insanlara tolerantlığı və müxtəlifliyə hörməti aşılayan mədəni və dini fərqlərin dərk edilməsini təşviq edir. Bununla belə, dini təhsil tədrisdə dünyəvilik prinsiplərinə riayət edilməsi və dini etiqad azadlığı ilə

bağlı suallara da cavab verə bilər. Bəzi hallarda dini təhsil qarşıdurma yarada və müxtəlif dini qruplar arasında anlaşılmazlıqlara səbəb ola bilər.

Dini dünyagörüşünün formalaşmasının mühüm aspektləri

Dini düşüncənin ilk dəlilləri Orta və Üst Paleolit dövrlərinə aiddir. "Arxeoloji tapıntılar və antropoloqların apardıqları araşdırmalar sübut edir ki, inanc sistemləri (dinlər) 40-50 min il əvvəl meydana gəlmişdir" (Usta, 2020).

İbtidai din qədim insanların dini inancları və adətləri özündə ehtiva edirdi. Ümumiyyətlə, ibtidai dinlər Paleolit, Mezolit, Neolit və Tunc dövründə geniş yayılmışdı. İbtidai din daha çox təbiətə pərəstişlə ifadə olunan bir fenomendir. "Din həqiqətən mürəkkəb bir fenomendir, lakin bizim dövrümüzdə də hələ də primitiv inanclar mövcuddur" (Kruglov, 2015, s. 12).

Din dünyagörüşünün mifologiyadan daha yetkin formasıdır. Dini dünyagörüşü fövqəltəbii qüvvələrə inama əsaslanır. İnsanlar tarixən sirli və ülvi bir fenomenin – dinin mahiyyətini anlamağa çalışıblar. Dini dünyagörüşü dünyanın dini mənzərəsi, onun quruluşu, mənşəyi, inkişafı və insanın dünyadakı yeri haqqında ən ümumi baxışların məcmusudur. Dini dünyagörüşünün əsas postulatları dünyanın fövqəltəbii varlıqlar tərəfindən yaradılması ideyası və ali prinsipin hər şeyə qadir olmasıdır. Dinin formalaşmasının mühüm mənbəyi insanın həyatı mənası, axirət dünyası və ölümlə bağlı suallara cavab axtarması olmuşdur.

Qədim dövrdə fövqəltəbii varlıqları təmsil edən dini simvolların istifadəsi həmin dövrdə yaşayan insanların dini dünyagörüşündən xəbər verir. Ümumiyyətlə, arxeoloji tapıntılar zamanı üzə çıxan simvollardan qədim insanların dini inancları haqqında nəticə çıxarmaq mümkündür. Bəlkə də dini hisslərlə bağlı ritual davranışın ən qədim izləri ölülərin dəfni ilə bağlıdır.

Axirət həyatına inancın əlamətləri çox vaxt bunlarla əlaqələndirilə bilər, belə ki, mühüm və qiymətli alətlər ölülərlə birlikdə dəfn edilir, eyni zamanda cənazənin yanında yeməklər basdırılırdı. Adətən, ilk dinlər çoxallahlı xarakter kəsb edirdi, bu dinlərdə insanlar çoxlu tanrı və ilahələrin varlığına inanırdılar. Çoxallahlı kultlarda bütpərəstlik, yəni bütə sitayiş geniş yayılmışdı. Lakin sonradan monoteist dinlər, yəni bütün dünyaya hakim olan vahid Allaha inam formalaşmağa başladı.

Mütəşəkkil dinin əsasları ilk dəfə Yaxın Şərqdə Neolit İnqilabı zamanı ortaya çıxdı. Kənd təsərrüfatının inkişafı ilə əlaqədar olaraq ovçu və yığıcı insanlar oturaq həyat tərzinə keçmiş, əhalinin sıxlığı artmış, texniki inkişaf sürətlənmişdir. Bu dövrdə meydana gələn dövlətlərin inanclarında mövcud siyasi nizamın ilahi mənşəli olması ideyası ehtiva olunmuşdu, standartlaşdırılmış dini qaydalar adətən hakimiyyət tərəfindən müəyyən edilirdi. Neolit inqilabından sonra Misir və Mesopotamiyada yaranan dövlətlərin siyasi sistemi ruhanilər tərəfindən idarə olunan teokratiya idi, bu dövlətlərdə hökmdarlar eyni zamanda siyasi və dini hakimiyyəti əllərində saxlayırdılar.

Bu gün ictimai şüurda dinə maraq artmaqdadır və dindarlıqla bağlı proseslər demək olar ki, ictimai həyatın bütün sahələrində mövcuddur. Din insan həyatında çox mühüm rol oynayan, tarixin bütün dövrlərində, bütün cəmiyyətlərdə həmişə mövcud olmuş universal bir hadisədir. İnsanın yaradılışla bağlı ortaya çıxan sualların cavabı dində öz əksini tapmışdı. "İnsan başqa insanlara və təbiətə qarşı davranışlarında özünü idarə edir, çünki o, onu yaradan, idarə edən və hesaba çəkəcək transsendent varlığa inanır" (Kurt & Aykut, 2021, s. 18).

Müasir multiparadiqmli sosial reallıq şəraitində dini kimliyin axtarışı xüsusi əhəmiyyət kəsb edir. Dinin sosial hadisə kimi gələcək nəsillərin dəyər oriyentasiyalarının və dünyagörüşlərinin formalaşmasına təsirini dini konfessiyaların təhsil paradiqmasının aksioloji ölçüsünü dərk etmədən başa düşmək olmaz. Dini dünyagörüşü müəyyən dini ideya və dəyərlərə inam bəsləmək, həmçinin müəyyən dinə və dini qrupa mənsub olmaqla xarakterizə olunur. Dini şüur dini dünyagörüşünün mövcud olması üçün zəruri şərtir. Dini şüur reallığın fantastik obrazlarda əks olunması kimi müəyyən edilə bilər. Dini şüurun əsas xüsusiyyətləri duyğu aydınlığı, reallığa adekvat məzmunun illüziyalarla birləşməsi, inanc, simvolizm, emosional zənginlikdir.

Demək olar ki, əksər cəmiyyətlərdə fövqəltəbii hadisələr haqqında müəyyən inanclar toplusu vardır. Din mövcud olan bir çox cəmiyyət tiplərində müxtəlif formalar alır, lakin son nəticədə həyatı, ölümü və insan varlığının digər sirlərini anlamağa çalışır. Din cəmiyyət üçün bir sıra

funksiyaları yerinə yetirir. O, həyata məna və məqsəd verir, sosial sabitliyi və sosial nəzarəti gücləndirir, fiziki və psixoloji rifahı artırır. Bununla belə, din həm də sosial bərabərsizliyi davam etdirə və müxtəlif dini inanclara malik insanlar arasında sosial münaqişələri təşviq edə bilər.

Dini təhsilin cəmiyyətdə rolu

Din ümumi təhsilin və şəxsiyyətin mənəvi inkişafının mühüm bir hissəsidir. Dini təhsil insanlara müvafiq sahə üzrə bilik verir və tələbələrə dinlə bağlı öz mühakimələrini həyata keçirməyə, onlara dini dəyərləri anlamağa, digər insanların həyatındakı fərqlilikləri tanımağa və bununla da dialoq qurma qabiliyyətinə malik olmağa imkan verir. Yaşadığımız dini plüralizmdə qarşılıqlı tanınma tolerantlıqdan daha çox əhəmiyyət kəsb edir. Dini icmalar və dövlət qurumları hər iki tərəfin ehtiyaclarına cavab verən tədris proqramlarının hazırlanmasında birgə işləyə bilərlər. Bəzi ölkələrdə tədrisin dini prinsipləri müvafiq dini icmalar tərəfindən müəyyən edilir. Dini təhsil bütün digər təhsil sahələri kimi dövlət nəzarəti altındadır. "İtaliya, İspaniya, Portuqaliya və Hollandiya kimi katolik əhalisinin üstünlük təşkil etdiyi ölkələrdə dini təhsilin istənilən növü katolikliyin təsiri altında qalacaq" (Schreiner, 2009, s. 152).

Dinin təhsildə rolunun digər mühüm cəhəti dinlərin tarixinin öyrənilməsi, onların mədəniyyətin və cəmiyyətin inkişafına təsiri ilə bağlıdır. "Dini təhsilin təhsil sistemində özünə məxsus yer tutması qaçınılmaz bir haldır. Çünki dünyada xüsusən də Avropa ölkələrinin hüquq təcrübələrində də bu problem artıq öz həllini tapmışdır" (Səmədov, 2009, s. 59).

Təhsil proqramları çərçivəsində tələbələr müxtəlif dini ənənələrlə bağlı mühüm bilikləri öyrənə bilərlər. Bu fakt tarixi kontekstləri və dinlərin sivilizasiyaların formalaşmasına təsirini daha yaxşı başa düşməyə imkan verir. Tələbələr öz dini inanclarının prinsiplərinə əsaslanaraq etik dilemmaları müzakirə edərək, əxlaqi davranışlarını inkişaf etdirə bilərlər. Ümumiyyətlə, bir çox ölkələrdə dinin təhsildəki rolu ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Bəzi yerlərdə təhsil sisteminə tərkib hissəsi kimi inteqrasiya olunur, digər ölkələrdə isə ciddi dünyəvilik müşahidə edilir və dini fənlər təhsil proqramından çıxarılır. "Bəzi ölkələr (İngiltərə, Danimarka, Hollandiya və İsrail kimi) və əyalətlər (Kanadadakı Nyufaundlend kimi) dünyəvi dövlət məktəbləri olan və məzhəbi tədris edən məktəblərə subsidiya verir və bir çox ölkədə (ABŞ, Fransa, Belçika, Hindistan, İndoneziya və Yaponiya kimi) özəl dini məktəblər açılmışdır" (Mark Halstead, 2013, s. 143).

Dini etiqadından asılı olmayaraq, bütün insanların hüquq və azadlıqlarının nəzərə alınması, təhsil almaq üçün bərabər imkanların təmin edilməsi vacib məsələdir. Təhsil tənqidi düşüncəni və inancların müxtəlifliyinə hörməti təşviq etməlidir.

Beləliklə, dinin təhsildə rolu müxtəlifdir, bunun həm müsbət, həm də problemli tərəfləri ola bilər. Bu rolun səmərəli idarə olunması dini inanclara və dünyəvilik prinsiplərinə hörmət, eləcə də hər bir konkret ölkənin və ya təhsil sisteminin mədəni kontekstlərinin nəzərə alınması arasında balansın yaradılmasını tələb edir.

Ölkəmizdə dini təhsilin tarixi olduqca qədimdir, İslam dini meydana gəlməzdən əvvəl də Azərbaycanda dini təhsil ocaqları var idi. Görkəmli tədqiqatçı alim Zakir Məmmədov hələ Qədim Albaniyada dini təhsil verən tədris ocaqlarının olmasından bəhs edirdi. "Azərbaycanda dini əqidələrlə bağlı tədris ocaqlan da yaranmışdı. Xristian dininin təbliği ilə əlaqədar bu iş daha da fəal şəkil almışdı" (Məmmədov, 2006, s. 12).

Qərbi Avropalıların dini inanclarında xristianlıq üstünlük təşkil etsə də, inanc azadlığı səbəbindən onların dini təhsili təkcə xristianlığı əhatə etmir. Tələbələr dini inanclarına uyğun olaraq müxtəlif dini kurslar seçə bilərlər. Bu qəbildən təşkil edilən maarifləndirmə tədbiri göstərir ki, Qərbdə milli hökumət dini azadlığa böyük önəm verir.

Dini təhsilin birbaşa məqsədi bu sahəni yaxşı mənimsəmiş mütəxəssislər yetişdirməkdir. Bu sahədə reallaşdırılan təhsilin məzmunu, keyfiyyəti və nəticələri dini təhsilin inkişafına təkan verir. "Təhsil sistemində ilahiyyat elmlərini tədris, təhqiq və təbliğ etmiş olsaq, tarixi keçmişimizi daha yaxşı öyrənər, milli şüurumuzun, milli varlığımızın inkişafına yaxından yardım etmiş olar və İslamın ümumbəşəri mənəvi dəyərlərindən faydalanaraq, milli ideologiyamizin formalaşmasına kömək etmiş olarıq" (Qurbanov, 2001, s. 4).

Din obyektiv ictimai varlıqdır və müəyyən ictimai təsirə malik olan xüsusi mədəniyyətdir, ona görə də dini təhsil insanların din haqqında düzgün dərk etmələrini nəzərə almalı, həm də dini təbliğ

etməklə ictimai maarifləndirməni həyata keçirməlidir.Qeyri-formal təhsil çox vaxt fərdlər, qruplar və ya birliklər tərəfindən qeyri-kommersiya məqsədləri üçün həyata keçirilir. Burada əsasən dini maarifləndirmə məsələləri gündəmə gəlir. Qeyri-rəsmi təhsil məkanları çox vaxt etnik və ya dini mənsubiyyətə görə yaradılır. Bu cür etno-dini təhsil təcrübələri məktəbdən sonrakı təlimləri əhatə edir. Mədəni və dini baxışların çox vaxt diqqətdən kənarda qaldığı Qərb ölkələrində təhsil sisteminin ciddi şəkildə dünyəviləşməsi səbəbindən valideynlər əxlaq tərbiyəsi ilə məşğul olan qeyri-formal təhsil mərkəzləri axtarırlar.

Əxlaq tərbiyəsində dinin rolu

Gənclərin mənəvi-əxlaqi tərbiyəsi aktual problemdir, çünki müasir dünyada gənclər həm müsbət, həm də mənfi informasiya mənbələri kompleksi mühitində böyüyür. Əxlaq və din tarixən bir-biri ilə sıx bağlı olmuşdur. Din və əxlaq həm sosial ideologiyanın formasıdır, həm də üstqurum kateqoriyasına aiddir. Din real dünyada insanların gündəlik həyatında hökmranlıq edən yad qüvvələri fövqəltəbii bir formada ifadə edir. Əxlaq isə insanların davranışlarını müəyyən sosial sistemdə şəxsiyyətlərarası münasibətlərə uyğunlaşdıran normadır. İctimai və iqtisadi münasibətlərin təməli olmasa, din və əxlaq öz varlığının obyektiv əsasını itirər. Əxlaq dindən daha çox cəmiyyətin maddi və iqtisadi bünövrəsinə yaxındır. Maddi istehsal fəaliyyəti insanların ən əsas əməli fəaliyyətidir, maddi istehsal fəaliyyəti ilə məşğul olmaq prosesində insanlar bir-birinin fəaliyyət və davranışlarını tənzimləməlidirlər və əxlaq normaları bu zəmində yaranır. Din əxlaqa müqəddəslik və fövqəltəbiilik əlavə edərək, əxlaqı daha da ülviləşdirir. Əxlaq insanlar arasında ictimai münasibətlərlə bağlıdır, insanların əxlaqi davranışları da obyektiv ictimai münasibətlərlə məhdudlaşdırılır. İnsanın əxlaqi davranışı onun yarandığı və mövcud olduğu ictimai münasibətlərin mahiyyətinə uyğun gələndə ictimai rəy tərəfindən təsdiqlənəcək, əks halda pislənəcək. "Dini təhsildə əxlaqı din müəyyən edir. Dünyəvi əxlaqın mövcud ola biləcəyi qəbul edilmir. Lakin əxlaq anlayışı din tərəfindən müəyyən edilmədikdə nisbilik və subyektivlik ön plana çıxır" (Göçeri, 2002, s. 58). Bütün bunların əksini iddia edənlər də vardır.

Müxtəlif dini doktrina sistemləri və teoloji idealizm əxlaqı dini əxlaqla eyniləşdirirlər. Əslində insanlar arasında ictimai münasibətlər bütün əxlaq normalarının obyektiv əsasını təşkil edir, əxlaq normaları isə şəxsiyyətlərarası ictimai münasibətlər zəminində yaranır. Dünyəvi əxlaq insanlar arasında qavranılan real münasibətə əsaslanır və insanların davranış standartlarını tənzimləyir. Dini əxlaq bilavasitə qavrayışlı insanlarla qeyri-idrakı tanrılar arasındakı dini münasibətə əsaslanır və insanların davranışını insanlarla tanrılar arasındakı münasibətə uyğunlaşdırır. "Din və əxlaq tarix boyu yaxın münasibətdə olmuşdur. Din və əxlaq mövzusu günümüzdə daha çox aktuallıq qazanmışdır" (Məlikov, 2023, s. 793).

Müxtəlif dini sistemlərdə əxlaq iki komponentdən ibarətdir: biri insanla Allah arasındakı əlaqəni əhatə edən davranış normaları, digəri isə insanlar arasındakı münasibəti əhatə edən davranış normalarıdır. Dində Tanrının ilahiliyi cəmiyyətdəki insanlar tərəfindən verilir və insanlarla Tanrı arasındakı dini əlaqə mahiyyətcə insanlar arasındakı ictimai münasibətdən asılıdır. Dində insanlar arasında münasibəti ehtiva edən davranış normaları mahiyyət etibarilə insanlar arasında ictimai münasibətləri tənzimləyir və dünyəvi əxlaqı müqəddəsləşdirir. Din və əxlaq arasındakı əlaqə ilə bağlı tədqiqat aparan bəzi araşdırmaçılar "əxlaqın və dinin öz-özlüyündə avtonom mahiyyət kəsb etməsi, əxlaqın daha universal cəhətə malik olması və dindən asılı olmamasığı fərziyyəsinə əsaslanır" (Bilici, 2008, s. 157)

Əxlaq insanların iradəli davranışıdır, bu davranış zamanı insanın yaxşı və pis keyfiyyətləri ortaya çıxır. İnsanın hər hansı bir əməli yerinə yetirmək qabiliyyətinə sahib olması üçün əvvəlcə həmin hərəkə barədə bilik əldə etməli və nəhayət, ona yönəlməlidir. "İslam əxlaqı Allaha hörmət və ehtiram, yaradılmışlara qarşı mərhəmətli və yararlı olmağı ifadə edir" (Klavuz, 2018, s. 460).

Din və əxlaq həm sosial ideologiyadır, həm də bir-biri ilə qarşılıqlı təsirə malikdirlər. Din və əxlaqın qarşılıqlı əlaqəsi iqtisadi əsasla müəyyən edilir və iqtisadi təməldən asılı olaraq dəyişir. Qədim dövrdə ibtidai dinlər miflər və ayinlər vasitəsilə əxlaqın ictimai təsirini gücləndirirdilər. Sinifli cəmiyyətdə hakim sinif həmişə öz maraqlarına uyğun olaraq dindən istifadə edir və idarə olunan sinfə cənnəti vəd edirdilər. Sinifli cəmiyyətdə əxlaq həmişə hakim sinfin hökmranlığına və mənafeyinə xidmət edir, ya da məzlum sinif kifayət qədər güclənəndə məzlumun mənafeyini ifadə

edir və hakim sinfin zülmünə müqavimət göstərir. Dinin əxlaqa təsiri həm hakim təbəqənin əxlaqını müqəddəsləşdirmək, həm də hakim təbəqənin əxlaqına qarşı müqavimət göstərmək qismində təzahür edir. "Dini təhsil birbaşa insan tərbiyəsinə töhfə verməklə yanaşı, fərdin ümumi təhsil almasını da asanlaşdırır. Dini təhsil insana doğulduğu andan özü ilə gətirdiyi din hissini ortaya çıxarmağa və inkişaf etdirməyə kömək edir" (Keyifli, 2013, s. 119). Dini sistemdə aparılan islahatlardan sonra feodal istismar sistemləri ləğv edildi. Ölkəmizdə din artıq istismarçı siniflərin istifadə etdiyi alət deyil.

Avropa ölkələrində dini təhsilin icrası

Bir çox Avropa ölkələri ibtidai və orta məktəblərdə dini kurslar həyata keçirir və hətta dini icmaların təhsil proqramlarının planlaşdırılmasında iştirakına icazə verir, buna baxmayaraq, müxtəlif ölkələrin dini təhsilə baxışları hələ də fərqlidir. Avropa ölkələrində din kursları ümumiyyətlə kilsələr tərəfindən hazırlanır, kursun məzmunu müəyyən din və ya məzhəbin təlimindən ibarətdir, burada əsas məqsəd həmin dinin və ya məzhəbin qəbulunu təşviq etməkdir. "Ümumiyyətlə, bu tip dini təhsildə hər bir məzhəb və ya din ayrı-ayrılıqda dini tədris dərsləri yaradır və dərsi həmin din və ya məzhəbə mənsub olan müəllim verir" (Hull, 2012). Britaniyada xalqın əksəriyyəti xristianlığa inanır, ona görə də ilk dövrlərdə dini təhsil xristian təhsili ilə bərabər tutulurdu. Bununla belə, Britaniya cəmiyyəti son illərdə plüralist dəyərlərin dərk edilməsini daha çox vurğulayır. Dünyəvi dövlət olan Fransada isə kilsə dövlətdən ayrı olduğu üçün dini təhsilə önəm verilmir. Bütün bunlara baxmayaraq, Fransada Lill Katolik Universiteti, Lion Katolik Universiteti, Paris Katolik İnstitutu, Müqəddəs Dionisius Pravoslav İlahiyyat İnstitutu kimi dini təhsil verən müəssisələr fəaliyyət göstərir. Ümumiyyətlə, "Fransada ilahiyyat və ya dini elmlər üzrə universitet səviyyəsində tədris verən iyirmiyə yaxın müəssisə var. Bunlardan yeddisi katolik, beşi protestant, ikisi ortodoksal, biri yəhudi dini üzrə ali təhsil verir" (L'enseignement supérieur..., 2016).

Dini təhsilin yaxşı nümunəsi Avropa ölkələrində geniş yayılmış Quran məktəbləridir. Burada Quran məktəbləri əsasən məscidlər tərəfindən təşkil edilir. Onlar adi dərs saatlarından sonra və ya bayram günlərində uşaqlara dini dərslər təklif edirlər. Məsələn, Hollandiyadakı etnik türk və mərakeşli tələbələrin demək olar ki, yarısı məktəbdən sonra yerli məscidlərdə Quran dərslərində iştirak edir. Hollandiyada yerləşən "Brede İslam Məktəbində həftədə iki dəfə 75 dəqiqəlik dini dərs və həftədə bir dəfə Quran oxuma dərsi keçirilir" (Genç, 2012, s. 374).

Belə təhsil mərkəzləri demək olar ki, bütün dini qruplar tərəfindən yaradılmışdır, məsələn, Şimali İrlandiyada oxşar qeyri-rəsmi təlimlər katoliklər və protestantlar tərəfindən həyata keçirilir. Dini maarifləndirmənin əsas vəzifəsi dünyagörüşü, dini və milli tolerantlıq tərbiyəsidir. Sovet qanunvericiliyi dini təlimlərin yalnız dini təhsil müəssisələrində tədrisinin mümkünlüyünü müəyyən edirdi və dini mərkəzlərə, icmalara, eyni zamanda din xadimlərinə dini tədris etmək üçün dərnəklər, qruplar və yığıncaqlar təşkil etməyi qadağan etdi (Ufimtseva, 2016, s. 289).

Din fənni Almaniya Federativ Respublikasının bütün ibtidai və orta məktəb şagirdləri üçün məcburidir, keçmiş Almaniya Demokratik Respublikasının federal əyalətlərində din dərsləri yox idi, lakin bir qayda olaraq din tədris olunurdu. Din fənni müəllimləri digər fənlərin tələblərinə uyğun akademik səviyyəyə malik olmalıdırlar, burada ilahiyyat və ya din sahəsində təhsil tələb olunur və dövlət onların maaşını ödəyir. Burada əhalinin yarısı katolik, digər yarısı isə protestant olduğu üçün tədris olunan dinin məzmunu dini icmanın nümayəndələri ilə regional hökumətlər arasında razılaşdırılır. Bəzi əyalətlərdə isə İslam dini türkcə fənninin bir hissəsi kimi tədris olunur, bu zaman dini təhsilin məzmunu Almaniya hökuməti ilə Türkiyə hökuməti arasında müəyyən edilir.

İspaniyada təhsil qanunlarında aparılan dəyişikliklərlə görə zaman ərzində dinin tədrisinə fərqli münasibət göstərilib. Fransada dünyəvi dövlət olduğu üçün din müəllimlərinə pul ödənilmir. Özəl məktəblər öz proqramlarına din mövzusunu daxil edə bilər, lakin Fransada ibtidai və orta məktəb şagirdlərinin çoxu dövlət məktəblərində və liseylərdə oxuyur. Dövlət tələbələrə öz kilsələrində, məscidlərində, sinaqoqlarında dini təhsil almağa icazə verir, yalnız Elzas və Lotaringiyanın dövlət məktəblərində katoliklər, protestantlar və yəhudilər dini dərsləri arasında seçim edə bilərlər.

Fransa hüququnda dini təhsil məsələsi konstitusiya dəyərinə malikdir. Bununla belə, dünyəvilik prinsipi dövlət orqanlarının təhsil sistemi daxilində dini biliklərin tədrisinə mane olmur. Dövlətin bütün səviyyələrdə dünyəvi təhsilin təmin edilməsinə cavabdeh olması dövlət təhsil müəssisələrində

dini ibadətlərin və ya fəaliyyətlərin qadağan edilməsini tələb etmir. Dövlət ibtidai məktəbləri dini etiqad azadlığına görə bazar günü istisna olmaqla həftədə bir gün bağlanır. Bu gün valideynlər övladlarının məktəb binasından kənarda dini dərslər almasını təşkil edə bilərlər (Davie, 2000, pp. 87-88).

İtaliyada fənn müəllimləri yepiskoplar tərəfindən təyin edilir və dövlət tərəfindən onlara vəsait ödənilir. İtaliyada katolik dini təhsili ibtidai və orta məktəbdə oxuyan (6-19 yaş) tələbələr üçün nəzərdə tutulub, lakin tələbələr dini dərslərdən imtina edə və əvəzində alternativ kurslarda iştirak edə bilərlər. İtaliyada Xristianlığın üstünlük təşkil etməsi və dini inancların artan müxtəlifliyi ilə xarakterizə olunur. İtaliyadakı xristianların əksəriyyəti baş qərargahı Vatikanda (Roma) yerləşən katolikliyə sadiqdir. 1984-cü ildə İtaliyada dövlət məktəblərində din dərslərinin seçmə fənn qismində tədrisi ilə bağlı qanun qəbul edildi. Rəsmi olaraq "Katolik dini təhsili" adlandırılan seçmə din kursları uşaq bağçalarında həftədə 1,5 saat, ibtidai məktəblərdə həftədə 2 saat, orta və liseylərdə isə həftədə 1 saat verilir. Katolik məktəblərində əlavə bir saat din dərsi verilir. Tələbələr hər tədris ilinin əvvəlində din dərslərindən azad olmağı seçə bilərlər. Məktəblər bu tələbələrə alternativ seçmə kurslar təklif etməyə borcludurlar.

Portuqaliyada din könüllü istəyə bağlı bir fənndir və dərs keçmək istəməyən tələbələr üçün alternativ fənn olmadığı üçün dərs saatlarının sonunda dini biliklər tədris olunur. Portuqaliya Respublikası kilsə və dövlətin rəsmi olaraq ayrıldığı dünyəvi ölkədir. Ölkə Konstitusiyası vicdan, din və ibadət azadlığını toxunulmaz elan edir, həmçinin təbliğat azadlığına təminat verir. Konstitusiya həm də dinə görə ayrı-seçkiliyi qadağan edir.

Hollandiyada tolerantlıq ənənəsinə uyğun olaraq, təhsil azadlığı tanınır, bu fakt da hər kəsə istədikləri dini oriyentasiyada və ya dünyəvi prinsiplər əsasında təhsil almağa imkan verir. Bütün məktəblərdən əksər dinlər haqqında bilikləri ehtiva edən etika fənninin tədrisi tələb olunur. Hollandiyadakı dini məktəblər protestant, katolik, ekumenik, islam və yəhudi inancları əsasında qurulur. Bu məktəblərin bir çoxu öz dini baxışlarında mötədildir, bu dini məktəblər fərqli dinə mənsub olan və ya heç bir dinə malik olmayan uşaqları da qəbul edir.

Dövlət kilsələrinin olduğu Avropa ölkələrində dövlət dini qurumları rəsmi şəkildə dəstəkləyir. Məsələn, "İngiltərədə dini məktəblər dövlət tərəfindən maliyyələşdirilir və dövlət məktəbləri din dərsləri verməyə borcludur" (Fox, 2008, p. 120). Böyük Britaniyanı təşkil edən dörd ölkənin hər birində dini təlim fərqli şəkildə qurulub. Şimali İrlandiyada dini təhsil məcburi fənndir. Şotlandiyada dini təlim əxlaqla birgə tədris olunan məcburi fənndir. İngiltərə və Şimali İrlandiyada olduğu kimi, valideynlərin də övladlarının dərslərə getməsinə etiraz etmək hüququ var. Uelsdə dini təlimlər xristianlığın və dünyanın digər əsas dinlərinin öyrənilməsini əhatə edir. İngiltərə, Şimali İrlandiya və Şotlandiyadan fərqli olaraq, Uelsdə valideynlərin övladlarının məktəbə getməsinə etiraz etmək hüququ yoxdur.

Dövlət məktəblərində dinlərin tədrisi demək olar ki, bütün digər Avropa ölkələrində mövcuddur (yalnız Fransa, Çexiya, Sloveniya və Albaniyada yoxdur). Ümumiyyətlə, "konfessional sistem" onunla xarakterizə olunur ki, dini təhsilə müəllimlərin hazırlanması və seçilməsinə, proqramın tərtibinə və mənbələrin seçilməsinə cavabdeh olan dini təşkilatlar (Avstriya, Belçika, Kipr, İspaniya, Yunanıstan, Malta, Polşa, Portuqaliya, Çexiya) nəzarət edir. Din müəllimləri dini qurumlar tərəfindən sertifikatlaşdırılır. Bəzi ölkələrdə (Macarıstan, İtaliya, Latviya, Litva, Almaniya, Finlandiya) dövlət və dini qurumlar dini maarifləndirmə işində əməkdaşlıq edirlər. Əksər hallarda din seçmə fənndir. Məcburi fənn olduğu yerlərdə məktəblilərin ondan imtina etmək hüququ vardır (Almaniya, Avstriya, Kipr, Finlandiya, Yunanıstan, Malta, Slovakiya, Danimarka) (Willaime, 2007, p. 60).

İslamda təhsil

İslam təhsili İslamı dinini və müsəlmanların həyat tərzini öyrədir. İslam təhsilinin mənbəyi "Quran"dır. Müsəlmanlar üçün "Quran"ı, İslamın əsas inanclarını və Məhəmməd peyğəmbərin şəriətini öyrənmək olduqca vacib məsələdir. Peyğəmbərin ardıcılları Məkkədə İslamı və "Quranı" öyrənmək üçün məscidlərə toplaşırdılar. Məhəmməd peyğəmbər göndərdiyi ilk müəllimlərə xilafət ərazisində və onun hüdudlarından kənarda insanlara dini təhsil verməklə bağlı göstəriş verdi. İslamın ilk dövrlərində İslam dinin öyrədən müəllimlərin sayı sürətlə artdı. "İslam dünyasında bir qayda olaraq dini mərkəzlər təhsil müəssisələri üzərində qurulub" (Rövşənoğlu, 2019).

VII əsrinin sonlarında demək olar ki, xilafətin bütün yaşayış məntəqələrində Peyğəmbərin təlimlərinin davam etməsi və İslamın əxlaq normalarına düzgün riayət edilməsi üçün ən azı bir dini məktəb var idi. Sonrakı dövrlərdə İslam təhsili getdikcə daha çox yayıldı və dini təhsil böyük əhəmiyyət qazandı. Valideynlər öz övladlarına dini təhsil verməyi özlərinə mənəvi borc hesab edirdilər.

İslam təhsilinin ilkin formalaşması məscidlərdə sxolastik təhsildən qaynaqlanır. İslamın əvvəlki dövrlərindən, təxminən VII əsrdən etibarən X əsrə qədər məscid eyni zamanda məktəb funkisiyasını da yerinə yetiriridi və müəllimlərin əksəriyyəti din alimləri idi. XI əsrdən sonra dini təhsil təbiət elmləri və humanitar elm sahələrini də əhatə etdi. Bu proses İslamın yayılmasına, müsəlman xalqının ümumi keyfiyyətinin yüksəldilməsinə, müsəlman cəmiyyətinin tərəqqi və inkişafına zəmanət verirdi.

İslam dini fərdlərin mənəvi məsuliyyətinə böyük önəm verir. Müsəlmanlar üçün ən yüksək mənəvi məsuliyyət modeli Məhəmməd peyğəmbərdir. Dini təhsilin son məqsədi müsəlmanları bu məsuliyyəti düzgün yerinə yetirməyə hazırlamaqdır. İslam təhsili müsəlmanlara İslam dininin əsas prinsiplərini və əməllərini öyrətdiyi üçün vacib əhəmiyyət kəsb edir. Bunlara şəxsi davranışın əxlaqi kodeksləri və İslam inancları daxildir. Tarixən İslam dinin tədrisində mədrəslər böyük rol oynamışdır. "Mədrəsələrin təsisində əvvəl təhsil halqaları mədrəsələrin yanında üləma evləri, kitabxana və s. yerlərdə də qurulurdu. Yenə mədrəsə kimi təhsil verən müəsisələr arasında hanga, təkkə və xəstəxanalar də sayıla bilər" (Qənbərova, 2024, s. 6).

Tarixən İslamın yayılması və inkişafında təhsilə önəm vermək və biliyi təbliğ etmək ideyası həmişə çox mühüm yer tutur. İslam təlimlərində təhsilin və biliyin vacibliyi ilə bağlı çoxsaylı göstərişlər vardır. İslam təhsil düşüncəsi "Quran" və hədislərə istinad edən İslam dəyərlərinə və metodologiyalarına əsaslanır. İslamda təhsilin vəzifəsi iman tərbiyəsi, elm öyrətmək və insanlarla Allah arasındakı, fərdlərlə cəmiyyət arasında koordinasiyanı aydınlaşdırmağa öyrətməkdir.

Mədrəsə müsəlman ölkələrində orta və ali təhsil verilən təhsil müəssisələrinin ümumi adıdır. Mədrəsələrdə dərs deyən müəllimlərə "müdərris", onun köməkçilərinə "müid", burada tədris alanlara isə "danışmənd", "softa" və ya "tələbə" deyilir. Mədrəsələr və onların kitabxanaları adətən şəxsi ianə (vəqf) hesabına mövcud olurdu. İlk mədrəsələrdə adətən yaşayış yerləri olmurdu, lakin XI əsrin ikinci yarısında müəllim və tələbələr üçün otaqlar meydana çıxdı. Mədrəsələrdə "Quran"ın tilavəti (təcvid) və onun təfsiri (təfsir), İslam ənənəsi (hədis) və tarixi, ərəb dili və ədəbiyyatı, İslam hüququ (fiqh), İslam əqidəsi (əqidə və kəlam), bəzi tətbiqi fənlər (riyaziyyat, astronomiya, tibb) tədris olunurdu. Mədrəsələrdə verilən təhsil təkcə dini biliklərdən ibarət deyildi, "tədris, əsasən, ərəb dilində aparılır, dini biliklərlə yanaşı, təbabət (tibb), dil, fəlsəfə, hüquq, məntiq, riyaziyyat və s. dünyəvi elmlər öyrədilirdi" (Niyazov, 2018, s. 88). SSRİ-nin dağılmasından sonra MDB ölkələrində mədrəsələr şəbəkəsi bərpa olunmağa başladı. Müsəlman təhsil sistemi əsrlər boyu inkişaf etmiş bir sistem idi və orta əsrlər Qərbi Avropada kollec sisteminin inkişafına təsir göstərmişdir. Lakin sonrakı mədrəsələr Avropa təhsil sistemi ilə rəqabət apara bilmədi. Müasir dövrdə mədrəsələr yararsız vəziyyətə düşüb.

Nəticə

Din və təhsil arasındakı əlaqə çox vaxt mübahisə mövzusuna çevrilmişdir. Ümumiyyətlə, din cəmiyyət və mədəniyyət, təhsil və tərbiyə ilə qırılmaz şəkildə bağlıdır. Demokratik və plüralist bir cəmiyyətdə din və təhsil arasındakı əlaqə çox vaxt mübahisələrə səbəb ola bilər. Dini təhsilin yaranması və inkişafı qədim Şərq dövlətlərində (Babil, Misir və s.) dinin təşəkkül tarixi ilə və sistematik təhsilini tələb edən teoloji sistemlərin mürəkkəbliyi ilə bağlıdır. Dini təhsilin ən böyük inkişafı feodalizm dövründə, təhsilin dinin nəzarətində olduğu, tədrisin əsasən teoloji xarakter daşıdığı dövrdə baş verdi. Dini təhsildə müqəddəs, kanonik kitabların öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Nəticə etibarı ilə dinin təhsildə rolu mürəkkəb və mübahisəli mövzu olaraq qalır. SSRİ-də 5 fevral 1918-ci ildə qəbul edilən "Kilsənin dövlətdən, məktəbin kilsədən ayrılması haqqında" dekretə (Məmmədov, 2018, s. 29) uyğun olaraq, bütün dövlət və ictimai təhsil müəssisələrində dini inancların öyrənilməsi qadağan edilmişdi.

Formal olaraq vətəndaşlar dini yalnız fərdi şəkildə öyrənə bilərdilər. Müstəqillik əldə etdikdən sonra isə bu vəziyyət dəyişdi. Hazırda ölkəmizdə dini təhsil verən ali məktəblər içərisində Azərbaycan İlahiyyat İnstitutunun xüsusi yeri vardır. Dini tədrisin təsiri müsbət ola bilər, dügün təşkil edilən din tədrisi mənəvi inkişafı və eləcə də əxlaqi tərbiyəni təşviq edir. Dini təhsil dünyəvi prinsiplərə və inancların müxtəlifliyinə hörmət tələb edir, bu baxımdan da dini təhsil tolerant çərçivədə aparılmalıdır.

Ümumiyyətlə, dinin tədrisi din haqqında obyektiv və təsdiqlənmiş biliklərin əldə edilməsi ilə bağlıdır.

Ədəbiyyat

1. Bilici, M. V. (2008). *Müasir fəzilət etikası kontekstində din və əxlaq arasındakı əlaqə.* Magistrlik dissertasiyası.
2. Gənc, M. F. (2012). Hollandiya məktəblərində və İslam məktəblərində müsəlman uşaqların dini təhsili. *Atatürk Universiteti İlahiyyat Fakültəsi Jurnalı*, 38, 361-378.
3. Göçeri, Y. D. D. N. (2002). Dini Tərbiyə və Dini Tərbiyə Konsepsiyalarına dair Təhlil Essesi. *Çukurova Universiteti İlahiyyat Fakültəsi Jurnalı* (ÇÜİFD), 2(1), 49.
4. Keyifli, Ş. (2013). Təhsil və Din Təhsili. *Çukurova Universiteti İlahiyyat Fakültəsi Jurnalı*, 13(2), 103-126.
5. Klavuz, A. S. (2018). *İslam etiqadlarına və ilahiyyata əsas xətlərlə giriş*. Ensar Neşriyat.
6. Kurt, A. O., & Aykit, D. A. (2021). *Dinlərin tarixi.* Anadolu İmam Hatip Liseyi.
7. Qurbanov, Ə. (2001, 12 aprel). Müstəqil Azərbaycanda islamgünaslığın aktual problemləri. *Respublika*, 4.
8. Qənbərova G. (2024, 10 fevral). *İslam tarixində tərbiyyə və təhsil ocaqları – mədrəsələr*. https://www.researchgate.net/publication/378077714_ıslam_tarıxınd_trbıyy_v_thsıl_ocaqları-mdrslr
9. Məlikov, Ə. (2024). *Qərb fəlsəfəsində din və əxlaq münasibətlərindəki nəzəriyyələr*. International Turkic World Congress on Social, Humanities, Administrative and Educational Sciences Conference. Baku, 11th to 13th January.
10. Məmmədov, C. (2018). *Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik*.
11. Məmmədov, Z. (2006). *Azərbaycan fəlsəfəsi tarixi*. "Şərq-Qərb".
12. Mark Halstead, J. (2013). Dini təhsil. Tərcümə edən: Abdulkadir Çekin. *Humanitar və Sosial Elmlər Araşdırma Jurnalı. İnsan və Sosial Elm Araşdırmaları Jurnalı*, 2(3), 2(3), 136-150.
13. Niyazov, Ə. (2018). Azərbaycanda din tədrisi təcrübəsi: "Zübdətul-İslam" və "Şəraiul-İslam" əsərləri nümunəsi əsasında. *"Dini araşdırmalar" jurnalı*, 1, 87-100.
14. Rövşənoğlu K. (2019). *Azərbaycanda dini təhsil* (Mövcud vəziyyət və təcrübə). 25.12.2019. https://stm.az/az/news/447/azerbaycanda-dini-tehsil-movcud-veziyyet-ve-tecrube
15. Səmədov, E. (2009). *Azərbaycanda din-dövlət münasibətləri və dini təhsilin formalaşması*.
16. Schreiner, P. (2009). Avropa Kontekstində Dini Təhsil. Tərcümə edən: Adem Korukçu. *Dini Araşdırmalar*, 12, 34, 151-160.
17. Usta S. (2020). *Dinler nasıl ortaya çıktı, nasıl dönüştü*. https://www.odatv.com/yazarlar/sadik-usta/dinler-nasil-ortaya-cikti-nasil-donustu-177676
18. Yıldız, İ. (2009). Dini mədəniyyət və etika kursu: Məcburi qalmalıdır, yoxsa isteğe bağlı? Yüzüncü Yıl Universiteti İlahiyyat Fakültəsi. *VAN*, 2(2), 243-256.
19. Davie, G. (2000). *Religion in Modem Europe*. Oxford University Press.
20. Fox, J. (2008). *A World Survey of Religion and the State*. Cambridge University Press.
21. Hull John, M. (2012). *The Contribution of Religious Education to Religious Freedom: A Global Perspective.* Accessed June 20, 2016. https://www.iarf.net/REBooklet/Hull.htm
22. Kruglov, A. A. (2015). *Istoriya religiy: posobiye*. BGU.
23. *L'enseignement supérieur en théologie et sciences des religions.* (2016). https://eurel.info/spip.php?article1011&lang=fr

24. Ufimtseva, Ye. I. (2016). Religioznoye obrazovaniye: osnovnyye podkhody k opredeleniyu i tipologizatsii. Izv. Sarat. Un-ta. Nov. ser. Ser. Sotsiologiya. *Politologiya*, 16(3), 289-296.
25. Willaime, J. P. (2007). Different Models for Religion and Education in Europe. Religion and Education in Europe: Developments, Contexts and Debates. *Waxmann*, 57-66.

Daxil oldu: 20.09.2024
Baxışa göndərildi: 13.11.2024
Təsdiq edildi: 01.01.2025
Çap olundu: 22.01.2025

https://doi.org/10.36719/2663-4619/110/67-70

Ali Aliyev
IMC University of Applied Sciences Krems
bachelors
https://orcid.org/0009-0005-1243-8637
ali.researcher@outlook.com

AI-Driven Optimization in Project Management and Marketing: A Case Study of Airbnb Using Generative Adversarial Networks

Abstract

With an emphasis on AI-driven optimization to improve business performance, this study explores the use of Generative Adversarial Networks (GANs) in project management. This study shows how artificial intelligence (AI) can significantly improve project outcomes by using GANs to create synthetic data, model intricate project scenarios, and optimize important performance metrics like booking rates, revenue per available room (RevPAR), and average daily rates (ADR). Using Airbnb as an example, the analysis shows that a 4 % increase in occupancy would improve RevPAR by $4.22 per room, while a 5% increase in booking rates might result in an extra $3.41 billion in income.

This study highlights the importance of GANs in improving project management decision-making, resource allocation, and risk management. It also emphasizes how scalable GAN-powered solutions are for improving marketing tactics. In the end, GANs give businesses a strong tool to boost consumer engagement, increase operational efficiency, and boost competitiveness in ever-changing markets.

Keywords: *generative adversarial networks (GANs), project management, AI-driven optimization, business performance, revenue per available room (RevPAR), marketing strategies*

Əli Əliyev
IMC Tətbiqi Elmlər Universiteti Krems
bakalavr
https://orcid.org/0009-0005-1243-8637
ali.researcher@outlook.com

Layihələrin idarə edilməsi və marketinqdə süni intellektə əsaslanan optimallaşdırma: generativ rəqabət şəbəkələrindən istifadə edərək Airbnb nümunəsi

Xülasə

Bu araşdırma işin səmərəliliyini artırmaq üçün süni intellektə əsaslanan optimallaşdırmaya xüsusi diqqət yetirərək, layihələrin idarə edilməsində Generativ Rəqabət Şəbəkələrindən tətbiqini araşdırır. Sintetik məlumatların yaradılması, mürəkkəb layihə ssenarilərinin modelləşdirilməsi və rezervasiya dərəcələri, əlverişli otaq gəliri (RevPAR) və orta günlük dərəcələr (ADR) kimi əsas performans göstəricilərinin optimallaşdırılması üçün GAN-dan istifadə edərək, bu tədqiqat layihənin nəticələrində əhəmiyyətli təkmilləşdirmələrin təmin edilməsində süni intellektin transformator potensialını nümayiş etdirir. Bir mövzu araşdırması olaraq Airbnb istifadə edərək, araşdırma göstərir ki, 5 % rezervasiya tariflərinin artması 3,41 milyard dollar əlavə gəlir gətirə bilər, 4 % doldurma artımı isə bir otaq üçün 4,22 dollar RevPAR artıracaq.

Bu araşdırma GAN-ın qərar qəbul etmə, resursların bölüşdürülməsi və layihələrin idarə edilməsi çərçivəsində risklərin idarə edilməsi üçün dəyərini vurğulayır. Bundan əlavə, marketinq strategiyalarının optimallaşdırılması üçün GAN əsaslı həllərin miqyaslı olmasını vurğulayır. Nəticədə, GAN təşkilatlara əməliyyat səmərəliliyini artırmaq, müştərilərlə qarşılıqlı əlaqəni

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

yaxşılaşdırmaq və dinamik bazarlarda rəqabət qabiliyyətini artırmaq üçün güclü bir vasitə təqdim edir.

Açar sözlər: *yaradıcı rəqabət şəbəkələri (GAN), layihələrin idarə edilməsi, süni intellektə əsaslanan optimallaşdırma, biznes səmərəliliyi, əlverişli otaq gəliri (RevPAR), marketinq strategiyaları*

Introduction

Significant progress has been fueled by the incorporation of Artificial Intelligence (AI) into marketing and project management. According to the Project Management Institute (2023), 82 % of firms anticipate that AI will have a significant impact on project management within five years, and 21 % of organizations currently use AI regularly. At a compound annual growth rate (CAGR) of 16.7 %, the market for AI in project management is expected to reach USD 11.2 billion by 2033 from USD 2.4 billion in 2023 (Market.us, 2024). According to Rebel's Guide to Project Management (2024), AI has the potential to improve project delivery by 41 % and project management abilities by 28 %. There are still issues, though, since 34 % of projects experience scope creep and 35 % of projects fail or go over budget (Tandfonline, 2024).

The use of advanced simulations to optimize resources and simulate scenarios for risk assessment is one way that technologies such as Generative Adversarial Networks (GANs) contribute (Goodfellow et al., 2014; Rebel's Guide to Project Management, 2024).

AI usage in marketing is also progressing, with 43 % of companies exploring and 32 % completely using it (MarTech, 2024). According to Statista (2024), the market for AI in marketing is anticipated to generate USD 36 billion by 2024. In order to create hyper-realistic content for customized campaigns and create synthetic customer profiles, GANs help marketers increase engagement and loyalty (Influencer Marketing Hub, 2024). Nevertheless, 70 % of businesses report technical problems, and AI's efficacy is impacted by consumer concerns (Business Insider, 2024).

Despite obstacles, artificial intelligence (AI), and GANs in particular, has revolutionary potential for marketing and project management, increasing productivity, creativity, and competitiveness (SurveyMonkey, 2024).

Research

By improving property descriptions, Generative Adversarial Networks (GANs) have the potential to revolutionize Airbnb. Improved descriptions can result in quantifiable revenue increase by increasing booking rates (BR), average daily rates (ADR), and revenue per available room (RevPAR). In this analysis of Airbnb's 2023 performance indicators, GANs are used to show measurable gains using accurate data (Statista, 2024).

Airbnb’s 2023 Performance Metrics

1. Annual Revenue: $9.5 billion (18 % growth from 2022) (Airbnb, 2023a)
2. Active Listings: 7.6 million (17 % YoY growth) (Airbnb, 2023b)
3. Bookings: 440 million (14 % YoY growth) (Business of Apps, 2023)
4. Average Daily Rate (ADR): $155 (Airbnb, 2023a)
5. Occupancy Rate: 68 % (Statista, 2023)

1. Booking Rate (BR)

Formula: $BR = Bookings/Views \times 100$

Initial BR For a property with 800 views and 40 bookings: $BR = 40/800 \times 100 = 5\ \%$

With GAN Optimization (5 % increase):

New $BR = BR + (BR \times 0.05) = 5\ \% + (5\ \% \times 0.05) = 5.25\ \%$

For the same property with 800 views:

New Bookings = Views× New BR/100= 800× 5.25/100= 42 bookings

2. Average Daily Rate (ADR)

Formula: Total Revenue=Bookings×ADR

Initial Revenue: Total Revenue=440 million bookings×$155=$68.2 billion

With GAN Optimization (5 % increase in bookings):

New Bookings=440 million×1.05=462 million bookings

New Total Revenue=462 million bookings×$155=$71.61 billion
Revenue Growth=$71.61 billion−$68.2 billion=$3.41 billion
3. Revenue per Available Room (RevPAR)
Formula: RevPAR=ADR×Occupancy Rate
Initial RevPAR: RevPAR=$155×68 %=$155×0.68=$105.40
With GAN Optimization (4 % increase in occupancy rate):
New Occupancy Rate=68 %+(68 %×0.04)=70.72 %
New RevPAR=$155×70.72 %=$155×0.7072=$109.62
Increase in RevPAR=$109.62−$105.40=$4.22

Conclusion

Airbnb has a big chance of improving performance and user happiness by optimizing property descriptions using Generative Adversarial Networks (GANs). An extra $3.41 billion in income might be generated by increasing annual bookings from 440 million to 462 million with a conservative 5 % increase in booking rates. Additionally, hosts would receive higher financial returns as the Revenue per Available Room (RevPAR) increased from $105.40 to $109.62.

Airbnb can establish itself as a pioneer in AI-powered innovation in the hospitality industry by implementing GANs. However, ethical issues, smooth integration, and high-quality training data are necessary for this achievement. In conclusion, GAN-optimized descriptions have the potential to boost Airbnb's competitive edge in the market, increase growth, and enhance customer engagement.

Declarations

The manuscript has not been submitted to any other journal or conference.

Study Limitations

There are no limitations that could affect the results of the study.

Acknowledgments

References

1. Airbnb. (2023a). *Q4 2023 earnings report.* https://investors.airbnb.com/
2. Airbnb. (2023b). *Annual report.* https://investors.airbnb.com/
3. AltexSoft. (n.d.). *ADR and RevPAR metrics.* https://www.altexsoft.com/
4. Business Insider. (2024, August). *Consumers don't like AI, and it's become a big problem for advertisers*. https://www.businessinsider.com/ai-has-marketing-problem-people-dont-like-hearing-about-it-2024-8
5. Business of Apps. (2023). *Airbnb bookings data*. https://www.businessofapps.com/
6. Goodfellow, I., Pouget-Abadie, J., Mirza, M., Xu, B., Warde-Farley, D., & Ozair, S. (2014). *Generative Adversarial Nets. Advances in Neural Information Processing Systems*, 27.
7. Influencer Marketing Hub. (2024). *AI and marketing: What the stats show*. https://martech.org/ai-and-marketing-what-the-stats-show/
8. Market.us. (2024). *AI in Project Management Market to hit USD 11.2 Bn by 2033*. https://scoop.market.us/ai-in-project-management-market-news/
9. MarTech. (2024). *AI and marketing: What the stats show*.
10. https://martech.org/ai-and-marketing-what-the-stats-show/
11. Project Management Institute. (2023). *Shaping the Future of Project Management With AI*.
12. https://www.pmi.org/learning/thought-leadership/ai-impact/shaping-the-future-of-project-management-with-ai
13. Rebel's Guide to Project Management. (2024). *AI in Project Management Statistics*. https://rebelsguidetopm.com/ai-in-project-management-statistics/
14. Statista. (2023). *Global occupancy rates*. https://www.statista.com/
15. Statista. (2024). *Artificial intelligence (AI) use in marketing - statistics & facts.* https://www.statista.com/topics/5017/ai-use-in-marketing/

16. SurveyMonkey. (2024). *AI in marketing statistics: how marketers use AI in 2025.* https://www.surveymonkey.com/mp/ai-marketing-statistics/
17. Tandfonline. (2024). *The role of artificial intelligence in project management*. https://www.tandfonline.com/doi/full/10.1080/16258312.2024.2384823

Received: 15.09.2024
Revised: 09.11.2024
Accepted: 23.12.2024
Published: 22.01.2025

TƏBİƏT ELMLƏRİ

NATURAL SCIENCES

https://doi.org/10.36719/2663-4619/110/71-74

Vəfa Nəsirova
Azərbaycan Tibb Universiteti
tibb üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0000-0002-9848-3455
vafaiskenderli@mail.ru
Sevinc Əhmədova
Azərbaycan Tibb Universiteti
tibb üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0000-0002-1700-7802
sevinc-ahmedova-84@mail.ru

Gözün mikozlarının diaqnostikasında polimeraza zəncirvari reaksiyanın istifadəsi

Xülasə

Məqalədə gözün mikozlarının diaqnostikasında polimeraza zəncirvari reaksiyanın istifadəsinə dair qısa məlumatlar verilmiş və son illər bu problemin öyrənilməsi üzrə əldə edilən uğurlar və təcrübə paylaşılmışdır. Polimeraza zəncirvari reaksiya (PZR) hazırda görmə orqanının göbələk etiologiyalı zədələnməsinin diaqnostikası üçün həssas və spesifik test hesab olunur. Hal-hazırda, birbaşa mikroskopik müayinə və buynuz qişa materialının kultivasiyası diaqnoz üçün "qızıl standartdır". Bununla belə, az sayda və ya canlı olmayan göbələkləri aşkar etmək üçün sürətli, həssas, lakin xüsusi testlər tələb olunur. PCR mikotik keratit üçün diaqnostik vasitə kimi istifadə edildikdə bir çox potensial üstünlüklərə malikdirGörmə orqanının mikotik zədələnməsinin aşkar edilmiş klinik xüsusiyyətləri gözdə inkişaf edən spesifik prosesin klinik diaqnostikasının vaxtında aparılması zamanı oftalmoloqlar üçün mühüm təcrübi əhəmiyyət kəsb edir. Prosesin lokaliza-siyasını və göbələklərin növlərini – gözlərin mikozunun törədicilərini nəzərə alan oftalmomikozun kompleks terapiyasının işlənib hazırlanmış alqoritmi xəstəliyin residivlərinin sayını aşağı salmağa, gözlərin mikozu olan xəstələrin müalicə müddətlərini qısaltmağa və qeyri-qənaətbəxş nəticələrin sayını azaltmağa imkan verəcəkdir.

Açar sözlər: *gözün mikozları, polimeraza zəncirvari reaksiya, diaqnostika, etioloji struktur, göbələk keratiti*

Vafa Nasirova
Azerbaijan Medical University
Doctor of Philosophy in Medicine
https://orcid.org/ 0000-0002-9848-3455
vafaiskenderli@mail.ru
Sevinj Ahmadova
Azerbaijan Medical University
Doctor of Philosophy in Medicine
https://orcid.org/ 0000-0002-1700-7802
sevinc-ahmedova-84@mail.ru

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Use of Polymerase Chain Reaction in the Diagnosis of Eye Mycoses

Abstract

The article provides brief information on the use of polymerase chain reaction in the diagnostics of ocular mycoses and shares the successes and experience gained in studying this problem in recent years. Polymerase chain reaction (PCR) is currently considered a sensitive and specific test for the diagnosis of fungal etiological lesions of the organ of vision. Currently, direct microscopic examination and cultivation of corneal material are the "gold standard" for diagnosis. However, rapid, sensitive, but specific tests are required to detect small numbers of or non-viable fungi. PCR has many potential advantages when used as a diagnostic tool for mycotic keratitis. The detected clinical features of mycotic lesions of the organ of vision are of great practical importance for ophthalmologists in the timely clinical diagnosis of a specific process developing in the eye. The developed algorithm of complex therapy of ophthalmomycosis, which takes into account the localization of the process and the types of fungi - the causative agents of mycosis of the eyes, will allow to reduce the number of relapses of the disease, shorten the treatment period of patients with mycosis of the eyes, and reduce the number of unsatisfactory outcomes.

Keywords: *ocular mycoses, polymerase chain reaction, diagnostics, etiological structure, fungal keratitis*

Giriş

Polimeraza zəncirvari reaksiya (PZR) hazırda görmə orqanının göbələk etiologiyalı zədələnməsinin diaqnostikası üçün həssas və spesifik test hesab olunur (Ahmadikia, 2021, p. 698). Müxtəlif tədqiqatlarda göbələk mənşəli keratitə şübhə yarandığı hallarda PZR ənənəvi diaqnostika metodları ilə müqayisə edilmişdir. PZR çox yüksək müsbət aşkar edilmə tezliyinə malikdir, bu, xüsusilə kultural metodun və ya yaxmanın miksrokopiyasının mənfi nəticələrində daha aydın nəzərə çarpır (Ağayev, 2020, p. 136).

Tədqiqat

Vərəm, HİV / AİDS, xroniki obstruktiv ağciyər xəstəliyi, bronxial astma və artan şiş xəstəliklərin pandemik yayılması dünyada patogen mikotik infeksiyalarının aparıcı amilləri sayılır (Brown, 2021, p. 49). Lakin göz mikozları sayında artımın başlıca səbəbi geniş spektrli antibakterial və kortikosteroid dərmanların, immun çatışmazlığı vəziyyətlərinin, uzun müddətli kateterizasiyanın, infeksion proseslərin, yatrogen xəstəliklərin nəzarətsiz istifadəsidir (Fan, 2021, p. 1352). Endemik göbələk infeksiyalarındakı bəzi dəyişikliklər iqlim dəyişikliyi, insan yaşayış yerlərinin genişlənməsi, hərəkət rahatlığı və əhalinin yerdəyişməsi ilə əlaqələndirilə bilər (Gu, 2020, p. 229). Opportunist mikotik infeksiyaları və ya yayılmış endemik göbələk infeksiyaları üçün risk qruplarına transplantasiya olunmuş, təyin olunmuş immunosupressiv dərmanlar və kimyəvi terapevtik maddələr, HİV-ə yoluxmuş xəstələr, erkən doğulmuş uşaqlar, yaşlılar və ağır əməliyyat keçirən xəstələr daxildir (Sitnova, 2023, p. 73). Son bir neçə on ildə göbələk xəstəliklərinin epidemiologiyası çox dəyişsə də, Aspergillus, Candida, Cryptococcus növləri, Pneumocystis jirovecii, Histoplasma capsulatum və Mucormycetes kimi endemik dimorfik göbələklər, ciddi mikotik xəstəliyinin əksər hallarından aktual olan əsas göbələk patogenləri olaraq qalır (Subudhi, 2022, p. 1578). Candida albicans mukoza xəstəliyindən, ən çox allergik göbələk xəstəliklərindən Aspergillus fumigatus və dəri infeksiyalarından Trichophyton rubrum, xüsusilə Trichophyton rubrum'dan məsul olan əsas agentdir (Vaidya, 2022, p. 917).

Beləliklə, gözlərin mikozlarının yaranmasının və inkişafının başlanğıc mərhələlərində erkən diaqnostika və düzgün aparılan müalicə, müntəzəm dəstəkləyici terapiya gələcəkdə belə xəstələrin həyat keyfiyyətini xeyli yaxşılaşdırılmasına imkan verəcəkdir.

Hal-hazırda, birbaşa mikroskopik müayinə və buynuz qişa materialının kultivasiyası diaqnoz üçün "qızıl standartdır" (Wang, 2020, p. 123). Bununla belə, az sayda və ya canlı olmayan göbələkləri aşkar etmək üçün sürətli, həssas, lakin xüsusi testlər tələb olunur. PCR mikotik keratit üçün diaqnostik vasitə kimi istifadə edildikdə bir çox potensial üstünlüklərə malikdir (Watson, 2020, p. 43). Rutin bakterial kultura və həssaslıqdan başqa, buynuz qişanın qırıntıları göbələk

kulturası, kalium hidroksid (KOH) yaş preparatı, Qram boyası və PCR ilə qiymətləndirildi. Buynuz qişa infeksiyalarına səbəb olan bütün göbələklər üçün ümumi olan 28S rRNA ardıcıllığını hədəf alan primerlərdən istifadə etməklə, şərti uyğunlaşdırmaq üçün cüzi dəyişikliklərlə ənənəvi PCR texnikası istifadə edilmişdir (Zakirova, 2021, p. 74).

Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Bakı şəhərinin əhalisi üçün ümumdünya tendensiyası – görmə orqanının patogen göbələklərlə yüksək kontaminasiyası (yoluxması) səciyyəvidir: kişilərin yoluxması 45,2 %, qadınların – 54,8 % hadisə təşkil etmişdir. Digər tendensiya – müayinə olunanların yaşının artması ilə onların görmə orqanlarının patogen göbələklərlə kontaminasiyasının tezliyinin çoxalması səciyyəvidir – 8,9 ± 2,5 % -dən 32,6 ± 4,0 % hadisəyə qədər ($\chi2$=23,07; p<0,001) (Ren, Liu, & Wang, 2020).

Gözlərin mikotik zədələnmələrinin etiologiyası üzrə müayinə olunan pasiyentlərin paylanması məlumatları onları aşağıdakı qaydada sıralamağa imkan verir: göbələk etiologiyası – 71 pasiyentdə (52,6 ± 4,3 %), göbələk-virus etiologiyası – 29 pasiyentdə (21,5 ± 3,6 %; $\chi2$=28,02; p<0,001), göbələk-bakterial etiologiyası – 35 pasiyentdə (25,9 ± 3,8 %; $\chi2$=20,13; p<0,001) aşkar edilmişdir. Təqdim olunmuş məlumatlar gözlərin monogöbələk zədələnməsinin – 52,6 ± 4,3 % pasiyentdə (71 nəfər) və gözlərin qarışıq göbələk-bakterial zədələnməsinin – 25,9 ± 3,8 % pasiyentdə (35 nəfər) üstünlük təşkil etdiyini göstərir. Gözlərin qarışıq göbələk-viruslu zədələnmələri bir qədər az qeydə alınmışdır – 21,5 ± 3,6 % pasiyentdə (29 nəfər). Etiologiyadan asılı olaraq, zədələnmənin simmetrikliyinə görə pasiyentlərin paylanması zamanı aşkar edilmişdir ki, monogöbələk etiologiyalar zamanı birtərəfli proses 29 gözdə (60,4 ± 7,0 %), ikitərəfli proses 84 gözdə (48,2 ± 3,8 %) qeydə alınmışdır. Qarışıq etiologiyalı göbələk-bakterial zədələnmə zamanı birtərəfli proses 11 gözdə (22,9 ± 2,9 %; $\chi2$=71,23; p<0,001), ikitərəfli proses 48 gözdə (27,8 ± 3,4 %; $\chi2$=23,57; p<0,001) qeydə alınmışdır. Qarışıq göbələk-viruslu etiologiyalı birtərəfli proses zamanı 8 gözdə (16,7 ± 5,4 %; $\chi2$=11,51; p<0,01) və ikitərəfli proses 42 gözdə (24,0 ± 3,2 %; $\chi2$=1,85; p>0,05) qeydə alınmışdır. Yaş qruplarından asılı olaraq gözlərin mikozlarının etiologiyası üzrə pasiyentlərin paylanması zamanı aşkar edilmişdir ki, 5-7 yaş qrupunda göbələk-virus etiologiyalı (10,3 ± 5,8 %) və monogöbələk etiologiyalı (8,9 ± 2,5 %) xəstəliklər üstünlük təşkil edir. 8-12 yaş qrupunda əksər hallarda mono-göbələk etiologiyalı (16,9 ± 4,5 %), 11,4 ± 5,5 % halda göbələk-bakterial, 10,3 ± 5,8 % hallarda göbələk-virus etiologiyalı xəstəliklər rast gəlmişdir. 13-18 yaş qrupunda göbələk-bakterial etiologiyalı xəstəliklər üstünlük təşkil etmiş (28,9 ± 7,7 %), monogöbələk etiologiyalı xəstəliklər –18,3 ± 4,6 % halda, göbələk-virus etiologiyalı xəstəliklər 17,2 ± 7,9 % halda rast gəlmişdir. 19-35 yaş qrupunda xəstəlyin hər hansı forması müşahidə edilməmişdir. Onların rast gəlmə tezliyi praktik olaraq eynidir: göbələk-bakterial etiologiyalı – 25,4 ± 7,4 %, mono-göbələk etiologiyalı – 22,5 ± 4,9 % hadisə, göbələk-virus etiologiyalı – 24,1 ± 7,9 % hadisə. 36-55 yaş qrupunda göbələk-virus etiologiyalı xəstəliklər üstünlük təşkil etmiş (38,1 ± 9,0 %), monogöbələk etiologiyalı xəstəliklər – 32,4 ± 5,6 % hadisə, göbələk-bakterial etiologiyalı xəstəliklər isə 28,6 ± 7,7 % hadisə rast gəlmişdir.

Xəstələrin müxtəlif qruplarının xəstəliyin ağırlıq dərəcəsi üzrə öyrənilməsi zamanı müəyyən edilmişdir ki, müayinə olunanların birinci qrupunda (yüngül gedişli) pasiyentlərin sayı 28 nəfər (20,7 ± 3,5 %) təşkil etmişdir. Xəstəliyin orta ağırlıq dərəcəsi olan 2-ci qrupda pasiyentlərin sayı 62 nəfər (45,9 ± 4,3 %) təşkil etmişdir. Üçüncü müayinə qrupunda (ağır gedişli) pasiyentlərin sayı 45 nəfər (33,3 ± 4,1 %; p<0,01) təşkil etmişdir. Müayinə olunan pasiyentlərin qruplarının gözlərin mikozları ilk dəfə aşkar edilmiş 91 pasiyent arasında xəstəliyin ağırlıq dərəcəsinə görə paylanmasının təhlili göstərmişdir ki, yüngül gedişə malik pasiyentlərin sayı 20 nəfər (21,9 ± 4,3 %; p<0,001) olmuşdur. Xəstəliyin orta ağırlıq dərəcəsinə malik gedişi olan müayinə edilən şəxslərin qrupunda pasiyentlərin sayı 43 nəfər (47,3 ± 5,2 %; p<0,001) təşkil etmişdir. Ağır gedişə malik müayinə olunanların üçüncü qrupunda pasiyentlərin sayı 28 nəfər (30,8 ± 4,8 %; p<0,001) təşkil etmişdir. Beləliklə, tədqiqatlarımızın məlumatları əhali arasında gözlərin mikozlarının getdikcə artan tibbi-sosial əhəmiyyət daşıdığını təsdiqləyir. Ona görə də gözlərin mikozları olan xəstələrə xüsusiləşdirilmiş oftalmoloji yardımın göstərilməsi, yəni dəqiq, vaxtında diaqnostikanın, xəstəliyin formalarının və ağırlıq dərəcəsinin hərtərəfli klinik diferensiasiyası, həmçinin kompleks terapiyanın aparılması vacibdir.

Nəticə

Görmə orqanının mikotik zədələnməsinin aşkar edilmiş klinik xüsusiyyətləri gözdə inkişaf edən spesifik prosesin klinik diaqnostikasının vaxtında aparılması zamanı oftalmoloqlar üçün mühüm təcrübi əhəmiyyət kəsb edir. Prosesin lokalizasiyasını və göbələklərin növlərini – gözlərin mikozunun törədicilərini nəzərə alan oftalmomikozun kompleks terapiyasının işlənib hazırlanmış alqoritmi xəstəliyin residivlərinin sayını aşağı salmağa, gözlərin mikozu olan xəstələrin müalicə müddətlərini qısaltmağa və qeyri-qənaətbəxş nəticələrin sayını azaltmağa imkan verəcəkdir. Oftalmomikozun diaqnostikasının və müalicəsinin təklif edilmiş alqoritmini ambulator və stasionar şəraitlərdə tətbiq etmək olar. Bu baxımdan təqdim olunmuş məlumatlarda xəstəliyin diaqnostikasını, müalicəsini və profilaktikasını təkmilləşdirmək üçün oftalmomikozlar zamanı klinik müayinələrin aparılması imkanı dəyərləndirilmişdir.

Ədəbiyyat

1. Ağayev, İ. Ə., Xələfli, X. N., Tağıyeva, F. Ş. (2020). Azərbaycanda infeksion xəstələnmənin yekun göstəricilərinin qiymətləndirilməsi. *Azərbaycan Tibb Jurnalı.*
2. Ahmadikia, K., Aghaei Gharehbolagh, S., & Fallah, B. (2021). Distribution, Prevalence, and Causative Agents of Fungal Keratitis: A Systematic Review and Meta-Analysis (1990 to 2020). *Front Cell Infect. Microbiol.*
3. Brown, L., Leck, A. K., & Gichangi, M. (2021). The global incidence and diagnosis of fungal keratitis. *Lancet Infect. Dis.*
4. Fan, W., Han, H., & Chen, Y. (2021). Antimicrobial nanomedicine for ocular bacterial and fungal infection. *Drug Deliv Transl. Res.*
5. Gu, L., Lin, J., & Wang, Q. (2020). Dimethyl itaconate protects against fungal keratitis by activating the Nrf2/HO-1 signaling pathway. *Immunol. Cell Biol.*
6. Ren, Z., Liu, Q., & Wang, Y. (2020). Diagnostic information Profiling and Evaluation of Causative Fungi of Fungal Keratitis Using High-throughput Internal Transcribed Spacer Sequencing. *Sci. Rep.*
7. Sitnova, A. V., & Svetozarskiy, S. N. (2023). Modern Technologies in Diagnosis of Fungal Keratitis (Review). *Sovrem Tekhnologii Med*.
8. Subudhi, P., Patro, S., & Pattanayak, S. (2022). Toxic non-inflammatory fungal keratitis. *Indian J. Ophthalmol.*
9. Vaidya, N. S., Epstein R. H., & Majmudar, P. A. (2022). Fungal Infectious Interface Keratitis Presenting 2 Years After Descemet Membrane Endothelial Keratoplasty. *Cornea.*
10. Wang, Y., Chen, H., & Xia, T. (2020). Characterization of fungal microbiota on normal ocular surface of humans. *Clin. Microbiol Infect.*
11. Watson, S. L., Cabrera-Aguas, M., & Keay, L. (2020). The clinical and microbiological features and outcomes of fungal keratitis over 9 years in Sydney. *Mycoses.*
12. Zakirova, G. Z. (2021). Gribkovyi keratit, assotsiirovannyi s kontaktnoi korrektsiei (klinicheskoe nablyudenie) [Fungal keratitis associated with the use of contact lenses (clinical case)]. *Vestn. Oftalmol.*

Daxil oldu: 10.09.2024
Baxışa göndərildi: 08.11.2024
Təsdiq edildi: 20.12.2024
Çap olundu: 22.01.2025

https://doi.org/10.36719/2663-4619/110/75-80

Fəridə Heydərova
V. Y. Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
https://orcid.org/0009-0006-0134-9310
fheyderova@inbox.ru
Gülşən Həsənova
V. Y. Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
https://orcid.org/0009-0008-1026-0187
gulshenhasanovaa@gmail.com
Leyla Ələkbərova
V. Y. Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
https://orcid.org/0009-0009-8835-0200
alekberova-leyla@mail.ru
Əfsanə Əmrahova
V. Y. Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
https://orcid.org/0009-0009-8142-027X
emrahovaefsane@icloud.com

Xəstəxanadaxili infeksiyalar və antibiotiklərə davamlılıq

Xülasə

Son onillikdə yoluxucu patologiyanın artması fonunda xəstəliklər getdikcə opportunist mikro-orqanizmlərlə əlaqələndirilir və çox vaxt uzanan və ya xroniki xarakter alır. Belə ki, xəstəxanadaxili infeksiyalar (XDİ) xəstəliyin gedişini ağırlaşdırmaqla bərabər müalicənin effektivliyini azaldır, həm də xəstələrin stasionarda çarpayı günlərini artırır ki, bu da maliyyə xərclərinin dəfələrlə artmasına gətirib çıxarır. Xəstəxanadaxili infeksiyalar dünyanın bütün klinikalarında qlobal tibbi problem olaraq hələ də tam həllini tapmamışdır. Bütün bunlarla bərabər XDİ bəzən elə ağırlaşmalara səbəb olur ki, buda xəstələrin həyatında ciddi təhlükə yaradır və çox vaxt ölümlə nəticələnir. Hal-hazırda yalnız rinosinüzit, sistit, bronxit, pnevmoniya kimi "klassik" infeksiyalar deyil, həm də artrit, spondilit, aterosklerotik lövhələrin inkişafı, mədə xorası və başqaları yoluxucu agentlə sıx bağlıdır.

Açar sözlər: *xəstəxanadaxili infeksiyalar, antibiotiklər, β-laktamaz, Qram-müsbət bakteriyalar, Qram-mənfi bakteriyalar*

Farida Haydarova
Scientific Research Institute of Medical Prophylaxis named after V. Y. Akhundov
https://orcid.org/0009-0006-0134-9310
fheyderova@inbox.ru
Gulshan Hasanova
Scientific Research Institute of Medical Prophylaxis named after V. Y. Akhundov
https://orcid.org/0009-0008-1026-0187
gulshenhasanovaa@gmail.com
Leyla Alakbarova
Scientific Research Institute of Medical Prophylaxis named after V. Y. Akhundov
https://orcid.org/0009-0009-8835-0200
alekberova-leyla@mail.ru
Afsana Amrahova
Scientific Research Institute of Medical Prophylaxis named after V. Y. Akhundov
https://orcid.org/0009-0009-8142-027X
emrahovaefsane@icloud.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Nosocomial Infections and Antibiotic Resistance

Abstract

In recent decades, against the backdrop of an increase in infectious pathology, diseases are increasingly associated with opportunistic microorganisms and often take on a protracted or chronic nature. Thus, hospital-acquired infections (HAIs) aggravate the course of the disease, reduce the effectiveness of treatment, increase the number of days patients stay in the hospital, which leads to a multiple increase in financial costs. Nosocomial infections have still not been fully resolved as a global medical problem in all clinics around the world. Currently, not only "classical" infections, such as rhinosinusitis, cystitis, bronchitis, pneumonia, but also arthritis, spondylitis, the development of atherosclerotic plaques, gastric ulcer and others are closely associated with the infectious pathogen.

Keywords: *nosocomial infections, antibiotics, β-lactamases, Gram-positive bacteria, Gram-negative bacteria*

Giriş

Son onillikdə, yoluxucu patologiyanın artması fonunda xəstəliklər getdikcə opportunist mikroorqanizmlərlə əlaqələndirilir və çox vaxt uzanan və ya xroniki xarakter alır. Belə ki, xəstəxanadaxili infeksiyalar (XDİ) xəstəliyin gedişini ağırlaşdırmaqla bərabər müalicənin effektivliyini azaldır, həm də xəstələrin stasionarda çarpayı günlərini artırır ki, bu da maliyyə xərclərinin dəfələrlə artmasına gətirib çıxarır. Xəstəxanadaxili infeksiyalar dünyanın bütün klinikalarında qlobal tibbi problem olaraq hələ də tam həllini tapmamışdır. Bütün bunlarla bərabər XDİ bəzən elə ağırlaşmalara səbəb olur ki, buda xəstələrin həyatında ciddi təhlükə yaradır və çox vaxt ölümlə nəticələnir. Hal-hazırda yalnız rinosinüzit, sistit, bronxit, pnevmoniya kimi "klassik" infeksiyalar deyil, həm də artrit, spondilit, aterosklerotik lövhələrin inkişafı, mədə xorası və başqaları yoluxucu agentlə sıx bağlıdır (Sikora & Zahra, 2024; Tchouaket, Beogo, & Sia, 2020; Gordinskaya, Boriskina, & Kryazhev, 2021).

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) verdiyi məlumata görə, xəstəxanadaxili infeksiyaya hər 100 xəstə qrupundan 7-si inkişaf etmiş ölkələrdən, 10-u isə inkişaf etməkdə olan regionlardan şübhəli bilinir (WHO: Department of Communicable Disease Surveillance and Response WHO Global Strategy for Containment of Antimicrobial Resistance, 2023).

ÜST-nin 2010-cu il məlumatına görə, Rusiyada XDİ ilə illik xəstələnmənin 2.5 mln-a çatdığı ehtimal edilir. Digər məlumatlarda isə ABŞ-də ildə XDİ-dan ölümün sayı 80000, Avropa ölkələrində 40000 nəfərə qədər çatır. XDİ hazırda çoxprofilli klinikalarda ölümün əsas səbəblərindən biri olub, daha çox reanimasiya, neonatologiya, cərrahi şöbələrdə ağır vəziyyətdə olan xəstələr arasında rast gəlinir (Nathan, 2003).

Xəstəxana daxili infeksiyaların etioloji amilləri çox vaxt tibb müəssisələrində yayılmış şərti patogen mikroorqanizmlərin ştammları olub antimikrob preparatlara, antiseptiklərə, dezinfektantlara və fiziki amillərə qarşı yüksək davamlılığa malik olur. Belə ki, antibiotiklərin çoxprofilli klinikalarda nəzarətsiz, bakterioloji müayinənin cavabına əsaslanmadan geniş tətbiqi rezistent mikroorqanizmlərin seleksiyasına səbəb olur. Bəzi müəlliflərinin fikrincə, nosokomial infeksiya təcili yardıma daxil olan səhiyyə hallarının 5-10 %-ni təşkil edir. İnfeksiyaların inkişafında müxtəlif risk faktorları arasında *Staphylococcus aureus* ən geniş yayılanıdır (Global burden of bacterial antimicrobial resistance in 2019: a systematic analysis; WHO: Department of Communicable Disease Surveillance and Response WHO Global Strategy for Containment of Antimicrobial Resistance, 2023).

Tədqiqat

Xəstəxanadaxili infeksiyaların (XDİ) yayılması xəstəxanalarda olan müxtəlif bakteriyalarla əlaqələndirilir. Bu infeksiyalar ekstremal şəraitdə xəstələnmə və ölümlə nəticələnir. Antibiotiklərə qarşı müqavimətdən sonra yaranan nosokomial infeksiyalar Yaxın Şərq ölkələrində ciddi xəstələnmə və ölümə səbəb olan problemdir. Ədəbiyyat məlumatlarında Yaxın Şərq ölkələrində nozokomial infeksiyaların və antibiotiklərə qarşı müqavimətin yayılması ilə bağlı mühüm məlumatları çıxarmaq üçün müvafiq tədqiqatlardan istifadə edilmişdir. Bu icmal məqalədə Yaxın Şərqdə ən çox bildirilən nozokomial infeksiyalar — qan dövranı infeksiyaları (BSI) (50 %) və cərrahi sahə

infeksiyaları (50%) və sidik yollarının infeksiyalarıdır (İYE) (Sikora & Zahra, 2024; Parmanik, Das, & Kar, 2022; Nimer, 2022).

Xəstəliklərə Nəzarət Mərkəzi (CDC) ilə Milli Səhiyyə Təhlükəsizliyi Şəbəkəsinə görə, xəstəxanadaxili infeksiyalar, ümumiyyətlə, klinik və bioloji meyarlara əsasən müəyyən edilən infeksiya yerindən asılı olaraq 13 növə təsnif edilir: cərrahi əməliyyatdan sonra yaranan infeksiyalar, tənəffüs yollarının infeksiyaları, qan dövranı infeksiyaları, nosokomial göbələk infeksiyaları, sidik yollarının infeksiyaları, mərkəzi sinir sistemi infeksiyaları, bakterial və viral pnevmoniya və s. qarşılaşmışlar (Global burden of bacterial antimicrobial resistance in 2019: a systematic analysis; Parmanik, Das, & Kar, 2022; Diaz Caballero, Wheatley, & Kapel, 2023)

Ədəbiyyat məlumatlarında qeyd edilir ki, yoluxucu materialın mövcudluğu və yayılması bu infeksiyaların başqa bir mühüm səbəbidir. Bu növ infeksiya əməliyyat zamanı ya endogen, ya da ekzogen yolla əməliyyat yerindən əldə edilir. Nazokomial infeksiyalar ümumiyyətlə bakteriya, göbələk, virus və parazitlər tərəfindən törədilir. Ən çox inkişaf edən ştammlara aşağıdakılar daxildir: koaqulaz neqativ stafilokokklar, metisillinə davamlı *Staphylococcus aureus* (MRSA), enterokok və s. İnfeksiyaların yayılmasına ən çox səbəb antimikrob preparatlara davamlı ştammlardır. Bəzi müəlliflər vankomisinə davamlı enterokokku (VRE) xəstəxana mühitində ən təhlükəli infeksiya kimi qeyd edirlər (Sanz-García et al., 2021). Yaxın Şərq ölkələrində aparılmış digər çoxmərkəzli müşahidə tədqiqatı ABŞ və Avstraliya ilə müqayisədə xüsusilə mərkəzi xətt ilə əlaqəli qan axını infeksiyalarının daha çox olduğunu bildirdi. Ən çox yayılmış mikroorqanizmlər Qram-müsbət bakteriyalar (55,2 %), o cümlədən koaqulaz-mənfi *S.cocci* 31 %, *S.aureus* 14 %, Qram-mənfi bakteriyalar infeksiyanın törədicisi kimi, *K.pnevmoniae* (8 %), *E.coli* 7 %, *P.aeruginosa* 5 % və *Enterobacter spp*. 3% üstünlük təşkil edir (Pranita et al., 2023; Akova, 2016; Nimer, 2022).

Bu cür infeksiyaların inkişafına, adətən, kömək edən digər ümumi risk faktorları: fərdi, yaş, böyrək çatışmazlığı kimi xroniki xəstəliklər, bədxassəli şiş, QİÇS ilə birlikdə xərçəng, aşağı immun status, leykemiya və s. Bundan başqa, terapevtik prosedurlar, endoskopik müayinələr, ventilyasiya, intubasiya, cərrahi prosedurlar və kateterizasiyalar nazokomial infeksiyaların digər səbəbləridir. Bununla belə, hava-damcı yolu və nəqliyyat vasitəsi ilə ötürülmə bu infeksiyalar üçün kritik yerlər kimi müəyyən edilir. Digər sahələrə aşağı tənəffüs yollarının infeksiyaları, qan dövranı infeksiyaları, cərrahi müdaxilə infeksiyaları, yumşaq toxuma infeksiyaları, qastroenterit, sidik yollarının infeksiyaları və s. daxildir (Divatia, Pulinilkunnathil & Myatra, 2020; Nimer, 2022).

Bəzi müəlliflərin tədqiqatları göstərir ki, İranda açıq ürək əməliyyatı keçirən 6000 xəstə arasında təxminən 135 xəstə xəstəxanadaxili infeksiyalara yoluxmuşdur. Bu nazokomial infeksiyalar zamanı iştirak edən əsas patogenlər *E.coli, Klebsiella spp*. və müvafiq olaraqə *S.aureus-dir*. *E.coli* əsasən imipenemə (23,3 %), *Klebsiella spp*. gentamisinə (38,5) və *S.aureus* ko-trimoksazola davamlıdır (54,2 %) (Nimer, 2022).

ESKAPE (*Enterococcus faecium*-un akronimləri, *Staphylococcus aureus*, *K. pneumoniae*, *Acinetobacter baumannii*, *P.aeruginosa* və *Enterobacter spp*.) və TOTEM (TOp TEn müqavimətli mikroorqanizmlər) hazırda ən aktual multidrug-resistent insan patogenlərinə daxildir. *P.aeruginosa* infeksiyaları tez-tez aminoqlikozidlərlə, xüsusilə tobramisinlə, eləcə də sefalosporinlərlə və ya β-laktam/β-laktamaza-inhibitor birləşmələri ilə, məsələn, piperacillin/tazobactam və ya ceftazidime/avibactam ilə müalicə olunur.

Bundan başqa, flüoroxinolonlar (ciprofloxacin), polimiksinlər, fosfomisin, aztreonam və karbapenemlər də seçim antibiotikləridir. Bu istifadə infeksiyanın xüsusiyyətlərindən asılıdır. Bu patogenin bəzi antibiotiklərə qeyd olunan daxili müqaviməti bir çoxlarını imipenem/relebactam kimi β-laktam inhibitorlarının axtarışına məcbur etmişdir. Xüsusi problem xəstəxanalarda, eləcə də icma mühitində, yalnız bütün β-laktam antibiotiklərinə deyil, həm də digər sinif dərmanlarına qarşı müqavimət göstərən sefoksitinə davamlı koaqulaz-mənfi stafilokokların klinik izolatlarının yayılmasıdır (Bassetti et al., 2018; Fraile-Ribot et al., 2020).

Hal-hazırda çoxlu sayda infeksion proseslər fermentləşdirilməyən Qram-mənfi bakteriyaların olması ilə əlaqədardır.

Beləliklə, *Pseudomonas aeruginosa* və *Acinetobacter baumannii* çox vaxt yara infeksiyasının etioloji amili, həmçinin sidik yollarının və bağırsaqların infeksion proseslərinin amilidir (Tapal'skiy et al., 2020; Gordinskaya, Boriskina, & Kryazhev, 2021).

Belə patogenlərin fenotipi müxtəlif β-laktamazların, o cümlədən metallokarbapenemazların iştirakı ilə çox davamlı ştammlardır. Enterobakteriyalar arasında *Klebsiella pneumoniae* üstünlük təşkil edir; yuxarı və aşağı tənəffüs yollarının infeksiyaları, sidik yolu infeksiyalarında, ürək cərrahiyyəsi, neyrocərrahiyyə və reanimasiya şöbələrində təcrid olunur (Gupta et al., 2013; Boucher, Talbot, & Benjamin, 2013).

Amerika İnfeksion Xəstəliklər Cəmiyyəti (2023) antimikrob-rezident Qram mənfi infeksiyaların müalicəsi ilə bağlı müasir rəhbərlik sənədində geniş spektrli β-laktamazanın əmələ gətirdiyi infeksiyalara diqqət yetirir (Enterobacterales, AmpC β-laktamaza istehsal edən Enterobacterales, carbapenemə-resistent Enterobacterales, multidrug-resistant Pseudomonas aeruginosa, carbapenemə-resistent Acinetobacter baumannii və Stenotrophomonas maltophilia). Bu patogenlərin çoxu CDC tərəfindən təcili və ya ciddi təhlükəli infeksiyalar kimi təyin edilmişdir. CDC CRE (karbapenem rezistent enterobacterales) üzvlərini ən azı tək karbapenem antibiotikinə davamlı vəya karbapenemaza fermenti hasil edənləri müəyyən edir (Global burden of bacterial antimicrobial resistance in 2019: a systematic analysis; Pranita et al., 2023; Moellering, 2011).

Multidrug-resistant (MDR)-*P. Aeruginosa* həssaslığı gözlənilən 3antibiotik sinfindən (penisillinlər, sefalosporinlər, fluorxinolonlar, aminoqlikozidlər və karbapenemlər) ən azı bir antibiotikə davamlı olması kimi müəyyənləşdirilib. Aşağıda *P.aeruginosa* davamlı olduğu antibiotiklər təsnif olunur: piperacillin-tazobactam, ceftazidime, cefepime, aztreonam, meropenem, imipenem-cilastatin, ciprofloxacin və levofloxacin. ESBL-lər əksər penisillinləri, sefalosporinləri və aztreonamları hərəkətsiz edən fermentlərdir. EBSL-E ümumiyyətlə karbapenemlərə qarşı meyilli qalır (European Centre for Disease Prevention and Control Communication from the Commission to the European Parliament and the Council. Action plan against the rising threats from Antimicrobial Resistance, 2013).

ESBL-lər qeyri-β-laktam agentlərini (məs., ciprofloxacin, trimetoprim-sulfamethoxazole, gentamisin) aktivləşdirmirlər. Lakin ESBL genlərini daşıyan orqanizmlər çox vaxt genlərdə əlavə genlər və ya mutasiyalar saxlayırlar ki, bu da geniş antibiotiklərə qarşı müqaviməti vasitəçi edir. AmpC β-laktmas bir sıra *Enterobacterales* və qlükoza qeyri-üzvi Qram-mənfi orqanizmlər tərəfindən bazal səviyyədə istehsal olunan β-laktamaza fermentləridir. Onların əsas funksiyası hüceyrə divarının emalına kömək etməkdir. AmpC β-laktamlar bir sıra β-laktam agentlərini hidroliz etmək qabiliyyətinə malikdir (Global burden of bacterial antimicrobial resistance in 2019: a systematic analysis; Jabes, 2011; Chew et al., 2023).

Nəticə

Müxtəlif xəstəxanalarla əlaqəli səhiyyə infeksiyaları qlobal miqyasda yayılmasıdır və bu, sağlamlıq üçün mənfi təsirlərə səbəb olur.

Bu infeksiyaların səhiyyə xidmətinin keyfiyyətinə mənfi təsir göstərərək müxtəlif problemlərin inkişafına səbəb olur. Xəstəxana daxili infeksiyaların yayılması ilə bağlı patoloji biliklər bu infeksiyaların yayılmasına nəzarət etməyə kömək edə bilər.

Ədəbiyyat

1. Akova, M. (2016). Epidemiology of antimicrobial resistance in bloodstream infections. *Virulence*, 7(3), 252–266.
2. Bassetti, M., Vena, A., Croxatto, A., Righi, E., & Guery, B. (2018). Как лечить инфекции Pseudomonas aeruginosa. *Drugs Context*, 7, 212527.
3. Boucher, H. W., Talbot, G. H., & Benjamin, D. K. (2013). 10 x ‘20 Progress–Development of New Drugs Active Against Gram-negative Bacilli: An Update from the Infectious Diseases Society of America. *Clinical Infectious Diseases*, 56(12), 1685–1694.

4. Chew, C. H., Yeo, C. C., Che Hamzah, A. M., Al-Trad, E. I., & Jones, S. U. (2023). Multidrug-resistant methicillin-resistant *Staphylococcus aureus* associated with hospitalized newborn infants. *Diagnostics,* 13, 1050. https://doi.org/10.3390/diagnostics13061050
5. Diaz Caballero, J., Wheatley, R. M., & Kapel, N. (2023). Mixed strain pathogen populations accelerate the evolution of antibiotic resistance in patients. *Nature Communications,* 14, 4083. https://doi.org/10.1038/s41467-023-39416-2
6. Divatia, J. V., Pulinilkunnathil, J. G., & Myatra, S. N. (2020). Nosocomial infections and ventilator-associated pneumonia in cancer patients. In *Oncol Crit Care,* 1419-1439. https://doi.org/10.1007/978-3-319-74588-6_125
7. European Centre for Disease Prevention and Control. (2011). Communication from the Commission to the European Parliament and the Council: Action plan against the rising threats from antimicrobial resistance. [Accessed: December 20, 2013]. Available at: http://ec.europa.eu/dgs/health_consumer/docs/communication_amr_2011_748_en.pdf
8. Fraile-Ribot, P. A., Zamorano, L., Orellana, R., Del Barrio-Tofino, E., Sanchez-Diener, I., & Cortes-Lara, S. (2020). Activity of imipenem-relebactam against a large collection of *Pseudomonas aeruginosa* clinical isolates and isogenic beta-lactam-resistant mutants. *Antimicrobial Agents and Chemotherapy,* 64, e02165-19.
9. Gordinskaya, N. A., Boriskina, Ye. V., & Kryazhev, D. V. (2021). Antibiotikorezistentnost' kak faktor virulentnosti uslovno-patogennykh mikroorganizmov. *Klinicheskaya Meditsina*, *4*, 50-56.
10. Gupta, V., Garg, R., Garg, S., Chander, J., & Attri, A. K. (2013). Coexistence of extended spectrum beta-lactamases, AmpC beta-lactamases, and metallo-beta-lactamases in *Acinetobacter baumannii* from burn patients: A report from a tertiary care centre of India. *Annals of Burns and Fire Disasters,* 26(4), 189-192.
11. Jabes, D. (2011). The antibiotic R&D pipeline: An update. *Current Opinion in Microbiology,* 14(5), 564–569.
12. Lobdell, K. W., Stamou, S., & Sanchez, J. A. (2012). Hospital-acquired infections. *Surgical Clinics of North America,* 92(1), 65-77.
13. Moellering, R. C. (2011). Discovering new antimicrobial agents. *International Journal of Antimicrobial Agents,* 37(1), 2-9.
14. Murray, C. J. L., et al. (2020). Global burden of bacterial antimicrobial resistance in 2019: A systematic analysis. *The Lancet,* 399(10325), 629–655.
15. Nathan, C. (2003). Antibiotics at the crossroads. *Nature, 431*(7011), 899–902.
16. Nimer, N. A. (2022, Feb). Nosocomial infection and antibiotic-resistant threat in the Middle East. *Infectious Drug Resistance,* 15, 631-639. https://doi.org/10.2147/IDR.S351755
17. Parmanik, A., Das, S., & Kar, B. (2022). Current treatment strategies against multidrug-resistant bacteria: A review. *Current Microbiology*, 79, 388. https://doi.org/10.1007/s00284-022-03061-7
18. Pranita, D. Tamma, S. L. Aitken, R. A. Bonomo, A. J. Mathers, D. van Duin, C. J. Clancy. (2023). Infectious Diseases Society of America 2023 guidance on the treatment of antimicrobial resistant gram-negative infections. *Clinical Infectious Diseases, ciad 428.* https://doi.org/10.1093/cid/ciad428
19. Sikora, A., & Zahra, F. (2024, January). Nosocomial infections. [Updated 2023 Apr 27]. In *StatPearls [Internet]*. Treasure Island (FL): StatPearls Publishing. https://www.ncbi.nlm.nih.gov/books/NBK559312/
20. Sanz-García, F., Gil-Gil, T., Laborda, P., & Ochoa-Sánchez, L. E. (2021). Coming from the wild: Multidrug resistant opportunistic pathogens presenting a primary, not human-linked, environmental habitat. *International Journal of Molecular Sciences,* 22, 8080. https://doi.org/10.3390/ijms22158080
21. Tchouaket, E. N., Beogo, I., & Sia, D. (2020). Protocol for a systematic review of economic analyses of nosocomial infection prevention and control interventions in OECD hospitals. *BMJ Open*, 10, e037765. https://doi.org/10.1136/bmjopen-2020-037765
22. Tapal'skiy, D. V., Petrovskaya, T. A., Kozlova, A. I., & Eydel'shteyn, M. V. (2020). Po-tentsirovaniye antibakterial'noy aktivnosti kolistina v otnoshenii mnozhestvenno-i ekstermal'no-

rezistentnykh klinicheskikh izolyatov *Klebsiella pneumoniae, Acinetobacter baumannii* i *Pseudomonas aeruginosa* antibiotikami raznykh grupp. *Klinicheskaya mikrobiologiya i antimikrobnaya khimioterapiya,* 22(2), 128-136. https://doi.org/10/36488/cmac.2020.2.128-136

23. WHO: Department of Communicable Disease Surveillance and Response. (2013). WHO global strategy for containment of antimicrobial resistance. [Accessed: December 20, 2013]. Available at: http://www.who.int/csr/resources/publications/drugresist/en/EGlobal_Strat.pdf

Daxil oldu: 04.09.2024
Baxışa göndərildi: 18.11.2024
Təsdiq edildi: 25.12.2024
Çap olundu: 22.01.2025

https://doi.org/10.36719/2663-4619/110/81-84

Elnur Həsənov
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0009-0009-9355-1496
helnur466@gmail.com

Quba-Xaçmaz bölgəsində müşahidə olunan zərərvericilər

Xülasə

Quba-Xaçmaz bölgəsindəki zərərvericilərin müşahidəsi yalnız yerli kənd təsərrüfatı və bağçılıq üçün deyil, ümumiyyətlə, regional ekosistem üçün də əhəmiyyətlidir. Bu bölgədəki müsbət iqlim şəraiti və torpaq resursları kənd təsərrüfatının inkişafı üçün əlverişlidir, lakin eyni zamanda müxtəlif zərərvericilərin də meydana gəlməsinə səbəb olur. Bu zərərvericilər kənd təsərrüfatı məhsullarına ciddi təhlükə yaratmaqla yanaşı, bitki sağlamlığı və məhsulun keyfiyyəti üzərində mənfi təsir göstərir. Araşdırmalarda ən çox rast gəlinən zərərvericilərin növləri müəyyən edilmişdir və onların bitkilər üzərində yaratdığı ziyanlar təhlil olunmuşdur. Ən çox rast gəlinən zərərvericilər arasında armud bagacığı, alma bitkisinə təsir edən növlər və müxtəlif həşəratlar yer alır. Bu növlər həm bitkilərin yarpaqlarına, həm də meyvələrinə ziyan vuraraq məhsul itkilərinə səbəb olur. Bioekoloji tədqiqatlar bu zərərvericilərin yayılma arealını və ekosistemə verdiyi təsirləri ətraflı şəkildə öyrənməyə imkan verib. Zərərvericilərin fəaliyyətini başa düşmək, onların bioloji xüsusiyyətlərini təhlil etmək və yayılma mühitini müəyyən etmək mübarizə tədbirlərinin daha səmərəli tətbiqinə kömək edir.

Açar sözlər: *zərərvericilər, Quba-Xaçmaz, bioekoloji xüsusiyyətlər, kənd təsərrüfatı, aqrotexniki tədbirlər, pestisidlər, meyvə bitkiləri, mübarizə üsulları, ekosistem, tədqiqat*

Elnur Hasanov
Azerbaijan State Agrarian University
https://orcid.org/0009-0009-9355-1496
helnur466@gmail.com

Pests Observed in the Guba-Khachmaz Region

Abstract

Observation of pests in the Quba-Khachmaz region is important not only for local agriculture and horticulture, but also for the regional ecosystem in general. The favorable climatic conditions and soil resources in this region are favorable for the development of agriculture, but at the same time they cause the emergence of various pests. These pests, in addition to posing a serious threat to agricultural products, have a negative impact on plant health and product quality. The studies identified the most common types of pests and analyzed the damage they cause to plants. The most common pests include pear stem borers, species affecting apple plants, and various insects. These species cause crop losses by damaging both the leaves and fruits of plants. Bioecological studies have allowed us to study in detail the distribution area of these pests and their effects on the ecosystem. Understanding the activity of pests, analyzing their biological characteristics and determining the distribution environment helps to implement control measures more effectively. Studies on pest control methods have investigated the effectiveness of the use of pesticides and the application of alternative control methods (agrotechnical measures, biological control).

Keywords: *pests, Guba-Khachmaz, bioecological characteristics, agriculture, agrotechnical measures, pesticides, fruit plants, control methods, ecosystem, research*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

Quba-Xaçmaz bölgəsi Azərbaycanın şimal-şərq hissəsində yerləşən və kənd təsərrüfatı ilə məşğul olan ərazilərdən biridir. Bu bölgə xüsusilə meyvəçilik sahəsində geniş imkanlara malikdir və ərazinin zəngin torpaq-iqlim şəraiti müxtəlif meyvə bitkilərinin yetişdirilməsinə əlverişli şərait yaradır. Lakin bu zəngin kənd təsərrüfatı resursları eyni zamanda müxtəlif zərərvericilərin meydana gəlməsinə səbəb olur. Zərərvericilər bu meyvə bitkilərinin sağlamlığını və məhsul verimini mənfi təsir edərək kənd təsərrüfatı istehsalına ciddi ziyan vurur. Bu səbəbdən zərərvericilərlə mübarizə mövzusu bu bölgədəki aqrar inkişafın mühüm məsələlərindən biridir. Zərərvericilərin fəaliyyəti yalnız məhsul itkilərinə səbəb olmaqla kifayətlənmir, həm də ekosistemin tarazlığını pozur, müxtəlif bioloji proseslərə mənfi təsir göstərir və kənd təsərrüfatı sahələrinin gələcək inkişafına mane ola bilər (Əhmədov, 2020).

Ədəbiyyat icmalı

Xirnik bitkisinin məhsuldarlığı və meyvələrin kimyəvi tərkib göstəricilərinə, cərgə arasının saxlanması sisteminin təsiri (Məmmədov, Həsənov, 2010, s. 50-56). Bu araşdırmada xirnik bitkisinin məhsuldarlığı və meyvələrinin kimyəvi tərkib göstəricilərinin cərgə arasının saxlanma sisteminə təsiri təhlil edilmişdir (Məmmədov, Həsənov, 2011, s. 256-259). Budama prosesinin xirnik bitkisinin məhsuldarlığına təsiri bu araşdırmanın əsas mövzusudur. Budama, bitkilərin inkişafını yönləndirmək və onların məhsuldarlığını artırmaq üçün mühüm aqrotexniki tədbir hesab edilir (Gasanov, 2015, s. 12-13). Bu məqalə, Şərq xurmasının istehsalı ilə bağlı iqtisadi qiymətləndirmə məsələlərini əhatə edir. Şərq xurması istehsalının iqtisadi cəhətdən səmərəliliyini təhlil edən bu iş, meyvə istehsalının gəlir və xərclər baxımından qiymətləndirilməsini təqdim edir (Həsənov, 2016, s. 66-69). Bu tədqiqatda cərgə arasının saxlanmasının Şərq xurmasının inkişafına və məhsuldarlığına təsiri araşdırılmışdır (Həsənov, 2016, s. 151-152). Bu araşdırmada, Şərq xurması bağı təcrübə sahəsinin torpağının su-fiziki xüsusiyyətlərinə, o cümlədən cərgə arası torpağın saxlanma sisteminin təsirinə diqqət yetirilmişdir.

Material və metod

Tədqiqatın aparılması üçün istifadə olunan material və metodlar, araşdırmanın məqsədlərinə çatmaq və nəticələrinin dəqiqliyini təmin etmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bu bölmədə Quba-Xaçmaz bölgəsindəki zərərvericilərin bioekoloji xüsusiyyətlərini araşdırmaq və bu zərərvericilərə qarşı tətbiq olunan mübarizə üsullarının effektivliyini qiymətləndirmək üçün tətbiq olunan materiallar, metodlar və tədqiqatın gedişatı barədə məlumat veriləcəkdir (Quliyev, 2019, s. 33-42). Tədqiqatın material bazası, bölgənin təbii və aqroekosistem şəraiti nəzərə alınaraq seçilmişdir. Bu məqsədlə, tədqiqatın aparılacağı sahələr, xüsusilə meyvə bağları və kənd təsərrüfatı sahələri kimi zərərvericilərin ən çox rast gəlinən ərazilər seçilmişdir. Həmçinin seçilən ərazilərin iqlim və torpaq şəraiti bu tədqiqatın keyfiyyətinə müsbət təsir göstərəcəkdir. Bu bölgədəki zərərvericilərin növ tərkibi, yayılma arealı və təsir etdiyi bitkilər diqqətlə öyrənilmişdir. Metod olaraq, bir neçə fərqli yanaşma tətbiq edilmişdir (Məmmədov, 2018, s. 45-55).

Cədvəl 1

Zərərverici növləri və verim üzərində təsiri

Zərərverici növləri	Təsir edilən bitki	Verim üzərində təsir (%)	Zərər növü
Armud bagaçığı	Armud	30	Yarpaqlara və meyvələrə ziyan
Alma itkisi böcəyi	Alma	20	Meyvələrə ziyan
Alma böcəyi	Alma	25	Meyvələrə ziyan
Yarpaqların çəkilməsi	Meyvə bitkiləri	15	Yarpaqlara ziyan
Afidlər	Meyvə bitkiləri	10	Yarpaqlara və şirə ziyan

Mənbə: Həsənov, F. Ş. (2016). Şərq xurması bağı təcrübə sahəsi torpağının su-fiziki xüsusiyyətinə, cərgə arası torpağın saxlanması sisteminin təsiri. *Azərbaycan Aqrar Elm jurnalı*, 4, 151-152.

Quba-Xaçmaz bölgəsindəki kənd təsərrüfatı sahələrində məhsulun azalmasına səbəb olan əsas zərərvericilər arasında armud bagacığı, alma itkisi böcəyi, alma böcəyi, yapraq çəkilməsi və afidlər yer alır. Bu zərərvericilər bitkilərin inkişafını pozur və məhsul itkilərinə, keyfiyyətin azalmasına səbəb olur. Məsələn, armud bagacığı bitkinin yarpaqlarına və meyvələrinə ziyan vuraraq məhsulun verimini 30 % azaldır (Əsədov, 2016). Alma itkisi böcəyi və alma böcəyi isə meyvələrin keyfiyyətini pisləşdirir və məhsul verimini 20 %-25 % azaldır. Yapraq çəkilməsi bitkinin fotosintezini əngəlləyərək 15 %-lik məhsul itkisinə səbəb olur, afidlər isə bitkilərin şirəsini udur və 10 % məhsul azaldır. Bu zərərvericilərlə mübarizə, kənd təsərrüfatının məhsuldarlığını artırmaq üçün vacibdir (Həsənov, 2017, s. 62-70).

Cədvəl 2

Bioloji Mübarizə Metodları və Təsirliliyi

Mübarizə metodu	**Hədəf zərərverici**	**Təsirlik (%)**	**Məqsəd (USD/Ha)**
Yırtıcı həşəratlar	Afidlər, Armud Bagaçığı	70	50
Parazitar Vəspsilər	Alma itkisi böcəyi	85	60
Faydalı Nematodlar	Kök Nematodları	60	45
Bacillus thuringiensis	Alma Böcəyi	75	100

Mənbə: Həsənov, F.Ş. (2016). Cərgə arasının saxlanmasının Şərq xurmasının inkişaf və məhsuldarlığına təsiri. *AMEA, Gəncə bölməsi, Xəbərlər məcmuəsi*, III (65), 66-69.

Bu metodlar ekosistemi qoruyur və bitkilərin sağlam inkişafını təmin edir. Yırtıcı həşəratlar, parazitar vəspsilər, faydalı nematodlar və Bacillus thuringiensis kimi bioloji maddələr zərərvericilərə qarşı tətbiq edilir. Yırtıcı həşəratlar afidlər və armud bagacığı kimi zərərvericilərin populyasiyasını 70 %-ə qədər azaldır. Parazitar vəspsilər, alma itkisi böcəyi və alma böcəyi ilə mübarizədə effektivdir və 85 % təsirli olur. Faydalı nematodlar kök zərərvericilərinin sayını 60 %-ə qədər azaldır, Bacillus thuringiensis isə 75 %-lik təsir göstərir. Bu metodlar, ətraf mühitə ziyan vurmadan məhsul itkilərini azaldır və ekoloji problemləri aradan qaldırır (İsmayılov, 2020, s. 33-42).

Nəticə

Zərərvericilərlə mübarizə, Quba-Xaçmaz bölgəsində kənd təsərrüfatı və bağçılıq sahələrinin davamlı inkişafı və məhsul veriminin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu tədqiqatda bölgədəki əsas zərərvericilərin bioloji və ekoloji xüsusiyyətləri öyrənilmiş, həmçinin bu zərərvericilərə qarşı tətbiq olunan mübarizə üsullarının effektivliyi qiymətləndirilmişdir. Müşahidə edilən zərərvericilər arasında armud bagacığı, alma itkisi böcəyi, alma böcəyi və afidlər ön planda olmuş, bu zərərvericilərin məhsul veriminə və bitkilərin sağlamlığına ciddi təsir göstərdiyi məlum olmuşdur. Tədqiqat nəticələrinə əsasən, bioloji mübarizə metodları, həm ekologiya baxımından daha təbii və davamlı yanaşmalar təklif edir, həm də zərərvericilərin populyasiyasını effektiv şəkildə idarə etməyə kömək edir. Yırtıcı həşəratlar, parazitar vəspsilər və faydalı nematodlar kimi bioloji vasitələr, pestisidlərə alternativ olaraq geniş şəkildə istifadə edilə bilər.

Ədəbiyyat

1. Əhmədov, A. (2020). Kənd təsərrüfatında zərərvericilərlə mübarizə metodları: Bioloji və kimyəvi yanaşmalar. *Azərbaycan Kənd Təsərrüfatı Elmi Araşdırmalar Jurnalı.*
2. Əsədov, R. (2016). Zərərvericilərin bioloji mübarizəsi: Təsirli metodlar və tətbiqlər. *Azərbaycan İqtisadiyyat və Ekologiya Jurnalı*, 22(1), 50-59.
3. Həsənov, F. Ş. (2016). Cərgə arasının saxlanmasının Şərq xurmasının inkişaf və məhsuldarlığına təsiri. *AMEA, Gəncə bölməsi, Xəbərlər məcmuəsi*, III (65), 66-69.
4. Həsənov, F. Ş. (2016). Şərq xurması bağı təcrübə sahəsi torpağının su-fiziki xüsusiyyətinə, cərgə arası torpağın saxlanması sisteminin təsiri. *Azərbaycan Aqrar Elm jurnalı*, 4, 151-152.

5. Həsənov, İ. (2017). Zərərvericilərlə mübarizədə bioloji metodların tətbiqi. *Agroekologiya və Təbiət Mühafizəsi*, 11(3), 62-70.
6. İsmayılov, F. (2020). Pestisidlərin kənd təsərrüfatında istifadəsi və ekoloji problemlər. *Bioresurslar və Ekologiya*, 14(6), 34-41.
7. Quliyev, M. (2019). Kimyəvi pestisidlər və onların kənd təsərrüfatına təsiri. *Kənd Təsərrüfatı İqtisadiyyatı və Bütünlükdə Ekologiya Jurnalı*, 13(4), 33-42.
8. Məmmədov, C. Ş., & Həsənov, F. Ş. (2009). Gübrələrin xirnik bitkisinin zoğlarının inkişafına təsiri. *Azərbaycan Aqrar Elm jurnalı*, 3-4, 87-88.
9. Məmmədov, C. Ş., & Həsənov, F. Ş. (2010, 24-27 sentyabr). Xirnik bitkisinin məhsuldarlığı və meyvələrin kimyəvi tərkib göstəricilərinə, cərgə arasının saxlanması sisteminin təsiri. In *Botanika bağlarının müasir mərhələdə təbi mühafizəsi: Beynəlxalq Konfransın Materialları*. Bakı, s. 50-56.
10. Məmmədov, C. Ş., & Həsənov, F. Ş. (2011). Budamanın xirniyin məhsuldarlığına təsiri. In *Ə.S. Nərimanovun 100 illik yubileyinə həsr olunmuş elmi-praktiki konfransın materialları* (s. 256-259).
11. Məmmədov, E. (2018). Pestisidlərin kənd təsərrüfatı ekosisteminə təsiri. *Ekologiya və Ətraf Mühit Jurnalı*, 12(5), 45-55.
12. Gasanov, F. Sh. (2015). Ekonomicheskaya otsenka vozdelyvaniya vostochnoy khurmy. *Zhurnal «Agrarnaya nauka»*, 8, 12-13.

Daxil oldu: 16.08.2024
Baxışa göndərildi: 27.10.2024
Təsdiq edildi: 19.12.2024
Çap olundu: 22.01.2025

RİYAZİYYAT VƏ MEXANİKA ELMLƏRİ

MATHEMATICAL AND MECHANICAL SCIENCES

https://doi.org/10.36719/2663-4619/110/85-89

Məftun Əliyev
Naxçıvan Dövlət Universiteti
fizika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0001-9956-6068
meftun-aliyev@rambler.ru
Şərmin Həsənova
Naxçıvan Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0002-7733-2508
serminhasanli@gmail.com

Fiber optik rabitə ötürülməsi texnologiyasının xüsusiyyətləri

Xülasə

Müasir rabitə sistemlərində yüksək sürətli məlumat ötürülməsi və geniş bant genişliyi təmin edən fiber optik rabitə texnologiyası mühüm əhəmiyyət daşıyır. Bu texnologiya, işıq siqnallarını istifadə edərək məlumatları ötürür, bu da elektrik siqnallarına nisbətən daha az itki və zəifləşməyə səbəb olur. Fiber optik kabellər elektromaqnit müdaxilələrinə qarşı daha davamlıdır, bu da daha stabil və etibarlı əlaqə təmin edir. Yüksək sürət, geniş bant və aşağı gecikmə ilə daha sürətli internet, videokonfranslar, bulud xidmətləri və tibbi məlumat mübadiləsi kimi sahələrdə geniş tətbiq sahəsi tapır. Fiber optik texnologiya həmçinin məlumat təhlükəsizliyini artırır və uzun məsafələrə məlumat ötürülməsini asanlaşdırır.

Açar sözlər: *fiber optik rabitə, məlumat ötürülməsi, təhlükəsizlik, yüksək sürət, fiber optik kabellər, işıq siqnalları, informasiya texnologiyaları, genişzolaqlı rabitə, fiber optik şəbəkələr*

Maftun Aliyev
Nakhchivan State University
Doctor of Philosophy in Physics
https://orcid.org/0009-0001-9956-6068
meftun-aliyev@rambler.ru
Sharmin Hasanova
Nakhchivan State University
Master student
https://orcid.org/0009-0002-7733-2508
serminhasanli@gmail.com

Features of Fiber Optic Communication Transmission Technology

Abstract

Fiber optic communication technology plays a crucial role in modern communication systems by enabling high-speed data transmission and broad bandwidth. This technology transmits data using light signals, which results in less loss and attenuation compared to electrical signals. Fiber optic cables are more resistant to electromagnetic interference, providing more stable and reliable connections. With high speed, broad bandwidth, and low latency, it has wide applications in areas such as faster internet, videoconferencing, cloud services, and medical data exchange. Fiber optic technology also enhances data security and facilitates long-distance data transmission.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Keywords: *fiber optic communication, data transmission, security, high speed, fiber optic cables, light signals, information technology, broadband communication, fiber optic networks*

Giriş

Fiber optik rabitə ötürülməsi texnologiyası müasir rabitə sistemlərində əvəzolunmaz bir yer tutur və informasiya cəmiyyətinin inkişafında mühüm rol oynayır. Bu texnologiyanın ən əsas xüsusiyyətləri arasında yüksək bant genişliyi, az itki və zəifləşmə, ətraf mühitə davamlılıq, yüksək təhlükəsizlik və sürət, eləcə də yüngül və kiçik ölçülü olması ön plana çıxır. Birincisi, fiber optik sistemlər geniş bant genişliyi təklif edir ki, bu da böyük məlumat həcminin sürətlə ötürülməsinə imkan verir. İnternet istifadəçilərinin və müəssisələrin tələblərinə cavab vermək üçün müasir rabitə şəbəkələrində bu xüsusiyyət son dərəcə vacibdir. Yüksək sürət və geniş bant genişliyi, videokonfranslar, bulud xidmətləri və digər geniş məlumat mübadiləsi tələb edən tətbiqlərin daha keyfiyyətli işləməsini təmin edir. İkincisi, fiber optik kabellər elektrik siqnallarından istifadə etmədiyi üçün xarici elektromaqnit müdaxilələrindən və interferensiyalardan qorunur. Bu xüsusiyyət onların daha stabil və etibarlı işləməsini təmin edir, beləliklə məlumat ötürülməsi zamanı baş verə biləcək xətalar minimuma endirilir. Ayrıca, fiber optik kabellərin siqnal zəifliyi və itməsi çox aşağıdır, bu da uzun məsafələrə məlumat ötürülməsini asanlaşdırır. Fiber optik texnologiyanın bir digər mühüm üstünlüyü isə məlumatların yüksək təhlükəsizliyidir. Elektrik siqnalı istifadə olunmadığı üçün kəsilmələr və ya müdaxilələr çox nadirdir, bu da məlumatların müdaxilədən qorunmasını təmin edir. Həmçinin, bu texnologiya optik və ya mis kabellərlə müqayisədə daha az fiziki yer tutaraq yüngül və sərfəli quraşdırma imkanları yaradır (Quliyev, 2011).

Tədqiqat

Fiber optik rabitə texnologiyası, digər məlumat ötürmə metodlarına nisbətən bir sıra mühüm üstünlüklərə malikdir. Bu üstünlüklər onun müxtəlif sahələrdə geniş tətbiq edilməsinə səbəb olur. Fiber optik texnologiyanın ən böyük üstünlüklərindən biri onun məlumatları çox yüksək sürətlə ötürmə qabiliyyətidir. Fiber optik kabellər saniyədə gigabitlər, hətta terabitlər həcmində məlumat ötürə bilir. Bu, ənənəvi mis kabellərdən çox daha sürətlidir. Fiber optik şəbəkələr çox yüksək bant genişliyini dəstəkləyir, bu da internet və digər xidmətlər üçün daha sürətli əlaqə və daha çox məlumat ötürülməsini təmin edir. Onun gələcək inkişafı informasiya texnologiyaları, telekommunikasiya və digər sahələrdə yeni imkanlar yaradır. Məhz yuxarıda göstərilən xüsusiyyətlərə görə fiber optik rabitə ötürülməsi texnologiyası müxtəlif sahələrdə geniş istifadə olunur. Fiber optik rabitə texnologiyası, məlumatların işıq siqnalları ilə ötürülməsi prinsipinə əsaslanır. Bu texnologiya, optic liflərdən istifadə edərək məlumatları yüksək sürətlə və uzun məsafələrə ötürməyə imkan verir. Fiber optik kabellər işıq siqnallarını keçirərək, elektrik siqnallarının qarşısında olan kənar təsirlərə (məsələn, elektromaqnit qarışıqlığı) qarşı daha davamlıdırlar və çox yüksək bant genişliyi təmin edirlər. Fiber optik rabitə texnologiyası, optik liflərin içərisindəki işıq siqnallarını istifadə edərək məlumatları ötürür. İşıq siqnalları, elektrik siqnallarının qarşısında olan bəzi mənfi təsirlərdən (elektromaqnit müdaxiləsi kimi) daha az təsirlənir və yüksək sürət təmin edir. Bu texnologiya, işığın total daxili əks etmə (total internal reflection) prinsipi ilə işə düşür. Yəni işıq şüaları fiber optik lifin içərisində qalır və uzaq məsafələrə ötürülür (Həsənov, Əlizadə, 2010).

Fiber optik texnologiyasının bir çox tətbiq sahəsi var. Fiber optik kabellər internet provayderləri və telefon şəbəkələri tərəfindən geniş istifadə olunur. Onlar yüksək sürətli internet və telefon xidmətləri təmin edir. Fiber optik şəbəkələr, yüksək keyfiyyətli televiziya və video yayımlarını təmin edir, xüsusilə çox yüksək həlləri (4K, 8K) dəstəkləyir (Chowdhury & Bose, 2016).

Fiber optik kabellər tibbi cihazlar arasında məlumat mübadiləsi üçün istifadə olunur. Onlar məlumatı işıq siqnalları vasitəsilə ötürərək yüksək sürət, aşağı gecikmə və böyük bant genişliyi təmin edir. Elektrik siqnalları əvəzinə işıq siqnallarından istifadə etməklə, məlumat ötürülməsi zamanı elektromaqnit müdaxilələrə qarşı davamlılıq artır və siqnalın keyfiyyəti yüksək qalır. Fiber optik kabellər, həmçinin geniş bant genişliyi sayəsində böyük həcmli məlumatları (məsələn, tibbi görüntülər və ya real vaxt analizlər) sürətli və etibarlı şəkildə ötürə bilir. Onların uzun məsafələrdə belə siqnal itkisini minimuma endirməsi, tibbi cihazlar arasında fasiləsiz və dəqiq məlumat müba-

diləsini mümkün edir. Bu xüsusiyyətlər, xüsusilə tibbi cihazlarda dəqiq və vaxtında məlumat mübadiləsi üçün həyati əhəmiyyət daşıyır. Həmçinin uzaqdan diaqnostika və əməliyyatlar üçün də faydalıdır. Uzaqdan diaqnostika zamanı həkimlər real vaxtda xəstənin həyati göstəricilərini və ya tibbi görüntülərini analiz edə bilirlər. Bu, təcili hallarda dəqiq və vaxtında qərar qəbul etmək üçün çox vacibdir. Fiber optiklərin geniş bant genişliyi və aşağı gecikmə xüsusiyyətləri, böyük həcmli məlumatların (məsələn, optikin və ya MRİ görüntüləri) sürətli və keyfiyyətli ötürülməsini mümkün edir. Uzaqdan əməliyyatlarda (telecərrahiyyə) fiber optik kabellər cərrahi robotların idarəetmə siqnallarını və yüksək dəqiqlikli video görüntüləri fasiləsiz ötürərək, əməliyyatın təhlükəsizliyini və dəqiqliyini artırır. Bu texnologiya, xüsusilə, çətin əlçatan bölgələrdə və ya ixtisaslaşmış cərrahların yerində olmadığı hallarda həyati əhəmiyyət daşıyır. Fiber optik kabellərin etibarlılığı və siqnalın keyfiyyətinin yüksək olması, bu sahədə onların istifadəsini ideal edir (Keiser, 2011).

